AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

**SƏDNİK PAŞA PİRSULTANLI**

# AZƏRBAYCAN AĞIZ ƏDƏBİYYATINDA NAĞILLAR

*Gəncə Dövlət Universitetinin Nəşriyyat şöbəsinin 06 dekabr 2012-ci il tarixli qərarı ilə çap olunur*

**GƏNCƏ - 2012**

Toplayanı, tərtib edəni və ön sözün müəllifi:
***Sədnik Paşa Pirsultanlı,***
***filologiya elmləri doktoru, professor***

***Redaktor: SAHİBƏ PAŞAYEVA,***
***Azərbaycan Folklor İnstitutunun***
***elmi əməkdaşı***

***“Azərbaycan ağız ədəbiyyatında nağıllar” 144 səh.***

*Nağıllar yaşlı nəsil tərəfindən dönə-dönə nəşr edilmişdir. Hətta, beşcildlik nəşri hazırlanmışdır. Nağıllara məhşur folklorşünas, professor Məmmədhüseyn Təhmasib geniş mündəricəli, dərin elmi əhəmiyyəti olan müqəddimə yazmışdır. Yazıçı-alim M.İbrahimov “Kəlilə və Dimnə” əsərinə yazdığı ön sözdə nağıllardakı möcüzələrə, fantaziyalara toxunmuşdur. Topladığımız nağılların mahiyyətinə toxunarkən ən çox bizi maraqlandıran folklorun, o cümlədən, nağılllların arxeologiyası olmuşdur. Bu kitabda cəm olan nağıllarla əsatirlərimizə, onun arxeologiyasına tam nail olmaq olmaz. Yaşımın səksən üçə çatmasına baxmayaraq, mən bunu işin başlanğıcı hesab edirəm. Yəqin ki, nağılların növbəti sayında ömür vəfa qılsa, biz buna nail olacağıq.*

***EL 03 00037***
***037.06.12.2012***

# *Nağılların arxeologiyası*

Əslində, arxeologiya yeraltı qazıntılarla məşğul olan bir elmdir. Bizə görə, yerüstü arxeologiya da vardır. Onun adı "folklor arxeologiyası"dır.

Əfsanələr və nağıllar öz başlanğıcını əsatirlərdən alır. Bunların zəminində isə epos və dastanlar yaranır. Bədii təfəkkürün yaratdığı bu qədim janrlar içərisində ən geniş tutumlusu, əhatəlisi, ölçüyə-biçiyə gəlməzi, dərya, dəniz, okean hesab edilən nağıllardır. Əsatirlər, əfsanələr, ovsunlar, cadular, tilsimlər, totemlər, toponimlər, qədim inanclar, hətta, mərasimlər də bütövlükdə fantaziyalar qoynunda bu nağıllarda yaşayır.

Nağıllara elə-belə baxmaq olmaz. Dünyanın sirri, sehri bu nağıllardadır. Nağıllarda qəhrəmanlar gedər-gəlməz məkanlara gedir, tilsimli dağlarla, qalalarla üzləşir, azman divlərlə, cadugər qarılarla qarşılaşırlar.

Fransızlarda, ispanlarda və italyanlarda "talisman" kitabları var. Həmin kitablarda falaçma, uzaqgörmə və s. əlamətlər özünə yer almışdır. Bizdə belə kitablar yoxdur və nağılları nağıl kimi oxuyurlar. Buradakı tilsimli dağlar və qalalar, div, əjdaha, simurq quşu və s. obrazlar öyrənilmir. Nağıllara özgə prizmadan, ictimai baxışlar nöqteyi-nəzərindən yanaşılır, tədqiq və təhlil olunur.

Bizdə ən tipik əsatiri nağıl "Məlikməmməd"dir. Bu nağılı təhlilə cəlb etdikdən sonra mən öz fikrimə

meydan verə biləcəyəm. Çünki, əsatirlər də, əsatiri obrazlar da, dünyanın ən açılmamış sirləri də bu nağıldadır.

Məlikməmməd xəbər tutur ki, o dünyada suyun başını div kəsib, hər dəfə suyu açıb buraxmağa iki qız qurbanı tələb edir. Deməli, İbrahimxəlil peyğəmbərə, İsmayıl Mina dağına qurban kəsilməyə aparılana və Cəbrayıl onun əvəzinə qoç qurbanı gətirənə qədər insanların qurban kəsilməsi mövcud olmuşdur. Bax, buna görə, İslam aləmi qoyun qurbanı kəsməyi Qurban bayramı kimi qəbul etmişdir.

Məlikməmməd görür ki, əjdaha ağaca dırmaşıb Simurq quşunun balalarını yuvada yemək istəyir. Tez qılıncını çıxarıb əjdahanı öldürür. Bu xeyirxahlığın müqabilində Simurq quşu onu qaranlıq dünyadan işıqlı dünyaya gətirir. Görürsünüzmü? İslamiyyətə qədər Simurq quşunun təsir dairəsi çox geniş olmuşdur. İslamdan sonra Məlikməmmədi qaranlıq dünyadan işıqlı dünyaya çıxaran Simurqun bu alicənab xidmətləri get-gedə heçə enir. Məhəmməd peyğəmbərin moizələrinə əhəmiyyət verməyən, şəkk edən Simurq Qaf dağının o üzünə atılır. Qoşa kirpikləri dizinə qədər uzanır və işıq üzü görməyə qoymur. Nadir hallarda Qaf dağının o üzündə insan səsi eşitdikdə Simurq quşu kirpiklərini boynunun arxasına atır və işıqlı dünyanı görüb "oxay" deyir[1].

"Məlikməmməd"ə bənzər nağılları, əsatiri əfsanələri bilmədən əfsanəvi quşları, maralları

[1] S.P.Pirsultanlı "Azərbaycan xalq əfsanələri" 2008

tanımadan, İsmayıllıdakı Baba dağının, Qubadakı Tufan dağının, Xızı-Xəzər dənizinin, Xıdır-Zində babanın, Şamaxıdakı Diri babanın, Dədəgünəş dağının, Tovuzda Koroğlu və Oğuz qalalarının, Aldədənin, Bəxtiyar dağının, İrəvanda Pəmbək dağlarının, Çalmalının, Maymaq dağının əsatir və əfsanələrini öyrənmədən Azərbaycan mifologiyasını yazmaq olmaz.

Yurdumuzun ayrı-ayrı bölgələrinə gedən yollar boyunca pirlərə, ocaqlara, ziyarətgahlara rast gəlirik. Biz onlarla bağlı əsatirləri öyrənsək totemlərimiz, mərasimlərimiz və ayrı-ayrı inanclarımız haqqında çox şey əxz edə bilərik.

Oğuzdakı Pirpalıd dağı ilə bağlı qədim mərasimləri araşdırmadan bizim üçün sirli, sehrli olan totemləri öyrənmək mümkün deyil. Göyçayda Durna tutan ocağına, Ağdaşda Hacı Bulud baba pirinə getsən, çox möcüzələrlə tanış ola bilərsən. İlan totemi ilə bağlı Samuxun Yellənquş dağındakı İlan pirinə çıxmamış ordakı möcüzələri aydınlaşdırmaq çətindir.

Türkmənistanın Taşauz vilayətindən başlayan, Azərbaycanın Tovuz bölgəsində tamamlanan və bir-birini izləyən toponimlərin mənasını öyrənmədən Oğuz boylarının hərəkət istiqamətlərinin təsəvvürü çətinləşir. Taşauz- “Dış” çöl, “uz”, yəni Oğuz-düzəngah, çöl oğuzlarının yaşadığı yer kimi yozulur.

Tovuzun Öyşüzlü kəndinin yuxarı hissəsində Koroğlu qalası, dağın o biri üzündə Oğuz qalası bu gün də qalır. Salsalla bağlı Torpaq qalalar Tovuzdadır.

Bu qalanın ən nəhəngi isə Bərdədədir.

Adını çəkdiyimiz bu dağların və qalaların çox möcüzəli əsatir və əfsanələri vardır. Bu yerlərdə qazıntı aparmadan da, yerüstü folklor arxeologiyasının köməyilə əsrlərin qaranlığında qalan qədim dünyanın sirlərini açmaq olar.

XXI əsrdən sonra folklor arxeologiyası yeni bir elmi sahə olaraq öz nailiyyətlərini yeni nəslə göstərəcəkdir. Ömrümün sonuna yaxın, səksən üç yaşımda əsatir və əfsanələri toplayıb nəşr etdirdikdən və geniş araşdırmalar apardıqdan sonra nağılları toplamağım və araşdırmağım təsadüfi deyil.

Adəm Atadan, Nuhdan çox əvvəl olduğunu zənn etdiyimiz divlər çox qəribə məxluqlardır. Onlar üç qardaş, yeddi qardaş olur və mağaralarda yaşayırlar. Divlərdə sevgi-məhəbbət hissi yoxdur. Yaşadıqları ərazilərin padşah qızlarını mağaraya gətirir, saçlarından asır və onlara əzab verməkdən zövq alırlar.

Xalq arasında belə bir deyim var: "Divin canı şüşədədir". Mən qədim mağaraları qarış-qarış gəzmişəm. Orda rəngarəng dağ büllurlarına rast gəlmişəm. Dağ büllurları qədim mağaraları işıqlandırırmış. Deməli, divlər qaranlıqda heç yanı görmürmüş. Bu halda onları məhv etmək çox asan olurmuş.

Zağalarda, kahalarda və mağaralarda yaşayan divləri son əsrdə ayılar əvəz etmişdir. Ona görə də mağaraların birinə paltar zağası, birinə aslan kahası, digərinə isə ayı mağarası deyilir. Divlər bəni-insanın

xoş ətrini duyurdular, ondan zövq alırdılar, adəm övladının ətini yeməyə can atırdılar. Adəm övladı yaşadıqları əraziyə gələndə ona müjdə kimi baxırdılar: “Adam-adam iyisi gəlir, yağlı badam iyisi gəlir”.

Təpəgözlər, taygözlülər divlərdən çox fərqlidirlər və onlardan sonrakı mərhələyə aiddirlər. Təpəgözlər nə azman divlərə, nə də Adəm Ata övladlarına bənzəmirlər. Onlar qeyri-normal, eybəcər və bənzərsiz olurlar. Təpəgözlər qeyri-bəşəri məxluqla adəm övladının izdivacından, daha doğrusu, qeyri-qanuni, kəbinsiz görüşündən yaranır. Oğuz övladı Sarı Çobanın mələklərin biri ilə zina etməsindən eybəcər Təpəgöz yaranır. O, insanın ətinə, qanına susayır, hətta, Oğuz elatını məhv etməyə çalışır.

Məleykələr nağıl və dastanlarımızda bəzən şər, bəzən də xeyirxah obraz kimi görünür. Məsələn: “Bəni-insanla evlənən məleykə axırda ərindən ayrılır, övladlarını isə su ilə axıdır”.

Məleykələrin xeyirxahlığını “Şah İsmayıl” dastanında görürük. İki bacı olan məleykədən biri o birinə deyir: “Atası Şah İsmayılın sevgilisi Güllüzarı onun əlindən almaq üçün oğlunun gözlərini çıxartdırır. Bir xeyirxah tula onun gözlərini ağzında saxlayır. Əgər o gözü yerinə qoyan və üstünə məleykə lələyi çəkən olsa onun gözləri sağalar”. Şah İsmayılın gözləri yerinə qoyulur, məleykə lələyi çəkildikdən sonra onun gözləri görür. Lakin, Şah İsmayılın gözü çəp qalır. Əlbəttə, ata xəyanəti ilə çıxarılan göz düz olmaz, çəp qalar.

Biz Borçalıdakı Babəkər dağlarını, Quşçu qalasını, Pəmbəkdəki Şirinqalanı, Maymaq dağının güney üzündəki Dağ Kəsəmən elatını (Sarılar qəbristanlığında Osman Sarıvəllinin əcdadlarının qəbir kitabələrini) vaxtında filmə çəkə bilmədik. Axı, bunların böyük hissəsi düşmən əsarətinə keçdi.

Heç olmasa bundan sonra folklor arxeologiyasına böyük önəm verərik. Babaların bizə miras qoyub getdiyi abidələri öyrənməli, yazıya almalı və bədii filmlər çəkməliyik.

Folklor arxeologiyasının ən dəyərli bir nümunəsini diqqət mərkəzinə çəkməyi özümüzə borc bilirik. Məlumdur ki, Adəm Ata övladlarına nisbətən Nuhun törəmələri ağıl-kamal etibarı ilə xeyli irəli getmiş, zəkalarına arxalanaraq gəmi düzəltmiş və bu yolla bəşər övladının yer üzündə qalmasına imkan yaratmışlar.

XIX əsrdə Kəlbəcərli şair Uğurlu albanlardan miras qalmış Vəngin qalasını seyr edir və qalanın daxilindəki rəsmlərə, qanadlı insanlara baxıb heyrətlənir. İnsanın yaratdığı möcüzələr qarşısında dəhşətə gəlir. O, öz heyranlığını, aşıb-daşan duyğularını bədii bir ahənglə dilə gətirir. Tarixi abidə ilə yanaşı dura biləcək beş bəndlik qoşması ilə ikinci bir abidə yaradır:

Sizdən xəbər alım, şəkil olanlar,
Deyin görüm, vəngi hörən kim idi?

Qanadlı insanlar, rəngi solanlar,
Məskən sahib, burda duran kim idi?

Bilmək olmur bu haranın daşıdı,
Neçə min illərdir onun yaşıdı.
Deyin görüm, hansı ustanın işidi,
Onları sağ vaxtı görən kim idi?

Heç kəs yaza bilməz belə yazını,
Neçə yüz pud xörəyinin duzunu.
Sizdən xəbər alıram, deyin düzünü,
Yeygisin, işgisin verən kim idi?

Yaqut-yəmən xəlq edibdi sərini,
Göz görəndə könül sevdi pirini.
Həydən-qumdan sərf edibdi tirini,
Xalıların yığıb sərən kim idi?

Qoy təmkində deyim kimin ağlıdı,
Sidq ürəkdən hansı dinə bağlıdı.
Tikdirəni kimdi, kimin oğludu,
Uğurluyam, könül vuran kim idi?

Bu qoşma folklor arxeologiyasına misal ola biləcək ən dəyərli nümunə deyilmi?

Nağıllarda kanteminasiya, yəni çarpazlaşma özü də mühüm hadisədir. Bizə görə, ümumi böyük kainat var. Lakin, hər yurdun, məkanın da özünəməxsus astral xüsusiyyətləri mövcuddur.

Azərbaycan folklorunun original nümunələrindən olan "Koroğlu" eposundakı Məğrib-Məşriq ulduzları kimi. Onlar yeddi ildən bir toqquşur. Bu toqquşmadan yaranan qığılcımlar Qoşabulağın gözünə tökülür. Eyni zamanda, dastanda Çənlibel, dəniz atları haqqında danışılır.

Tovuz bölgəsində Aldədə var, onun Bəxtiyar dağı var, Şamaxıda Dədəgünəş dağı var. Bunların hər biri də öz tipik mifoloji xüsusiyyətləri ilə fərqlənir.

Deməli, hər məkanın öz florası, faunası, eyni zamanda, özünəməxsus folklor örtüyü vardır. Azərbaycanda yaranan əsatirlər, əfsanələr, nağıllar, epos və dastanlar yurdumuzun dağları, bulaqları və çayları, insanların psixologiyası, xarakteri ilə bağlıdır.

Azərbaycan nağılları da milli xüsusiyyətləri ilə bəşəri nağıllardan seçilir. Azərbaycanlılar Misirə, Çinə, Hindistana və başqa ölkələrə karvan bağlayıb gedərkən karvanda olan müdrik qocalar nağıla başlayırdılar. İnsanların marağını nəzərə alaraq nağılı nağıla calayırdılar. "Min bir gecə"dən, "Kəlilə və Dimnə"dən macəralarla dolu bədii parçalar seçir, danışdığı nağıllara qatır və onları çulğalaşdırırdılar. Beləliklə, nağılda çarpazlaşma (kanteminasiya) hadisəsi baş verirdi.

Nağıl epik janrın ən kütləvi formasıdır. Sərhəddən sərhəddə, ölkədən ölkəyə asanlıqla keçir və yayılır. Bu cəhətdən əfsanə lokallığa malikdir. O, öz milli kökündən ayrılmır. Yarandığı ölkənin dağına, daşına elə bağlanır ki, orada öz varlığını yaşadır.

Məsələn, “Dədəgünəş”, “Aldədə”, “Şirinqala” əfsanələri hansı torpağa keçir-keçsin, Azərbaycan xalqına məxsusdur.

Azərbaycan nağıllarını tam olaraq yığıb yığışdırmaq, qələmə almaq qeyri-mümkündür. Mənim vaxtı ilə el-obadan topladığım nağılları “Azərbaycan ağız ədəbiyyatında nağıllar” adlandırmağımın başlıca səbəbi odur ki, dinlədiyim nağılları söyləyən qoca babaların, nənələrin həyəcanları, keçirdiyi psixoloji anları olduğu kimi oxucuya çatdıra bilim.

Nağıl danışan müdriklərin hər birinin həmin nağıl mətnlərinə çox fərqli münasibətləri vardır. Onlar nağıl haqqında babalarının, nənələrinin dediklərini də əlavə edirdilər ki, bu da böyük əhəmiyyət kəsb edir. Fikrimizi əyaniləşdirmək üçün nağılların bəzilərinə münasibət bildirmək istəyirəm.

“Günahsız əl, qan rəngli gül”, “Armudsanayan bəyin nağılı”, “Əmrahın nağılı” və buna bənzər sirli, sehrli nağıllar kitaba daxil edilmişdir. “Əmrahın nağılı”nda vurğulanan, dəryanın dibində bitən ləl gülü təbiətin sehrindən danışır. Bu nağılın köməyilə biz vaxtilə sehrin, cadunun da nə olduğunu öyrənirik.

Bizə belə gəlir ki, bu nağıllar içərisində “Dartan və Yırtan” nağılı daha qədim çalarlara malikdir. Burada izaha ehtiyacı olan müəmmalar, genetik əlaqələrlə bağlı məqamlar çoxdur. Fikrimizi sübuta yetirmək üçün nağılın təhlilinə, ordakı obrazlara dərindən diqqət yetirməliyik.

“Dartan və Yırtan” nağılında dəmirdiş,

yumaqbaş qızın əməlləri insanı dəhşətə gətirir. Cəhrə adlı bu qız çox yemək yeyir və vaxtından əvvəl boy atır. Gəlin nağıla diqqət yetirək:

...Bir gün atası görür ki, o ağ dananı, qara dananı, axırda inəyi də yeyir. Bunu arvadı Çəmən xalaya, oğlu İsmətə danışsa da onlar inanmır. Cəhrə qız bundan sonra atasını da yeyir. Özü də elə yeyir ki, bir damcı qanı da yerə düşmür.

"Kitabi-Dədə Qorqud"un "Təpəgöz" boyunda olduğu kimi Cəhrə də qonşuların mal-qarasını da yeməyə başlayır. Qızın bu hərəkətindən qorxan el-oba camaatı yurd-yuvalarını tərk edərək Qarlı dağa köçür. İsmət də özüylə iki küçük götürüb onlara qoşulur. Ancaq, anası qızını tək qoyub getmir. Bir müddətdən sonra o, kəndə qayıdıb anasından hal-əhval tutmaq istəyir. Nağılın əsl mahiyyəti də bundan sonra açılır. Ona görə də nağılın bu hissəsini olduğu kimi veririk:

... "İsmət atını minib kəndə doğru yollandı. Gəlib evlərinə çatdı və yavaşca evin bacasından boylanıb gördü ki, bacısı anasını da yeyib. Anasının döşünü götürüb belə deyir:

-Hər şeyi yeyib qurtardım. Gözümün işığı anamı da yedim. İndi bu gün bunu yesəm, sabah nə yeyəcəm?

İsmət çox qorxdu, bacadan çəkilib qaçmaq istəyəndə oradan evə torpaq töküldü. Bacısı tez çölə çıxıb qardaşını gördü və dedi:

- Qardaş, qurbanın olum, xoş gəldin. Bacın sənə qurban, yaman yadıma düşürdün. Ayaqlarının altında

ölüm, evə gəl. Sənə bacın qulluq etsin. Qurbanın olum, gəl evə gedək.

İsmət qorxusundan bilmədi nə etsin. Getməsə onu da yeyəcəkdi. Onlar evə gəldilər. Dəmirdişli, yumaqbaşlı qız fikirləşdi ki, əvvəlcə qardaşının atını yesin. Dedi:

-Qurbanın olum, qardaş, icazə ver atını sulayım, uzaq yol gəlmisən.

Qardaşı dedi:

-Apar sula, bacıcan.

Qız atı suvarmağa çaya apardı və qayıdanda qardaşına dedi:

-Qardaş, sən bizə gələndə atın üç ayaqlı idi?

Qardaşı işi başa düşdü və dedi ki, bəli, atım üç ayaqlı idi. Qorxurdu, bəs nə etsin?

Bacısı yenə də atı suvarmağa apardı və oradan səsləndi ki, qardaş sənin atın iki ayaqlı idi?

Qardaşı dedi ki, atım iki ayaqlı idi. Bir də aparanda dedi ki, qardaş sən yəhəri minib gəlmisən? Atın olmayıb?

Qardaşı dedi:

-Mən yəhəri minib gəlmişəm".

İsmət qorxusundan bacısını su gətirməyə göndərib qaçır. Cəhrə qız da onu qovur. Nəhayət, İsmətin köməyinə Dartan və Yırtan adlı iki iti çatır. İsmət onlara əmr edir ki, qızı elə parçalasınlar, bir damcı qanı da yerə düşməsin. Lakin, itlər qızı parçaladıqda bir damcı qanı yerə düşür: "İsmət itlərini də götürüb ağlaya-ağlaya gedəndə birdən qan damlası

dilə gəlib dedi:

-Qardaş, qurban olum sənə, mənim qanımı götür özünlə, sənə çox xeyirim dəyər. Mənim günahlarımı bağışla. Nə edim ki, mən belə yaranmışam.

İsmətin ona yazığı gəlir və qan damlasını yarpağa büküb cibinə qoyur. Birdən bu zaman bir neçə adam onlara çatır və buradan qırx yüklü dəvənin keçib-keçmədiyini soruşurlar. İsmət deyir ki, mən görməmişəm. Qan damlası deyir ki, mən yerini bilirəm. Qarlı dağın günbatan tərəfindədirlər. Yolun üst tərəfinin dəvələr tərəfindən otlanması sizə izlərini göstərəcək. Dəvələri bu qayda ilə tapdılar. Dəvələrin sahibi İsmətə yeddi yüklü dəvə bağışlayır və dua edib qalan dəvələri götürüb gedir.

İsmət dəvələrin yükünü açanda görür ki, hamısı qızıl-gümüşdür. Gəlib camaatı götürüb kəndə qayıdır. Qızıllara hamıya mal-heyvan alır. Kəndlərinə yol çəkdirir, körpü saldırır, su çəkdirir, qalanlarını isə hamı arasında bölür və xoşbəxt həyat sürürlər".

"Dartan və Yırtan" nağılında İsmətin bacısı Cəhrənin bir damcı qanı yerindən-yurdundan oynamış kənd adamlarının geri qayıtmasına, qardaşının bütün acıları unutmasına kömək edir. Bu bir damcı qan genetik əlaqənin (qohumluq əlaqəsinin) itmədiyini, irsən davam etdiyini göstərir.

Biz nağılları axtardıqca, onun qədim izlərini öyrəndikcə çox məsələlər elm üçün aydınlaşacaq. Bir sözlə, folklorun, nağılların arxeoloji axtarışları yeni pəncərələr açacaqdır.

XXI əsr folklor üçün arxeoloji axtarışlar əsri olacaqdır.

***Sədnik Paşa Pirsultanlı***
***Professor, filologiya elmləri doktoru,***
***AYB-nin üzvü***

# *Qızıl piyalə*

Bir kənddə İsmeyil adlı bir kişi vardı. Onun övladı olmurdu. Bir gecə yuxuda gördü ki, onun övladı olur. Tez hövlanak yuxudan durur. Günortaya qədər elə hey yuxunu fikirləşir. Günorta qapısına bir dərviş gəlib deyir:

-Kişi, sənin qızın olacaq. Adını indidən verirəm. Qaraqız olsun.

Bunu deyib dərviş yoxa çıxır. Günlər dolanır, doğrudan da, kişinin qızı olur. Dərvişin dediyi kimi adını Qaraqız qoyur. Qaraqız böyüyüb on beş yaşa çatır. Onun, həqiqətən də, uzun, qara saçları var idi. Bir gün o, qızlara qoşulub çölə, quşəppəyi yığmağa gedir. Qəfildən bir dərviş gəlib qızın saçlarına yeddi rəngli ləçək taxıb qeyb olur. Kənddə hamı bu ləçəkdən danışır. Deyirlər ki, İsmeyilin madarının ləçəyi qəyfdən gəlib, onnan heç yerdə yoxdu. Elə Qaraqızın özü də su sonası qızıydı. Kənddə ondan gözəli az tapılardı. İsmeyil kişi fikirləşirdi ki, niyə onun da qızının adını ağzına alıb qapısını döyən yoxdu. Bu fikirlə kişi yenə yuxu gördü. Bu dəfəki yuxudan elə qorxdu ki, günnərnən nə su içdi, nə də əppək yedi. O yuxuda görmüşdü ki, Qaraqızı əcinnələr aparır. Bu qorxu İsmeyilin canına elə doldu ki, qızını çölə-bayıra buraxmadı. Qıfılda saxladı.

Bir müddət belə keçdi. Bir gün yenə Qaraqızın tay-tuşlarından birinə nişan gəlir. Qız da bəzənib-düzənir, başına yeddi rəngli ləçəyini taxıb nişana gedir. Az keçmir ki, İsmeyil kişiyə xəbər çatdırırlar:

-Ay evi yıxılmış, qız nişan evinə gəlib çıxmayıb. Haradadı, neynir, xəbərin varmı?

Kişi başılovlu özünü evə çatdırır ki, qız evdə də yoxdu. Bir andaca kəndə hay düşür. Kimin gümanı hara gəldi axtarır, Qaraqız yağlı bir əppəyə dönüb yoxa çıxır. İsmeyil kişi annıyır ki, nə sirr varsa təhcə yenə dərviş bilir. Odur ki, günnəri saya-saya dərvişi gözdüyür. Dərviş gəlib deyir:

-Qızını mənim oğluma deyiklə, getsin tapsın. İndiyənəcən qızını mən sehrləmişdim ki, heç kim onun gözəlliyini görməsin. Onu mənim oğluma verəsən.

Əlacı kəsilən İsmeyil razılaşır. Dərvişin oğluna qızını deyikləyir. Oğlan yollanır qızı axtarmağa. Onun da adı Avdı olur. Avdı dağ aşır, dərələr keçir. Gəlib axırda bir şəhərə çıxır. Burda dəllək yanında bir qarın çörəyə şagird durur. Xeyli vaxt burdaca işləyir. Bir gün dəlləyin yanına bir çoban gəlir. O deyir:

-Dağdakı mağarada bir div var. O, başında alabəzək ləçəyi olan bir qız saxlayır. Hər gün o qız günün işığına çıxanda, başındakı ləçəyin rəngi yamac boyu düşür. Oralar yeddi rəngə çalır.

Avdı bunu eşidən kimi barmağını dişləyir ki, bu elə Qaraqızdı ki, Qaraqızdı. Ustadından izn alıb dağa gedir. Gəlib düz divin mağarasına çıxır. Görür, gümanında yanılmayıb. Qaraqız burdadı. Div də başını onun dizinə qoyub mürgülüyür. Onun hənirini alan kimi div tez yerindən sıçrayır. Cumur ki, tutub yesin, Qaraqız deyir:

-Səni and verirəm ananın südünə, ona dəymə.

Div geri qayıdıb oturur. Oğlanı yaxına çağırıb soruşur ki, hardan gəlib bura çıxmısan? Avdı əhvalatı başdan danışır. Deyir, bəs belə-belə, gəlmişəm Qaraqızın dalınca. Div deyir, igidsən, gəl məni öldür, yarını apar. Avdı razılaşır. Div deyir:

-Atışaq, yoxsa tutuşaq?

-Atışmaq başında çattasın, tutuşaq-deyə Avdı cavab verir.

Onlar başlayırlar güləşməyə. Yeddi gün, yeddi gecə güləşirlər. Gah o bunu üstələyir, gah da bu onu. Axırda baxıb görürlər ki, heç biri o birisinə güc çatdıra bilmir, yorulub əldən düşüblər, hərəsi bir tərəfə çəkilir. Div bir az nəfəsini dərib deyir:

-İgid adamsan. Götür Qaraqızı get, ancaq başındakı ləçəyi heç kimə görsətmə. Başın bəlalar çəkər.

Bunu deyib div onlara bir ovuc da ləl-cəvahirat verib yola salır. Avdıynan Qaraqız əl-ələ verib şəhərə çatırlar. Burda özlərinə ev tuturlar. Avdı yenə dəlləyin yanında şagird olur. Bir gün Qaraqız deyir ki, apar bu daşın birini sat, pulunnan dolanaq. Avdı da deyir buranın bazarında arvaddar çoxdu, apar özün sat. Qaraqız divin sözündən sonra həmişə başına şal örtərdi ki, ləçəyi görünməsin. Tezdən durub şalını başına örtüb bazara çıxır. Daşı kimə göstərirsə, heç kimin onu almağa pulu çatmır. Axırda bir dəllal onu tacirbaşının yanına aparır. Deyirdilər ki, bu tacirbaşı dünyanın yarısından çoxunu gəzib, bu daşa da o

qiymət qoyar, alsa elə özü də alar. Tacirbaşı daşa baxan kimi heyrətindən donub qalır. Deyir:

-Ey xanım, bu daş yalnız divin xəzinəsindədi. O da bunu, bir də sehrli piyaləni Zümrüd quşunun keşik çəkdiyi pərilərin xəzinəsindən oğurlayıb. De görüm, sən bunu hardan almısan?

Qaraqız başına gələnləri danışdı. Dilindən onu da qaçırtdı ki, başındakı yeddi rəng ləçəyi gizlədir. Tacirbaşı da çoxbilmiş idi. Yüz cür söz işlədib Qaraqızı qılığa çəkdi ki, ləçəyi görsün. Arvad ağlı, quş ağlı. Qaraqız başını açır. Açan kimi də tacirbaşı deyir:

-Elə bu ləçəyin qiymətinə yeddi padşahın xəzinəsini almaq olar. Bu bizim padşahın qızının ləçəyidir. Çoxdan itib. Tapana qiymətli ənam verirlər. Axşam ərin evə gəlsin, sizə qonağam.

Qaraqıza bir az puldan-vardan verib yola salır. Qız da evə gəlir. Axşama qonaq var deyin süfrə açır, qazan asır. Pilovdan, pitidən bişirib düzür. Axşam Avdı evə gələndə əhvalatı danışır. Avdı başa düşür ki, ləçək yenə nə isə bir bəla gətirir. Amma, artıq iş-işdən keçmişdi. Tacirbaşını gözləməkdən başqa ələşdəri nədi? Az keçmir görürlər həmən bazardakı dəllal ley kimi gəlir. Gəlib deyir:

-Tacirbaşı padşahın yanındadır. Sizi də sarayda gözdüyüllər.

Qaraqızla Avdı dəllalın yanına düşüb saraya gəlir. Görürlər ki, nə? Bütün saray əhli bura yığışıb. Şahın qızı da öz qırx kəniziynən gözdüyür ki, ləçəyini

taxsın. Ədəblə salam verib ayaqda əyləşirlər. Padşah deyir:

-Mənim qızımın ləçəyi sizdədir. Tacirbaşı dedi ki, siz onun mənim qızımın olduğunu bilmirsiniz. Özünüz də qəribsiniz. Odur ki, siz ləçəyi verin, dediyim ənam sizə çatacaq. Həm də Şərq sarayımı sizə verirəm ki, yaşayın.

Ləçək Qaraqızın başından çıxan kimi onun sehri də yox oldu. Artıq hamı qızın gözəlliyini gördü. Tacirbaşının isə ürəyi yerindən qopdu. Öz-özünə dedi, yox ey, mən bu boyda tacirbaşı olum, gözəlin biri dəllək şəyirdinə qulluq göstərsin. Bu belə olmaz. Tacirbaşı burda paxıllıqdan yanmaqda olsun, sizə cavannardan danışım. İkisi də əl-ələ verib Şərq sarayında yaşamağa başladılar. Can deyib can eşit-dilər. Biri “haycan” deyəndə, o biri ona “canım fəda” deyib cavab verirdi. Beləcə, günlər keçdi. Amma, paxıl durmaz axı. Bir gün tacirbaşı xəbər yolladı ki, bu axşam yenə sizə qonağam. Ürəyitəmiz cavanlar nə bilsin ki, paxıl nə fikirləşib? Tacirbaşı süfrə başında yenə Qaraqıza göz qoyurdu. Burda olan mehribançılıq onun ürəyini lap dərindən oyurdu. Söhbəti hərləyib, fırlayıb gətirib qızıl piyalənin üstünə çıxardı. Dedi ki, Avdı gedib divdən qızıl piyaləni alsa, şah sizə öz diyarınıza getməyə izn verər, hələ üstəlik ənam da. Qaraqızın bu söz ağlında qaldı. Qonağı yola salandan sonra başladı ki, gərək gedib divdən qızıl piyaləni alasan. Sonra da gedək dədəmizin, nənəmizin yanına. Avdı nə illah elədi, Qaraqızın beynindən bu fikri

çıxarammadı. Axır-axırda razılaşdı.

Səhər ertədən divin mağarasında hazır oldu. Div bunu görüb soruşdu:

-İgid, indi nəyə gəlmisən?

Avdı başına gələnləri danışıb dedi:

-Allahdan gizlin deyil, səndən nə gizlin. Mən sənin yaxşılığına əvəz tapammıram. Amma, naəlacam. Qaraqızın məhəbbətindən keçəmmərəm.

Div dedi:

-O tacirbaşı səni ölümə göndərib. Qızıl piyalə mənim böyük qardaşımdaydı. O da yenidən onu pərilərin xəzinəsinə qaytarıb. İndi əlac ona qalıb ki, Zümrüd quşu onu öz xoşuynan sənə versin. O da ki, Allaha umud. Ancaq salamat qayıtsan, bu diyardan tez köç. Yoxsa tacirbaşı əl çəkən deyil.

Bunu deyib div Avdını kürəyinə aldı. Göyə qalxdı. Bir göz qırpımında onu Zümrüd quşunun hüzurunda qoyub özü yox oldu. Zümrüd quşu yatmışdı, səsə diksindi. Baxdı ki, bir insan düz qənşərində dayanıb. Soruşdu:

-Əcəlini axtarırsan? Burda nə işin var?

Avdı yenə əhvalatını nəql elədi. Zümrüd quşu qəhqəhə çəkdi. Bu qəhqəhədən yer-göy titrədi. Dedi:

-Oğlan, dəli olmusan? Mənim üç sualım var, ona cavab verən olmayıb hələ. Cavab versən, qızıl piyalə sənindi, verməsən səni naharda yeyəcəm, sümüyünü də sümürəcəm.

Avdı razılaşdı. Əlacı nəydi ki?

Zümrüd quşu dedi:

-Ən şirin şey nədi?

-Dünyada ən şirin şey baladı, övladdı. Onu canından da çox istəyərsən.

-Ən baha nədi ki, qiyməti yoxdu, satılmaz, alınmaz?

-Namusdan baha heç nə yoxdu. Nə alınmaz, nə də satılmaz.

-Ən iti nədi?

-Ağıldı. Ondan kəsərli heç nə tapılmaz.

Zümrüd quşu dedi:

-Əhsən, sən qızıl piyaləyə layiqsən.

O, qızıl piyaləni də, Avdını da götürüb düz evinin qapısında yerə qoydu. Qaraqız Avdının əlində piyaləni görəndə sevindi. Həm də Avdısız keçirtdiyi vaxt onu soldurmuşdu. Axı, o da Avdını çox istəyirdi.

Gecəni səhər edib cavannar qızıl piyaləni götürüb padşahın sarayına gedirlər. Padşah onlara xəzinəsindən pay ayırıb, qəflə-qatırı yükləyib öz ölkələrinə yola salır. Onlar beləcə, öz kəndlərinə qayıdır. İsmeyil kişi bu vaxt tamam qocalmış, beli bükülmüş, dişi tökülmüşdü. O, qızını görüb sevinir, elə bil neçə il cavanlaşır. O gündən sonra deyirlər ki, yeddi rəngli ləçək həmişə yer-yurd yağışla çiməndən sonra görünür. Qızıl piyalənin əksi isə hər səhər, bir də axşam sulara düşür. Qaraqızla Avdının üzübəri neçə nəsilləri də bunu nağıl kimi hamıya danışır.

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən olan Zəhra Baratəli qızı***

# *Keçəl İsmayıl və Şeytan*

Biri var idi, biri yox idi. Biclikdə, fərasətdə ad-san qazanan İsmayıl adında bir keçəl var idi. O İsmayıl idi ki, şeytana papış tikər, öz bicliyi ilə hamını aldatmağa çalışardı. Tanıyanların hamısı ondan kənar gəzər, ehtiyatlı davranardılar. Lakin, buna baxmayaraq, Keçəl İsmayıl heç bir zaman fürsəti fövtə verməz, qarşısındakı adamı asanlıqla aldadıb bir hoqqa çıxardardı.

Bir Şeytan da var idi ki, daim İsmayılı izləyər, onun bicliklərini öyrənməyə, onu gözdən salmağa çalışardı. İsmayıl özü də bunu dərk edər, Şeytanın ondan uzaq durmasını arzulayardı. Nə olsun ki, Şeytan şeytanlığında qalar, İsmayılı addımbaaddım izləyərdi.

Günlərin bir günü İsmayıl qonşu kənddən evinə qayıdırdı. Şeytan onun harada olduğunu və nə vaxt qayıdacağını qabaqcadan bilirdi. İsmayıl yolun yarısını gəlmişdi ki, göyün üzü tutuldu, ildırım çaxdı, güclü yağış yağmağa başladı. Keçəl tez paltarlarını soyunub bir daşın altına qoydu. Özü də daşın üstündə oturdu. Bir müddət keçdikdən sonra yağış kəsdi. Keçəl İsmayıl quru qalmış paltarlarını geyinib yola düzəldi. Bir az getmişdi ki, Şeytan suyun içində onun qabağına çıxdı. İsmayılla hal-əhval tutduqdan sonra onun paltarlarının quru olduğunu görüb təəccüblə soruşdu:

- Ay İsmayıl, yağış yağanda sən harada idin?

İsmayıl da təəccüblə Şeytana baxıb dedi:

- Harada olacağam, yağışın altında idim.
- Bəs necə olub ki, paltarların quru qalıbdı?

Keçəl İsmayıl gülə-gülə dedi:

- Ay Şeytan, sən belə şeyləri bilməzsən. Mən bir çox dualar bilirəm. Onun da birini oxuyan kimi yağış mənim üstümə yağmır.

Şeytan çox yalvardı ki, nə olar, o dualardan bir-ikisini də mənə öyrət.

İsmayıl bir az fikirləşərək dedi:

-Ay Şeytan, nə olar, öyrədərəm. Ancaq bir şərtlə ki, yorulmuşam, uzaq yoldan gəlirəm. Məni al dalına, apar kəndə, o duanı sənə də öyrədim.

Tamah güc gəldi. Şeytan razılaşdı və Keçəl İsmayılı dalına alıb kəndə gətirdi. Kəndin girəcəyində bir dəstə adam toplaşıb söhbət edirdilər. Bir də baxdılar ki, Şeytan İsmayılı dalına alıb gəlir. Hamı şaqqanaq çəkib güldü, Şeytanı lağa qoymağa başladılar. Şeytan əsəbiləşərək İsmayılı kürəyindən düşürüb qaçmağa başladı. İsmayıl nə qədər çağırdısa da, Şeytan geriyə qayıtmadı.

Bu məsələ Şeytanı çox narahat edirdi. O, İsmayıldan qisas almağın yollarını düşünür və onu izləməkdə davam edirdi. Daha doğrusu, İsmayıla gücü çatmadığını görüb insanların qəlbinə dolur, onları yoldan çıxardıb pis əməllərə vadar edirdi. Keçəl İsmayıl bunu yaxşı bilir, Şeytanın bəd əməllərinin cavabını verməyin yollarını axtarırdı.

Günlərin bir günü İsmayılı qonşu kəndə toya çağırmışdılar. Tərslikdən Şeytan da bu toya gəlmişdi. İsmayıl bilirdi ki, Şeytan toyu pozmaq üçün nə isə edəcəkdir. Elə də oldu. Toyun şirin yerində ara qarışdı, məzhəb itdi. Böyük bir dava düşdü.

Keçəl İsmayıl Şeytana dedi ki, gedək bizə, bildiyim duaların hamısını sənə öyrədəcəyəm. Şeytan aldadıldığını düşünməyərək İsmayıla qoşuldu. Onun evinə getməyə başladılar. Şeytan getdikdən sonra dava səngidi, toy öz axarı ilə davam etdi.

Nə isə... Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, gəlib Keçəl İsmayılın evinə çatdılar.

Şeytan İsmayıla dedi ki, mənə söz vermisən. İndi o dualardan mənə də öyrət, çıxıb gedim.

İsmayıl dedi:

- Ay Şeytan, duaları sənə öyrətmək üçün gərək əl-ayağını və gözünü bağlayam. Sonra duaları bir-bir qulağına pıçıldayam. Əgər dediyimi eləməsən, onda o dualar müstəcab olmaz.

Şeytan əlacsiz qalıb İsmayılla razılaşır. İsmayıl Şeytanın əl-qolunu, ayağını, gözünü bağladı və böyük bir tonqal çatdı. Şeytanı həmin tonqala atdı. Şeytan qışqıra-qışqıra tonqalda yanaraq külə döndü. Beləliklə də, insanların canı Şeytanın bəd əməllərindən qurtardı.

Hə əzizlərim, beləliklə də, nağılın sonu gəldi. Göydən üç alma düşdü. Biri mənim, biri İsmayılın, biri isə nağılı danışanın olsun.

# *Cütçü və paxıl qonşu*

Biri var idi, biri yox idi, öz halal əməyi ilə dolanan, ailəsini torpaqdan əldə etdiyi gəlirlə saxlayan bir cütçü baba var idi. Yaz fəsli gələndə cütçü baba cütünü sazlayar, əkin sahəsini daşdan təmizləyər və torpağını şumlayıb buğda əkərdi. Hər il beləcə əkər-biçər, topladığı taxıldan satar və ailəsinin qış azuqəsini yığardı.

Cütçü babanın Əhməd adlı göygöz, kosasaqqal, seyrək diş qonşusu var idi. Bu paxıl qonşu cütçünün paxıllığını çəkir, həmişə də ona ziyan vurmağa çalışardı. O, heç bir vəchlə mayası halallıqla yoğrulan qonşusunun yaxşı dolanmağını istəmirdi. Günlərin bir günündə fikirləşdi ki,  mütləq çalışıb cütçü babanın öküzlərindən birini oğurlasın. Paxıl qonşunun oğurluqda ad çıxardan bir dostu var idi. Günlərin bir günündə, sərçə bəyin dündülündə dostu ilə sözləşib çütçünün öküzünün birini oğurlamağı qərarlaşdırdılar.

Çütçü baba yaz günlərinin birində öküzlərini də götürüb torpağını şumlamağa getdi. Günorta vaxtı idi. Bir də baxdı ki, qonşusu "mən bu işə mat qalmışam, mən bu işə mat qalmışam"- deyərək oynayır. Cütçü baba öküzləri saxlayaraq ona tərəf getdi. Paxıl qonşu isə "mən bu işə mat qalmışam, mən bu işə mat qalmışam"- deyərək oynamağında davam edir, cütçü babanın başını qatırdı. Paxıl qonşunun oğru dostu bu zaman öküzlərdən birini boyunduruqdan açaraq təpənin o biri üzünə apardı.

Cütçü baba dedi:

- Ay qonşu, bura nəyə gəlmisən və nəyə mat qalmısan?

- Ay qonşu, ona mat qalmışam ki, bir öküzlə torpağı necə şumlayırsan?

Cütçü baba qayıdıb baxdı ki, həqiqətən də, öküzün biri yoxdu. Əlacsız qalıb yerə oturdu və maddım-maddım qonşunun üzünə baxdı. İnsanların bəd əməlindən xəbəri olmayan cütçü baba tək qalan öküzü də boyunduraqdan açaraq evinə getdi. Cütçünün arvad-uşağı tökülüb dedilər ki, ay kişi, öküzün biri hanı və niyə tez qayıdıb gəlmisən?

Cütçü baba başına gələn əhvalatı gizli saxlayaraq dedi:

-Boz öküz sapını qırıb qaçdı, nə qədər qovdumsa da onu tuta bilmədim.

Nə isə, cütçü baba çox fikirləşdikdən sonra evdə qara gün üçün yığdığı pulları arvadından alaraq öküz almaq üçün bazara çıxdı. Bir xeyli bazarda dolandı, gəzdi, ancaq ürəyi istəyən öküzü tapmadı. Tapdığına da pulu çatmadı. Bax beləcə, fikirli-fikirli bazarı dolaşırdı ki, birdən gözü boz öküzünə sataşdı. Baxdı ki, “ho” deyə-deyə bir kişi öküzü qabağına qatıb aparır. Tez özünü ora yetirdi və öküzün qabağını kəsib dedi:

- Ay kişi, bu öküz mənimdir, onu kimdən almısan və hara aparırsan?

Öküz alan kişi çaş-baş qaldı və dedi:

-Ay kişi, bu öküzü bir neçə saat bundan qabaq bir

dəllaldan almışam. Əfsuslar olsun ki, onun kim olduğunu bilmirəm.

Cütçü baba ilə öküz alanın arasında bərk mübahisə düşdü, hamı onların başına toplaşdı. Vəziyyətin pisləşdiyini görənlər dedilər:

-Yaxşı olar ki, gedin şəhər qazısının yanına. O sizin məsələni aydınlaşdırar.

Çox çək-çevirdən sonra hər ikisi öküzü də götürüb qazının yanına getdilər. Şəhər qazısı çox ağıllı və tədbirli adam idi. Şikayətçilərin hər ikisini dinlədi. Cütçü babaya dedi ki, öküzü nə vaxt və harada itirmisən? Cütçü baba başına gələnləri əvvəldən axıra kimi danışdı. Qazı başa düşdü ki, cütçü babaya kələk quran qonşusudur. Qazı dedi:

- Sabah qonşunu da götürüb hər üçünüz yanıma gəlin. Sizin məsələni mən asanlıqla ayırd edəcəyəm.

Cütçü baba qayıdıb evinə gəldi və qonşusuna dedi:

- Səhər tezdən şəhər qazısının yanında olmalıyıq. Əgər mənimlə getməsən səni qazının adamları gəlib döyə-döyə aparacaqlar.

Paxıl qonşu əlacsız qalıb cütçü baba ilə qazının yanına getdi. Qazı hər üçünü dinlədi və dedi ki, öküz cütçü babanındır. Paxıl qonşunu məcbur etdi ki, hər şeyi olduğu kimi desin və yoldaşının kim olduğunu bildirsin. Paxıl qonşu hər şeyi olduğu kimi qazıya danışdı. Qazı adamlarını göndərib paxıl qonşunun oğru dostunu da hüzuruna gətirtdi. Əmr etdi ki, paxıl qonşuya və oğrunun hərəsinə yüz şallaq vurulsun. Əmr icra olundu. Cütçü baba öz öküzünü, öküz alan

isə öz pulunu alaraq evlərinə getdilər.

Beləliklə də, halal harama qalib gəldi və nağılımız sona yetdi. Göydən üç alma düşdü. Biri mənim, biri cütçü babanın, biri də nağıl danışanın.

# *Günahsız əl, qan rəngli gül*

Vəli adlı bir bəy varmış. Bu bəy ölkəni çox ədalətlə idarə edirmiş. O, çoxbilmiş, dərin düşüncəli, uzaqgörən, rəhmdil bir şəxs imiş. Onun Gülçöhrə adlı bir qızı, Allahyar adlı bir oğlu var imiş.

Bir gün Vəli bəy ömrünün sona çatdığını duyur və övladlarını çağırıb vəsiyyət edir. Oğluna tapşırır:

-Oğul, heç kimin sözünə, gözünlə görüb, şahidi olmadığına inanma, bacının sözlərinə qulaq as.

Bu sözləri deyəndən sonra ata gözlərini əbədi yumur. Allahyarın gözü qonşu kənddə yaşayan Səlbi adlı bir qızda imiş. Allahyar bütün dost-tanışı ilə məsləhətləşdikdən sonra bacısına da öz fikrini bildirir. Bacısı bu sözlərin cavabında deyir:

- Qardaşım, özün bildiyin məsləhətdir, amma məndən olsa, öz məmləkətimizdən kənara çıxma.

Allahyar atasının vəsiyyətini unudub, hər məsləhətindən xeyir tapdığı bacısının sözlərini qulaq ardına vurur, öz dediyindən dönməyərək Səlbi ilə evlənir.

Səlbi ər evinə qədəm basdığı ilk gündən Gülçöhrəyə ögey münasibət bəsləyir. Ərinin bir iş görəndə, bir səfərə hazırlaşan zaman bacısı ilə məsləhətləşdiyini eşidəndə od tutub yanır, Gülçöhrəni qardaşının gözündən salmağa yollar arayırdı. Amma, nə qədər çalışırdısa, onun bu cəhdləri baş tutmurdu. Səlbi nə qədər yalanlar uydurursa, Allahyar inanmır.

Qəddi-qaməti, ağıl və fərasətilə bütün gözəllərdən seçilən Gülçöhrə heç kimə könül vermirdi.

Ay keçir, il dolanır, Səlbinin bir oğlu olur. Bir gün hamı yatandan sonra Səlbi bıçaqla balasının başını kəsir və qanlı bıçağı Gülçöhrənin döşəyinin altına qoyur. Adəti üzrə gecə iki-üç dəfə Səlbi körpəyə süd verərmiş. Bu zaman Allahyar vərdiş etdiyindən oyanar, uşaq süd əmdikdən sonra onu əlləri üstünə alar, uşaq yuxuya gedənəcən oynadarmış.

Yenə uşağa süd vermək vaxtı gələndə Səlbi özünü yuxuluğa vurur. Heç nədən xəbəri olmayan Allahyar qalxıb uşağın beşiyinə yaxınlaşır ki, uşağı gətirib anasına versin. Oğlunu qan içində görüb vay-şivən qoparır.

Səsə Səlbi yuxudan oyanır, heç nədən xəbəri yox kimi özünü beşiyə yetirir və özünü döyə-döyə bu sözləri deyir:

-Evin yıxılsın, Allahyar, necə ki, yıxıldı. Demədimmi, bu bacı deyil, sənə düşməndir? Çırağın keçsin, Allahyar, demədimmi bu bacı deyil, boyun vurandı? İnanmadın! Di inan, di döz, öz gözlərinlə gör, bala qatili ilə qabaq-qabağa otur, öp-öp, yenə də

öp, qoy gözlərin üstə. Vaxt olacaq ki, o gözlərdən də səni məhrum edəcək.

Allahyar yenə də inanmır və inanmaq üçün sübut istəyir. Səlbi evin içində bir o yana, bir bu yana qaçdıqdan sonra Gülçöhrə yatan otağa keçir və haray-həşirlə geri qayıdıb ərini darta-darta ora aparır. Səsə oyanan Gülçöhrə heç nə başa düşməyərək nə olub? - deyə növbə ilə hər ikisindən sual edir. Səlbi irəli yeriyib döşəyin altından qanlı bıçağı çıxarır.

Səhər açılır, Allahyar bütün qohum-qardaşı toplayıb, bacısının bütün andlarına baxmayaraq, həmin bıçaqla bacısının biləkdən əllərini kəsir və kənddən çox-çox uzaqda yerləşən uca bir dağın başına gətirir. Təpə aşağı yuvarlayır. Dərənin dibinə çataçatda Gülçöhrə qollarını yerə dirəyib dik tullanır və ayaq üstə yerə düşür. Ata var-dövlətindən bacısına heç nə verməyən Allahyar bacısının hər iki əlini iplə bağlayıb boynundan asmışdı.

Həmin gündən Gülçöhrənin yeganə həmsöhbəti bu əllər olur.

Gecə keçincə, Gülçöhrə başına gələn hadisəni düşündükcə və günahsız yerə kəsilən əllərinə baxdıqca ağlayır. Gecənin yarısı oturduğu yerin yaxınlığında at kişnərtisi eşidir. Durub yaxına getdikdə böyük bir bostana rast gəlir.

Biçarə qız nə etsin, əl gərəkdir ki, heç olmazsa acından ölməmək üçün qarpız-yemişdən yesin. O, dizlərini yerə qoyaraq dişləri ilə qarpız-yemişi dişləyir. Hər gecə bu minvalla bostana gələr, qarpız-

yemişlərdən yeyərmiş. Qarpızların bu vəziyyətə düşməyinə bostançı məəttəl qalmışdı. Bostançının Kərəm adlı bir ağıllı oğlu var imiş. Oğlu atasına deyir:

-Ata, mən pusub bu sirri öyrənərəm.

Atası razılaşır. Axşam düşəndə Kərəm bir su oyuğuna girib gözləyir. Xeyli keçəndən sonra görür ki, bir qaraltı bostana sarı sürüşür. Yaxınlaşır ki, bir adam dizlərini yerə qoyub yemişi-qarpızı dişləyir. Bir xeyli bu maraqlı mənzərəni seyr etdikdən sonra gizləndiyi yerdən çıxıb qıza tərəf gəlir. Kərəmi görən Gülçöhrə diksinib o gələn səmtə baxır və qorxudan ağlamağa başlayır. Kərəm ona ürək-dirək verdikdən sonra onu evlərinə aparır. Evdə baxıb görür ki, bu qız qənirsiz bir gözəldi, amma qolları yoxdu. Nə qədər sual edirlərsə, qız nə kim olduğu haqqında, nə də ki, boynundan asılan günahsız əllər haqqında heç kimə heç nə demir. Ata-anasının narazılığına baxmayaraq, Kərəm həmin qızla evlənir.

Bir gün Kərəm qızın razılığı ilə bostanın yaxınlığındakı bulağın üstündə kiçicik bir qəbirdə əlləri basdırır. Hər gecə Kərəm yuxuya gedəndən sonra Gülçöhrə bulağın başına gələr və bulağın suyu içində öz əllərinin fırlandığını görərdi. Bu sirri o, heç kimə açmırdı.

Bir gün Kərəm öz yoldaşları ilə uzaq bir səfərə çıxmalı olur. Sevimli arvadından ayrılmaq, hamilə Gülçöhrəni yalqız qoyub getmək Kərəmə nə qədər ağır gəlsə də, inadından dönmür, yoldaşları ilə səfərə çıxır.

Kərəm gedəndən az sonra Gülçöhrənin ekiz oğlu olur. Bundan sevinən ata oğlunu bu şad xəbərdən xəbərdar etməkdən ötrü bir məktub yazıb Kərəmə göndərir. Məktubu aparan kişi yolda bir qadına rast gəlir. Demə, bu qadın Gülçöhrənin cüt əldən məhrum edilməsinin səbəbkarı olan Səlbi imiş. Səlbi həmin gündən səsdə-soraqda imiş ki, görüm əlləri yoxdan bir xəbər yoxdur ki. Yolda yad bir kişiyə rast gələn Səlbi ondan hara getdiyini soruşur. Kişi əhvalatı olduğu kimi Səlbiyə söyləyir. Səlbi kişini öz evlərinə aparır və deyir ki, yat, rahat ol, səhər durub gedərsən.

Gecə Səlbi durub məktubu kişinin cibindən çıxarır və məzmununu başqa cür yazır: "Oğul, demədimmi o topalı alma, topal indi bizi el içində rüsvay edib".

Səhər kişi durub yola düşür və məktubu Kərəmə çatdırır. Bu məktubla tanış olandan sonra Kərəmin halı pisləşir və olduqca bədbin olur. Götürüb cavabında atasına yazır: "Ata, necə olursa-olsun qəbul et. Gəlin həm sınıq, həm də qəribdir".

Kişi həmin məktubu götürüb geri qayıdır. Səlbi ona tapşırmışdı ki, qayıdanda da buradan gəl, görüm sağ-salamat gedib çıxdınmı?

Kişi yolunu yenə də Səlbigildən salır. Səlbi yenə də kişini yuxuya verib məktubu dəyişdirir. Yazır: "Ata, indiyə kimi başa düşməmişəm, sizin sözünüzdən çıxmışam. Onun başını kəs, qanlı köynəyini də mənə göndər." Kişi səhər durub məktubu sahibinə çatdırır. Məktubu alan kimi bostançını fikir götürür. Düşünür ki, görəsən, Gülçöhrənin günahı nədir ki,

mən onun başını kəsəm? Mən oğlumu sevindirmək üçün yanına adam göndərirəm, gör o nə fikirləşir.

Naəlac qalan kişi bir dovşan tutub kəsir. Bir köynəyi də həmin dovşanın qanına batırıb oğluna göndərir. Köynək oğlana çatanda çaşbaş qalan Kərəm atlanıb evə yola düşür.

Qoca cüt oğlanlara da bir az xərclik verib gəlini bir meşəyə ötürür. Ağıllı Gülçöhrə həmin qızılla ev-eşik tikdirir.

Gülçöhrə bir gün həmin bulağın başına gəlir. O, bulağa çatan kimi yenə əvvəlki mənzərəni görür. Həmin dəqiqə bir quş gəlib bulağın üstündəki ağaca qonur və deyir:

-Ay qız, sal əlini suya, xeyir taparsan.

Qız hər iki əlini suya salır. Əvvəlki əllər öz yerinə qayıdır.

Kərəm də ağır düşüncələr içərisində gəlib öz evlərinə çatır. Qanlı köynək haqqında atasından soruşur. Atası deyir:

- Sən yazmışdın öldür, mən də öldürmədim, buraxdım.

Bu sözü eşidən Kərəm çaş-baş qalır və deyir:

-Mən elə şey yazmamışam.

Atası gizlətdiyi məktubu çıxardıb göstərir. Bu sirrə məəttəl qalan oğlan qızın getdiyi tərəfi öyrənir və atlanıb axtarmağa yollanır.

Allahyarın da qəlbində bacı həsrəti baş qaldırır. O da qzı axtarmağa yollanır. Kərəm Gülçöhrəni axtararkən bir bulağa rast gəlir, istəyir ki, əyilib o bulaqdan

su içsin, görür iki əl suyun üzərində oynayır. Bulağın kənarında da kiçik bir qəbir var, üstündə də qan qırmızı bir cüt gül. Bu mənzərəni düşünə-düşünə yuxuya gedir. Ayılanda yanında bir oğlanın yatdığını görür. Oğlanlar bir-birindən kim olduqları barədə soruşurlar. Onlar hər ikisi ovçu olduğunu söyləyir. Xeyli ov axtardıqdan sonra gecələyirlər. Onlar gecələmək üçün yer axtarırlar, yaxınlıqda hündür bir bina olduğunu görüb orada gecələməyi qərara alırlar. Onlar evin yanına gəlib ev sahibini səsləyirlər. Evdən bir gəlin çıxır. Hər ikisi gəlindən evin kişisinin çölə çıxmağını tələb edirlər. Qadın cavab verir:

- Kişini nə edirsiniz, ev evdir, buyurun evə.

Gülçöhrə onları görən dəqiqədən tanıyır, amma onlar Gülçöhrəni tanımırlar.

Gülçöhrə qonaqlara lazımi hörmət edir. Onlar yeyib-içəndən sonra yuxuya gedirlər. Qonaqlar yatanda Gülçöhrə bir qızıl üzük gətirib qardaşının cibinə qoyur. Səhər qonaqların hər ikisi durub halallaşıb yola düşürlər.

Qonaqlar xeyli yol gedəndən sonra qadın öz oğlunu göndərir ki, get qonaqları geri qaytar. Uşaq qaçıb qonaqları geri qaytarır. Qadın üzünü hər iki qonağa tutub deyir:

-Bu da mənim çox sağolumdur? Üzüyümü oğurlamısınız.

Qonaqlar and-aman edirlər ki, bizim üzükdən xəbərimiz yoxdur. Bunu görən Gülçöhrə hər ikisini axtarır və üzüyü qardaşının cibindən çıxardır. Bu

hadisəyə məəttəl qalan kişi and içir ki, bu necə olan işdir, mənim o üzükdən xəbərim yoxdur. Gülçöhrə deyir:

-Deyirsiniz yəni, mən bu and-amana inanım?

Qonaq deyir:

- Nə üçün inanmırsan, inan.

Qız cavab verir:

- Əgər inanmaq mümkündürsə, sən niyə öz bacının yalvarışına, and-amanına inanmadın? Bax, o qollarını kəsdiyin bacın mənəm.

Sonra üzünü qonaqlardan digərinə tutub deyir:

-Sən də bax, öldürtmək istədiyin qadın mənəm. Eşit və bil, hər deyilənə inanma.

İndi də o bulaq yaxınlığındakı qəbrin üstündə o qan rəngli gül öz ətrini, rəng və təravətini itirməyib qalmaqdadır.

***Söyləyəni: Ağdam rayonunun***
***Papravənd kəndi 70 yaşlı***
***Zəhra Kərimova***

# *Gün sənin nəvəndi, Ay da Yəmən padşahının*

Günlərin bir günü padşah vəzirə dedi:

- Vəzir, gedək camaatı yoxlayaq.

Padşahla vəzir gecənin bir vaxtı getdilər kəndə. Gördülər ki, hər yer qaranlıqdır. Amma, bircə damdan işıq gəlir. Onlar bu işığa tərəf getdilər. Qapının deşiyindən baxdılar ki, bir dərzidir, paltar tikir. Bir cavan oğlan qalxıb dedi:

- Ata, bir yuxu gördüm.

Amma, oğlan yuxunu söyləmədi. Padşah bir saat gözlədi, iki saat gözlədi, amma oğlan yuxunu söyləmədən yatdı.

Padşah dedi:

- Vəzir, sabah çağırtdırıb yuxunu soruşarıq, görək nə yuxu görüb?

Padşahla vəzir saraya qayıtdılar. Səhər açılan kimi padşah əmr etdi:

- Dərzi oğlunu gətirin. Deyin ki, padşah çağırır.

Dərzi oğlunu apardılar padşahın yanına. Padşah əmr etdi ki, bu gecə gördüyün yuxunu danış. Dərzinin oğlu imtina elədi:

- Mən heç bir yuxu görməmişəm.

Bu padşahın arvadı ölmüşdü. Gözünün ağı-qarası bircə qızı qalmışdı. Padşah bu qıza ayrıca imarət tikdirdi, qızını da qoydu onun içinə. Ona qırx qulluqçu-qaravaş ayırdı. İmarətin yanında bir quyu qazdırmışdı. Acığı tutduğu adamları bu quyuya

atırdı. Şahzadə isə Adnadan – Adnaya bu quyuya çörək tullayırdı ki, quyuda sağ qalan varsa yesin.

Padşah dərzi oğluna deyir:

-Yuxunu söylə, səni buraxım, çıx get.

Dərzi oğlu vəğanı söyləmədi. Padşah əmr edir:

-Gedin, nar çubuğu kəsin gətirin.

Nar çubuğu ilə dərzi oğlunu möhkəm döyüb saldılar quyuya. Aradan bir həftə keçdi. Dərzi oğlunu quyudan çıxardıb apardılar padşahın yanına. Padşah dedi:

- Vəğanı söylə.

Oğlan yenə inadından dönmədi:

- Padşah sağ olsun, mən yuxu görməmişəm.

Fərraşlar dərzi oğlunu quyuya salanda padşahın qızı onu görüb bir könüldən min könülə vuruldu. Qızları başına yığdı çıxdılar bazara. Bazardan bir kənkan tapdılar. Kənkana dedilər:

-On beş metrlik quyunu neçə günə qaza bilərsən?

Kənkan bunu üç günə edəcəyini bildirdi. Qızlar kənkanı gətirdilər. O da başladı lağım atmağa. Lağım gəlib çıxdı dərzi oğlunun yanına. Qız oğlanı gətirdi otağına. Gündüz quyuya buraxırdı, şər qarışanda gətirirdi. Bir neçə gün belə keçdi. Yenə padşah dərzi oğlunu gətizdirdi yanına. Dedi:

- Bu qədər inad etmə, yuxunu söylə, çıx get atanın yanına.

Oğlan dediyinə durdu:

- Padşah sağ olsun, mən yuxu görməmişəm.

Nə isə, yuxunu yenə söyləmədi. Bu dəfə də

əllərini qandallayıb saldılar quyuya. Qız tərpəndi, getdi oğlanı gətirdi öz imarətinə. Gecənin bir vaxtı idi, qız oğlandan xəbər aldı:

- Dərzi oğlu, bilirsən nə var?

Oğlan cavab verdi:

- Yox, ay qız, bilmirəm. Deyərsən, bilərəm.

Qız söylədi:

- Yəməndə bir padşah var, məni oğluna istəyir, atam vermir. Bu gün də o, mənə elçi göndərib. Elçilər üç dənə sandıq gətirib. Sandığın içində ləl var. Qiyməti üç min manat puldur. Ortancıl sandığın içindəki ləlin qiyməti iki min beş yüz manat, üçüncü sandığın içindəki ləl iki min manat dəyərindədir. Daş deşiklidir. Ay oğlan, sən elçilərin cavabını versən, onda atam məni sənə verəcək. Bu sirri səndən başqa heç kim bilmir.

Oğlan qıza dedi:

- Ay qız, məni atanın yadına salma.

Gecəni yatdılar, səhər açılanda gördülər ki, atası qızının qapısında hərlənir. Qızı soruşdu:

- Ata, xeyirdimi, nəyə gəlibsən?

Padşah cavab verdi:

-A bala, Yəmən padşahı üç sandıq yollayıb, heç kim bilmir ki, içindəki nədir.

Qız dedi:

-Ata, niyə o tərəf-bu tərəfi gəzirsən, sən dərzi oğlunu quyudan çıxart, qoy o tapsın.

Padşah əmr etdi, oğlanı quyudan çıxartdılar. Ona dedi:

-Dərzi oğlu, sandığın içində nə var, onları de.

Oğlan cavab verdi:

- Sənin atını minənlər tapsın, süfrənin başında oturanlar tapsın. Mənim nə işim var? Adnadan Adnaya qızın bir loxma çörək tullayır. İndi ki, deyirsən de, mən də deyim. Birinci sandığın içində ləl var, qiyməti üç min manat puldur. İkinci sandığın içindəki ləlin qiyməti iki min beş yüz manat, üçüncü sandığın içindəki ləlin qiyməti isə iki min manat puldur, özü də deşiklidir.

Sandığı gətirən elçi dedi ki, düzdür. Açıb gördülər ki, oğlanın dediyi düzdür. Elçi sandıqları yüklədi, düzəldilər yola, getdilər. Yəmən padşahı bu elçini gözləyirdi ki, görsün hansı cavabla qayıdır.

Bunlar getməkdə olsun, sizə padşahdan deyək. Padşah yenə də oğlanı çağırıb əmr etdi:

-Yuxunu söylə, çıx get.

Oğlan dedi:

-Padşah sağ olsun, mən yuxu görməmişəm.

Qız güləfrəngidən baxırdı. Gördü ki, oğlanı yenə döyüb quyuya saldılar. Tez gedib gətirdi evinə. Gecəni qaldılar. Qız dedi:

- Dərzi oğlu, Yəmən padşahı çox acıqlıdır. O, elçiləri gözləyir. Çatan kimi yenə elçi göndərəcək. Bu dəfə Yəmən padşahı qırx nəfər adam hazırlayıb. İyirmisi qızdır, iyirmisi oğlan, hamısı bir yaşda, bir ürəkdə, bir boyda. Heç kim tapa bilməyəcək, seçə bilməyəcək, mən deyəcəm sən

taparsan. Dərin bir quyu qazdırarsan, beş metr enində, on beş metr dərinliyində. İçərisinə xəncər-bıçaq qoyarsan, elçiləri də nizama düzərsən. Onlardan hansı hoppandı oğlandır, hoppana bilməyən qızdır. Yerdə qalan on nəfərə də deyərsən ki, oğlandır. On nəfər oğlan da qalıb qızların içində. Sonra aş bişirtdirərsən, ləmpəni evin ortasına qoyarsan, özün də oturarsan ləmpənin dibində, baxarsan. Qızlar yedikcə baxarsan. Gördün ki, hansı adam aşı dürməş vurub qoyur ağzına, o oğlandır, hansı ovcunun içində yeyir, o qızdır. Dürməş vurub yeyən oğlanları bir-bir qaldırarsan, çıxardarsan çölə. Elçi gətirənlərdən xəbər alarsan ki, düzdürmü, yoxsa yox?

Səhər açıldı. Oğlan qızın dediyi kimi etdi. Yəmən padşahının elçisi onun dediklərini təsdiqlədi. Cavanları yığıb öz ölkəsinə qayıtdı.

Yəmən padşahı səbirsizliklə gözləyirdi ki, görən bunu kim tapacaq. Elçilər gəlib çatanda soruşdu:

-Noldu, tapdılarmı?

Elçi cavab verdi:

-Tapdılar.

-Kim tapdı?

Elçi dedi:

-Dərzi oğlu tapdı.

Yəmən padşahı hirsləndi. Öz-özünə söyləndi:

- Ay dərzi, gör sənin başına nə oyun açacam. Sən mənim elçilərimi geri qaytaran olmusan?

Az keçmədi, Yəmən padşahı bir məktub yazıb bu biri padşaha göndərdi. Məktubda yazılmışdı: “Dərzi oğlunu göndər mənə. Əgər göndərmirsənsə, davamız davadır”.

Dərzi oğlunu padşah yenə çağırdı yanına, əmr elədi:

-Yuxunu söylə!

Yenə cavab ala bilməyincə oğlanı döyüb quyuya saldılar. Qız da həmişəki kimi oğlanı gətirdi evinə. Elə bu vədə Yəmən padşahının məktubu gəlib yetişdi. Qız bundan xəbər tutdu. Oğlana dedi:

-Yəmən padşahı səni tələb edir. Atam da səni onun yanına göndərəcək. Qorxma, get. Yəmən padşahı acıqlıdır, səndən xəbər alacaq ki, dərzi oğlu sənsən, deyərsən ki, bəli. Sənə desə ki, daşdan don düzəldərsənmi? Deyərsən ki, o mənim əsl sənətimdir. Sənə daşdan don tikərəm. Amma mə-nə qırx gün vaxt ver. Qırx gün orada yeyib-içib bağda gəzərsən. Qırxıncı gün tamam olanda gedib çaydan bir ovuc qum gətirərsən. Deyərsən ki, don hazırdı, bu qumu gətirmişəm ki, bundan yaxalıq hör, gedim donu gətirim. Onda sənə deyəcək ki, axmaq oğlu axmaq, qumdan yaxalıq olar? Onda sən də deyərsən ki, padşah sağ olsun, daşdan da don olar? Bu sözləri deyərsən padşah sənə qız verəcək. Qırx gün sənə toy vurduracaq, sonra sənə deyəcək ki, burada qalıb mənə oğul olursan, yoxsa atanın vilayətinə gedirsən? Ancaq, sən deyərsən ki, gedirəm. Gələrsən bura, mənim atam da məni

sənə verəcək, olacaq iki arvadın.

Bunu deyib oğlanı quyuya qaytardı. Padşah da məktubu oxuyan kimi oğlanı quyudan çıxardıb göndərdi Yəmən ölkəsinə. Çatan kimi qızın dedikləri kimi olur. Oğlan axırda hər iki arvadı alır. Hər arvaddan da bir oğlu olur.

Bir gün dərzi oğlu evdə uşaqlar da qucağında oturmuşdu. Padşah içəri girəndə uşaqları dizinin üstündən düşürmək istədi. Padşah onları düşürməyə qoymadı. Oğlan dedi:

-Padşah sağ olsun, icazə versəydin yuxumu söyləyərdim.

Padşah:

-İzndi, söylə-dedi.

Oğlan yuxunu söyləməyə başladı:

-Atamın yanında yatmışdım. Gördüm Gün sağ dizimin, Ay da sol dizimin üstünə şığıyıb oturdu. İndi Gün sənin nəvəndi, ay da Yəmən padşahının.

Padşah əlini onun başına vurub dedi :

- Nə qədər ki, bu baş səndə var, dünya sənindir.

# *Qızılquş nağılı*

Padşah heyvanlar aləminin yaşayış tərzi ilə tanış olmaq üçün səyahətə çıxır. Heyvanlar içərisində onun diqqətini ən çox cəlb edən Qızılquş olur. O, öz-özünə deyir: “Bütün heyvanlar aləmi içərisində Qızılquşdan gözəl həyat tərzi keçirən başqa bir heyvan yoxdur.”

Padşah səyahətdən qayıdan kimi ovçulara əmr edir ki, onun üçün bir Qızılquş tutub gətirsinlər. Ovçular padşahın əmrini yerinə yetirirlər. Padşah Qızılquşu qəfəsə saldırır və ona nəzarətçi təyin edir. Bir müddətdən sonra padşah quşlarda etibar olub-olmamasını yoxlamaq məqsədilə quşu qəfəsdən açıb buraxır. Qızılquş uçub dəstəsinə qovuşur və onlara deyir:

- Ey mənim həmkarlarım, bilirsinizmi, padşah məni nəyə görə açıb buraxdı? Ona görə ki, o, məndə etibar olub-olmamasını yoxlamaq istəyir. Mən padşahın yanına mütləq qayıtmalıyam və ona elə bir gözəl hədiyyə aparmalıyam ki, dünyada tayı- bərabəri olmasın.

Dostları Qızılquşa məsləhət görürlər:

- Əlçatmaz dağın başında bir alma ağacı var, onun meyvəsini yeyən qoca adam on beş yaşında cavan oğlan olur. İndi o dağın zirvəsinə qanad çal, həmin ağacın budağından bir dənəsini qırıb padşaha hədiyyə apar.

Qızılquş Zirvəli dağa qanad çalır, alma ağa-

cının budağından bir dənəsini qırıb padşaha gətirir.

Padşah deyir:

-Ay Qızılquş, bu gətirdiyin hədiyyə nədir?

Quş cavab verir:

- Bu, alma ağacının budağıdır, özü də sirlidir. Bu ağac ildə üç dənə alma verir. Onu yeyən qoca adam on beş yaşında cavan bir oğlan olur. Ona görə də, bu ağacı bağçanızın elə bir guşəsində əkməlisiniz ki, heç kəs onu görə bilməsin.

Padşah buna razı olur, budağı bağbana verir, gizli bir yerdə əkməsini məsləhət görür.

Nəhayət, vaxt gəlib çatır, budaq böyüyüb ağac olur, ağacda üç dənə alma yetişir. Bağban almalardan birini dərib padşah aparır. Yolda ona vəzir rast gəlir, bağbanı dilə tutub deyir:

-Bağban, bir gör bu alma necə də gözəl, yaraşıqlı, ətirlidir. Mənim arvadım xəstədir, əgər aparıb ona göstərsəm, dərhal sağalıb ayağa duracaqdır.

Vəzir bağbanı aldadır, almanı onun əlindən alıb evinə aparır. Almanı iynə ilə zəhərləyib bağbana qaytarır. Bağban almanı gətirib padşaha verir. Padşah almanı diqqətlə nəzərdən keçirir. Baxıb görür ki, bu qeyri-adi almadır. Ona görə də şübhələnir, almadan bir az kəsib pişiyə verir. Heyvan dərhal ölür. Padşah qəzəblənib Qızılquşun boynunu kötük üstünə qoydurur. Qorxuya düşən bağban tez bağçaya qaçır, yerdə qalan almanın birisini yeyir ki, ölsün. O, belə də edir, almanı yeyir, ancaq ölmür, on beş yaşında bir oğlan olur və dərhal pad-

şahın yanına qayıdır. Padşah nahaq yerə Qızılquşu öldürdüyünə heyfslənir və sirri açmaq üçün bağbanı dindirir. Soruşur ki:

-Bağçadan mənim yanıma gələndə sənin qarşına kim çıxmışdı?

Bağban cavab verir ki, vəzir. Padşah vəziri zindana saldırır. Vəzir boynuna alır ki, almanı o zəhərləmişdir.

Nəhayət, padşah hər şeyi araşdırmadan Qızılquşa cəza verdiyinə görə çox heyfslənir.

# *Həzrət Süleyman və qoca dünya*

Həzrət Süleyman səfərdə olan zaman gözəl bir qızla tanış olur və ona nişanə olaraq bir üzük bağışlayır. Deyir ki, qayıdanda mütləq sizinlə görüşəcəyəm.

Qayıdanda baxıb görür ki, qızın oturduğu yerdə bir qoca qarı əyləşib. Salam verdi. Qarı onun salamını aldı. Həzrət Süleyman qızın harada olduğunu soruşdu. Qarı dedi:

- O burada deyil, nə sözün varsa de və cavabını al.

Həzrət Süleyman dedi:

-İndi ki, belə oldu, o vaxt mən ona bir ədəd qızıl üzük bağışlamışdım. O üzüyü tap mənə ver.

Qoca qarı sandığı açdı. Həzrət Süleyman baxıb gördü ki, onun üzüyünə bənzər burada o qədər üzük var ki, öz üzüyünü axtarıb tapa bilmədi.

Qarı gülümsədi:

-Ey, Həzrət Süleyman, sən Həzrət Süleymansansa, mən də qoca dünyayam. Səni kimilərinin çoxunu yola salmışam.

# *Qıllıcanın nağılı*

Biri var imiş, biri yox imiş, bir kişi ilə bir arvad var imiş. Günlərin bir günündə arvad xəstələnir, kişini yanına çağırıb vəsiyyət edir:

- Mən öləndən sonra evlənmək istəsən, mənim paltarım kimə yaraşsa, onu da alarsan.

Arvad öləndən sonra kişi kənd-kənd axtarır ki, arvadının paltarı kimə yaraşsa, onu alsın. Amma, paltar heç kimə yaraşmır. Günlərin bir günü kişi evə gələndə görür ki, qızı arvadının paltarını geyinib paltar yuyur. Həm də paltar qıza çox yaraşır. Atası qızına təklif etdi ki, ananın vəsiyyətinə görə, sən mənimlə evlənmisən. Qızı narazı olduğu halda kişi bunu heç yana buraxmır. Qız bilmir nə etsin. Atasına deyir:

- İcazə ver, gedim su gətirim.

Ata qızı qaçmasın deyə belinə ip bağlayır. Qız səhəngi götürüb suya gedir. Gedərkən həyətdəki keçi dərisini də özü ilə götürür. Bir az uzaqlaşdıqdan sonra ipi səhəngə bağlayıb, keçi dərisi geyinib qaçır. Qız az gedir, çox gedir, gəlib bir xanımın küllüyünə çıxır. Orada bir az oturur. Bu zaman xanımın qulluqçuları kül tökməyə gəlirlər. Qulluqçular nə qədər edirlərsə Qıllıca küllükdən çıxmır. Onlar gəlib xanıma xəbər verirlər ki, küllükdə bir Qıllıca var. Xanım əmr edir:

- Gedin onu mənim hüzuruma gətirin.

Qulluqçular Qıllıcanı xanımın hüzuruna gətirirlər. Xanım Qıllıcadan soruşur:

- Sən kimsən?

Qıllıca ağlayıb deyir:

- Mənim heç kimim, kimsəm yoxdu. Bir işiniz olsa sizin yanınızda işləyərəm.

Xanım ona qaz otarmağı təklif etdi. Qıllıca razılaşdı. Hər gün qazları otarmağa aparırdı. O qazları otaran vaxtda qazlar arıqlamağa başlayır. Bunu görən xanım oğluna deyir:

- Ay Məhəmməd, Qıllıca qazları otarmağa başlayandan bəri qazlar arıqlayıb. Get, onu izlə.

Məhəmməd Qıllıcanı izləməyə başlayır. Bu zaman görür ki, qız dəridən çıxıb, çimməyə başladı. Qazlar da elə Qıllıcaya tamaşa edir. Məhəmməd Qıllıcanın gözəlliyinə heyran qalır. Axşam evə gəlir, anasına deyir:

-Mənim yeməyimi Qıllıca ilə göndərərsən.

Anası deyir:

-Ay oğul, etmə-eləmə, Qıllıcanın qılı yeməyinə düşər, vurub öldürərsən.

Məhəmməd əl çəkmir, anasını razı salır. Axşam Qıllıca gələndə qaravaşlar yeməyi hazırlayıb Qıllıcaya verirlər. O, yeməyi Məhəmmədin otağına aparır. Anası gözləyir, amma Qıllıca gəlmir. Nökərləri göndərir ki, Qıllıca niyə gec gəldi? Nökərlər gedəndə görürlər ki, Məhəmmədin otağında bir gözəl oturub, bu gözəlin gözəlliyi otağa işıq salır. Tez gəlib xanıma deyirlər:

-Otaqda bir gözəl var, Aya sən çıxma mən çıxım, günə sən çıxma mən çıxım deyir.

Nəhayət, Məhəmmədlə Qıllıca evlənir və onların iki oğlu olur. Bunlar şən-şəlayən yaşayırdılar.

Günlərin bir günü qızın atası axtara-axtara gəlib bunlara çıxır. Ata qızını xoşbəxt gördükdə hiyləyə əl atmalı olur. Qız da atasını tanıyır və Məhəmmədə yalvarır:

- Bu kişini qonaq saxlama.

Məhəmməd isə qızın sözünə məhəl qoymur və kişini qonaq saxlayır. Kişi gecə qalxıb uşaqların başını kəsib, qanlı bıçağı qızın cibinə qoyur. Sabah duranda görürlər ki, uşaqlar qalxmır. Baxırlar ki, uşaqların nənnisi qanla doludur. Kişi təklif edir ki, qanlı bıçaq kimin cibindən çıxsa, onun gözlərini ovsunlar. Axtaranda bıçaq qızın cibindən çıxır. Məhəmməd qəzəblənib ananın gözlərini ovub oğlanları ilə birlikdə aparıb meşəyə atırlar. Həmin vaxt göydən üç göyərçin uçdu. Göyərçinlərdən biri dedi:

- Gözü kora bax, kora.

O birisi dedi:

- Başı kəsiyə bax, başı kəsiyə.

Digər göyərçin isə dedi:

-Gəlin bir lələk çəkək onlar sağalsın.

Göyərçinlərin hərəsi bir lələk çəkdi, onlar sağaldılar və burada yaşamağa başladılar. Günlərin bir günü Məhəmməd vəzir, vəkilini götürüb ova çıxır. Bir qədər gəzib dolandıqdan sonra ov edirlər. Məhəmməd etdikləri ovu vəzirinə verib deyir:

- Apar bu ovu tüstü gələn yerdə bişir, gətir.

Vəzir daxmaya tərəf gedir. Gedəndə görür ki, daxmada bir gözəl əyləşib, yanında da bir cüt oğlu. Vəzir xanıma yaxınlaşıb əti bişirməsi üçün icazə alır. Sonra ocağı toplayıb kabab bişirməyə başlayır. Xanım o qədər gözəl idi ki, vəzir gözünü ondan çəkə bilmirdi. Qız gördü ki, kabab yanır, üzünü vəzirə tutub dedi:

- Ey oğlan, baş kəsənin başı kəsilsin, göz ovanın gözü ovulsun, üzünü çevir kababın yandı.

Vəzir gəlib bu sözləri Məhəmmədin yanında deyir.

Məhəmməd bu sözləri eşidib deyir ki, mən bu axşam o evdə qonaq qalmalıyam. Onlar gedib həmin xanımın evində qalırlar. Uşaqların hərəsinin narıncı və turuncu var idi. Bunlar yatdıqdan sonra qız uşaqları öyrədir ki, Məhəmmədin ayaqqabısının birinin içinə narıncını, birinin içinə isə turuncunu qoysunlar. Uşaqlar belə də edirlər. Anası onlara tapşırır:

-Sabah tezdən duranda deyərsiniz ki, ana mənim narıncımı ver, ana mənim turuncumu ver.

Uşaqlar sabah tezdən duranda analarının öyrətdiyi kimi deyirlər. Qız deyir:

-Gəlin axtaraq, kimdən çıxsa, oğru odur.

Uşaqlar axtarıb narıncı və turuncu Məhəmmədin ayaqqabısından tapdılar. Bu zaman qız deyir:

- Gəlin bunun gözlərini ovaq, aparaq bir meşəyə ataq.

Bu zaman Məhəmməd başa düşdü ki, bunlar onun arvadı və uşaqlarıdır. Məhəmməd arvadını və uşaqlarını aparır, qırx gün qırx gecə yenidən toy edir, şən və şəlayan yaşayırlar.

## *Səbr daşı və səbr bıçağı*

Biri var idi, biri yox idi, kasıb bir ailə var idi. Bunların bircə qızları var idi. Nargilə adlı bu qız kasıbçılıqla bir təhər böyüyür. Nargilənin atası həmişə odun yığar, aparıb satar və qızına, bir də qarısına çörək alıb gətirərdi.

Günlərin bir günü bunların qapısına qarğa qonur. Başlayır qarıldamağa:

-Qıyıq-qıyıq Nargilə, sən meyidə qismətsən.

Nargilənin atası qarğanı qovur, qarğa bir neçə gün gəlmir.

Bir gün qarğa yenə də gəlir və başlayır ki:

-Qıyıq-qıyıq Nargilə, sən bir meyidə qismətsən.

Bunlar əlacsız qalıb deyirlər ki, gəlin burdan köçək. Olandan-olmazdan götürüb yola düzəlirlər. Az gedirlər, çox gedirlər gəlib bir komaya çıxırlar. Baxırlar ki, komanın qapısı bağlıdır. Nə qədər əlləşirlər, aça bilmirlər. Elə bu anda həmin qarğa gəlib başlayır sözlərini təkrar etməyə. Bunlar qarğanı yenə qovurlar.

İndi də qapını açmaq növbəsi Nargiləyə çatır. Qapı o dəqiqə açılır. Nargilə içəri girir, qapı bağlanır. Nə qədər eləyirlər qapı açılmır ki, açılmır. Nargilə içəridə, ata ilə anası çöldə qalırlar.

Nargilə komanın içində bir qapı olduğunu görür. Qız qapını açır, gedir. Baxır, bura elə bir saraydır ki, heç padşahın da belə sarayı olmaz. Burada çoxlu qızıl-gümüş, xalı var. Qız bir az getdikdən sonra görür ki,

bir gözəl oğlan var, ancaq ölüdür. Bunun bədəni iynə ilə doludur. Qız qorxur, nə etdiyini bilmir, qaçıb komaya gəlir. Çığırıb ata-anasına deyir:

-Burada bir meyid var, bədəni də iynə ilə doludur.

Qızın ata-anası bir neçə gün qapının ağzında qalır. Axırı əlaclarını Allah kəsir, çıxıb gedirlər.

Bir gün qarğa gəlir və deyir:

-Qıyıq-qıyıq Nargilə, iynəni meyiddən təmizlə.

Nargilə gəlib oturur meyidin yanında, başlayır iynəni yavaş-yavaş çəkməyə. Bir gün belə, beş gün belə, otuz doqquz gün təmizləyir. Qırxıncı gün Nargilə dözə bilmir. Gedir komanın qapısına baxır ki, qapı açıqdır. Çölə çıxıb görür ki, qaraçılar köç edir. Köçün dalıncan bir qız gedir, amma bu qıza baxan yoxdur. Qaraçılardan soruşur:

- O qız kimdir?

Qaraçılar cavab verirlər:

- O qız yetimdir. İndi biz hara getsək, o da ora gedir.

Nargilə onlara qızıl-gümüş verir və qızı alır. Qıza deyir:

- Sən bu meyiddə qalan iynələri çıxart, mən də gedim meşədəki çayda başımı-gözümü yuyum, sonra gəlib yenə də özüm iynələri çəkərəm.

Nargilə belə də edir, o qayıdana qədər oğlan dirilir və yanında qaraçı qızını görür. Oğlan onu diriltdiyi üçün qaraçı qızla evlənmək qərarına gəlir.

Nargilə gəlir ki, oğlan dirilib. Özü də bu qızla bir-birini sevirlər. Nargilə çox kədərlənir. Oğlan onun

kim olduğunu soruşur. O, deyir ki, mən də burada yaşayıram. Oğlan bir söz demir.

Günlərin bir günü qaraçı qızı oğlanı yaxınlıqdakı bazara göndərir. Özü də xeyli şey tapşırır ki, alıb gətirsin.

Oğlan bir az gedir, görür ki, Nargilə oturub bir kolun dibində ağlayır. Ondan soruşur:

- Niyə ağlayırsan?

Qız cavab verir:

-Ata-anamdan ayrı düşmüşəm. Özüm də ki, gör necə yaşayıram.

Oğlan deyir:

-Bazara gedirəm, sənə nə alım?

Nargilə deyir:

-Mənə səbr daşı, bir də səbr bıçağı alarsan.

Oğlan soruşur:

-O nə olan şeydir?

Qız cavab verir:

-Sən dəmirçilərə desən özləri biləcək.

Oğlan gəlib bazara çıxır. Axtarıb dəmirçini tapır, deyir:

- Mənə səbr daşı və səbr bıçağı lazımdır.

Dəmirçi duruxur. Deyir:

-Verirəm, amma kimə alırsansa o, özünü öldürmək istəyir.

Oğlan qaraçı qızına aldıqlarını aparıb verir. Sonra Nargilənin yanına qayıdıb, səbr daşını və bıçağı ona verir. Özü də daşın dalında gizlənir. Nargilə səbr daşını əlinə alır, əvvəldən axıra başına nələr gəlirsə,

hamısını bir-bir danışır. Nəhayət, qurtardıqdan sonra səbr daşını yerə oyub, səbr bıçağını götürür. Kəlmeyi-şəhadətini oxuyub bıçağı başına çəkəndə oğlan qoymur. Nargiləni əvvəlcədən bunları ona demədiyinə görə günahlandırır. Onu götürüb evə gətirir. Qaraçı qızına çoxlu qızıl-gümüş verib yola salır. Özü isə Nargilə ilə evlənir.

Bir gün qarğa gəlib qızın yanında deyir:

-Qıyıq-qıyıq Nargilə, anan-atan sağdılar.

Nargilə oğlana yalvarır ki, anamı-atamı da gətirək. Oğlan razı olur. Onlar gedib Nargilənin ata-anasını da gətirirlər. Beləliklə, Nargilə xoşbəxt ailə qurur.

***Söyləyəni: Aşağı Veysəlli kənd sakini***
***Cəfərova Gülsüm Yusif qızı (1927)***

# Dartan və Yırtan

***Ali təhsilli ziyalı, danışdığı "Dartan və Yırtan" nağılı haqqında böyük folklorun vurğunu Bəxtiyar Uğurlu tez-tez mənə 80 yaşlı nənəsi Büllurdan həvəslə danışırdı. Bu nağılın əsatiri keyfiyyətlərinin "Kitabi-Dədə Qorqud"dakı Təpəgöz boyu ilə yaxından səsləşməsini bilərəkdən mən bu nağılı ondan xahiş edib aldım.***

***S.P.Pirsultanlı***

Biri varmış, biri yoxmuş, Çəmən və Qamət adında istəkli bir ailə varmış. Bunların İsmət adında bircə oğulları varmış.

Bir gün Çəmən xala cəhrədə yun əyirirmiş ki, gəvə toxusun. Öz-özünə deyir:

- Ay Allah, nə olaydı, bir qızım olaydı, mənə işlərimdə kömək edəydi. İnəkləri sağa, mənsilimi rahatlaya, ev-eşiyi təmiz saxlayaydı. Mən də ona cehiz gəvə, kilim, farmaş toxuyaydım. Nə olar, ay Allah, bax beləcə, bu cəhrənin yumağı kimi heç olmasa başı, dəmirdən də dişi olsun. Ay Allah, fəda olum sənə, arzumu yerdə qoyma.

Bunların hamısını Qamət kişi və oğlu İsmət eşidib çox kövrəlirdilər.

Deyərlər ki, adına qurban olduğuma bu səda çatır və onlara dəmirdişli, yumaqbaşlı bir qız verir. Anası qızı götürüb oğlunu böyütdüyü nənniyə qoyur. Onu yaxşıca bələyib inəyi sağmağa gedir və bir dolça da qızına süd verir. Qızının adını da Cəhrə qoyur.

Buna oğlu və yoldaşı çox sevinirlər.

Bir gün belə, beş gün belə, Çəmən xala görür, bu qız yaman çox yeyir. Getdikcə ona süd çatdıra bilmir. Həm də qız yaman tez böyüyür.

Günlərin birində Qamət kişi tövləyə girəndə görür ki, yerdə qan var. Nə görsə yaxşıdı? Ağ danası yoxdur! Evə gəlib olanları söyləyir və bu hadisəni törədəni axtarmağa başlayır. Heç kim də bu işdən bir şey anlamır. Bütün gün axtarmaqdan yorğun düşən ailə üzvləri tövlənin qapı və bacasını möhkəm bağlayıb birtəhər yatırlar. Sabah sübhdən kişi tövləyə baş çəkəndə qara dananın da yox olduğunu görür və başı alovlu evə gəlib danışır. Yenə də gedib bir iz axtarır. Çəmən xala qonşulardan topladığı südü qızına verməyə gələndə qan görür və qızının südü iştahsız yediyinə görə onun xəstələndiyini düşünür. Axşama kimi yanından əl çəkmir.

Gecə evinə qayıdan Qamət kişi çox ümidsiz halda ac-susuz yerinə uzandı. İlan vurmuş yatdı, o yata bilmədi. Bir də gördü ki, Cəhrə qızı nənnidən yavaşca düşüb açarı götürdü və evdən çıxdı. Kişi onun arxasınca çıxdı. Qız tövləyə girdi, inəyi dəmir dişləri ilə parçalayıb yedi. Kişi qorxusundan donub qaldı. Heç səsini də çıxarmadı. Qız qaçıb yerinə girdi. Qamət kişi arvadını eşiyə çağırıb olanları ona danışdı. Çəmən xala kişisinə çox bərk acıqlanıb dedi:

-Dəli olmusan, o ki, hələ çağadır. Onun dəmirdişli, yumaqbaşlı olmasına görə şər atırsan.

Kişi nə qədər dedi, amma arvadı başa düşmədi.

Qız bunların hamısını eşidirdi. Anası evə qayıdıb qızını sevələdi, başını tumarlayıb getdi və yerinə uzandı. Fikrə gedib yatdı. Kişi oğlunu çağırıb əhvalatı ona da danışdı. İsmət də bunlara inanmadı. Qızın atasına çox acığı tutdu. Atası əlinə balta götürüb tövlədə yatmağa getdi. Qız atasının mürgülədiyini görüb gəldi. Və onu elə yedi ki, bir damcı qanı belə yerə düşmədi.

Səhəri İsmət və anası nə qədər axtardılar Qamət kişini tapa bilmədilər. Fikirləşdilər ki, onlara acıqlanıb başqa yerə gedib. Hər yandan soruşdular, lakin tapa bilmədilər.

Beləliklə, Cəhrə artıq qonşuların malını, heyvanını yeməyə başladı. O, anasını çox istəyirdi. Bu işləri ondan xəbərsiz edirdi. Qardaşı da şübhələnmişdi. Amma, anasına bir söz deyə bilmirdi. Qonşuları və kəndçiləri də artıq bilirdilər, ancaq qızın qorxusundan dillənmirdilər. Beləliklə, bütün camaat kənddən başqa yerə qaçmağı qərara aldılar. İsmət də qalan mallarını, atını və iki dənə küçüyünü götürdü, camaata qoşulub kənddən çıxanda anasından deyir ki, onu burada qoya bilməz. Anası isə onunla getməyə razı olmur. O, qızı ilə qalacağını deyir. Hamı kənddən çıxıb "Qarlı dağ"a getdi. Orada koma tikib qaldılar.

On-on beş gün belə keçdi. İsmət bir gün əmisi qızına dedi:

- Mən gedim görüm anam necədir, başına nə gəldi. Sənə bir şey tapşırım. Bilmək olmaz başıma nə gələcək. Qatıq çalarsan, əgər qatıq qan üyüşərsə onda

mənim itlərimi açıb buraxarsan. Dartan və Yırtan mənim köməyimə çatar.

İsmət atını minib kəndə doğru yollandı. Gəlib evlərinə çatdı və yavaşca evin bacasından boylanıb gördü ki, bacısı anasını da yeyib. Anasının döşünü götürüb belə deyir:

-Hər şeyi yeyib qurtardım. Gözümün işığı anamı da yedim. İndi bu gün bunu yesəm, sabah nə yeyəcəm?

İsmət çox qorxdu, bacadan çəkilib qaçmaq istəyəndə oradan evə torpaq töküldü. Bacısı tez çölə çıxıb qardaşını gördü və dedi:

- Qardaş, qurbanın olum, xoş gəldin. Bacın sənə qurban, yaman yadıma düşürdün. Ayaqlarının altında ölüm, evə gəl. Sənə bacın qulluq etsin. Qurbanın olum, gəl evə gedək.

İsmət qorxusundan bilmədi nə etsin. Getməsə onu da yeyəcəkdi. Onlar evə getdilər. Dəmirdişli, yumaqbaşlı qız fikirləşdi ki, əvvəlcə qardaşının atını yesin. Dedi:

-Qurbanın olum, qardaş, icazə ver atını sulayım, uzaq yol gəlmisən.

Qardaşı dedi:

-Apar sula, bacıcan.

Qız atı suvarmağa çaya apardı və qayıdanda qardaşına dedi:

-Qardaş, sən bizə gələndə atın üç ayaqlı idi?

Qardaşı işi başa düşdü və dedi ki, bəli, atım üç ayaqlı idi. Qorxurdu, bəs nə etsin?

Bacısı yenə də atı suvarmağa apardı və oradan səsləndi ki, qardaş, sənin atın iki ayaqlı idi?

Qardaşı dedi ki, atım iki ayaqlı idi. Bir də aparanda dedi ki, qardaş sən yəhəri minib gəlmisən? Atın olmayıb?

Qardaşı dedi:

-Mən yəhəri minib gəlmişəm.

İsmət bilmirdi buradan necə qaçsın. Qız yaman sürətlə hərəkət edir, qaçırdı. İsmət bacısından ona su verməsini xahiş edir. Qız bütün qab-qacağa kimi yemişdi, çünki dişləri dəmirdən idi. Axıra bircə xəlbir qalmışdı. Qardaşı ondan xəlbirdə su gətirməsini xahiş etdi. Qız qaça-qaça xəlbir götürüb çaya getdi. Nə qədər su doldurub gətirmək istədi, bacarmadı. Bərk acıqlandı. İsmət dedi ki, çay qumu ilə xəlbiri suvasın.

Qız qumla xəlbiri suvayır, su dolduranda hamısı axırdı. Qızın başı qarışanda İsmət qaçmağı qərara aldı. Çəkmələrinə kül doldurub bacadan asdı və dağa doğru qaçmağa başladı. Qız acıqlı-acıqlı çaydan gəldi ki, qardaşını da yesin. Gördü ki, qardaşı bacada oturub. Çox çağırdı ki, aşağı düşsün. Bir cavab almayanda dəmir şiş götürüb çəkmələri deşəndə gözünə kül tökülür. Daha bərk qəzəblənir və qardaşının dalıycan qaçmağa başlayır.

İsmət gördü ki, bacısı yel kimi budur gəlir. Daha da bərk qaçmağa başladı. Gördü xeyri yoxdur, qız çathaçatdır. Başladı yalvarmağa:

-Allah, yer yarılsın mən girim, yer yarılsın mən girim.

Birdən yer yarılır, İsmət yerə girir və deyir:
-Allah, yer bağlansın mən qalım, yer bağlansın mən qalım.
Yer bağlanır, ancaq sırıxlısının bir qırağı eşikdə qalır. Bacısı gəlib tapır və sırıxlını didməyə, dartmağa başlayır. Bir şey alınmayanda deyir:
-Gedim evdən külüng, bel gətirim, qazım, çıxarıb yeyim.
Qız evə gələndə İsmət yalvarır:
-Yer yarılsın, mən çıxım.
Yer yarılır, İsmət çıxır və yenə də qaçmağa başlayır. Bir də görür ki, bacısı gəlir və az qalır çata. Qaçıb bir hündür ağaca çıxır. Bacısı ha istəyir ağaca çıxsın, çıxa bilmir. Çünki, o qədər yeyib ki, qarnı qoymur çıxmağa. Qız dəmir dişlərini işə saldı. Ağacın gövdəsini didməyə başladı. İsmət gördü ki, başqa yolu yoxdur. Tütəyini cibindən çıxarıb çalmağa başladı. Tütək: "Dartan-Yırtan, qoyma, məni qurtar"- deyirdi.
Sizə xəbər verim Dartanla Yırtandan. Əmisi qızı gördü ki, qatıq qan üyüşdü. Tez itləri açıb buraxdı. Dartanla Yırtan İsmətin köməyinə qaçdılar. Ağac az qalırdı ki, üzülsün, itlər özünü çatdırdı. İsmət tütəyində dedi:
-Qızı elə parçalayın ki, bir damla qanı belə yerə düşməsin. Anamın, atamın heyfini ondan alın.
İtlər dəmirdişli, yumaqbaşlı qızı parçaladılar. Ancaq bir damla qanı bir yarpağın üstünə düşdü. İsmət itlərini də götürüb ağlaya-ağlaya gedəndə birdən qan damlası dilə gəlib dedi:

-Qardaş, qurban olum sənə, mənim qanımı götür özünlə, sənə çox xeyirim dəyər. Mənim günahlarımı bağışla. Nə edim ki, mən belə yaranmışam.

İsmətin yazığı gəlir və qan damlasını yarpağa büküb cibinə qoyur. Birdən bu zaman bir neçə adam onlara çatır və buradan qırx yüklü dəvənin keçib-keçmədiyini soruşurlar. İsmət deyir ki, mən görməmişəm. Qan damlası deyir ki, mən yerini bilirəm. Qarlı dağın günbatan tərəfindədirlər. Yolun üst tərəfinin dəvələr tərəfindən otlanması sizə izlərini göstərəcək. Dəvələri bu qayda ilə tapdılar. Dəvələrin sahibi İsmətə yeddi yüklü dəvə bağışlayır və dua edib qalan dəvələri götürüb gedir.

İsmət dəvələrin yükünü açanda görür ki, hamısı qızıl-gümüşdür. Gəlib camaatı götürüb kəndə qayıdır. Qızıllara hamıya mal-heyvan alır. Kəndlərinə yol çəkdirir, körpü saldırır, su çəkdirir, qalanlarını isə hamı arasında bölür və xoşbəxt həyat sürürlər.

# *Dərya atı*

Belə nəql edirlər ki, keçmiş zamanlarda Qarabağda dünyanın bir çox ölkələrindən gətirilən seçmə atların yarışı keçirilərdi.

Bir gün şah sarayda elan edir:

- Sabah şəhər camaatını meydana toplayın, dünyanın bir çox ölkələrinin ən yaxşı seçmə atlarının yarışı keçiriləcək. Siz də ən yaxşı cins atlar seçib gətirin. Yarışda hansı at qalib çıxsa, ona özü ağırlıqda ənam bəxş ediləcək.

Padşah bu işin icrasını vəzirə həvalə edir. Tapşırır ki, özü də yaxşı bir at tapsın.

Vəzir həmin gün şəhər camaatını meydana toplayır, əmri hamıya elan edir. Özü də at axtara-axtara gəlib bir dərya kənarına çıxır. Dərin fikrə gedən vəzir birdən nə görsə yaxşıdır, dəryadan qəddi-qamətli, ildırım sürətli bir at çıxır. Gəlib sakit-sakit vəzirin qabağında dayanır. At sanki baxışlarıyla deyirdi: "Çox fikirləşmə, məni də bu yarışa apar".

Vəzir atı şəhərə gətirir. Dəmirçinin yanına gəlib ata qızıldan nal düzəltdirir. Üzəngisini də bahalı materialdan hazırlatdırır. Atın cilovundan tutub meydana doğru apardıqda şəhər camaatı ona heyranlıqla baxırlar. At elə bil hamını sehrləmişdi.

Səhər hamı meydana toplaşır. At bütün atların içindən seçilir, yarışda qabaqda gedirdi. Sanki, o, yerimir, havada uçurdu. Dərya atı yarışda birinci yeri tutur və padşah vəzirdən çox razı qalır. Ona çoxlu

bəxşiş verir və bu atı haradan aldığını soruşur. Vəzir başına gələn əhvalatı ona nağıl eləyir. Padşah çox təəccüblənir. Yarış qurtarır. Vəzir şəhərdən çıxanda atın üzəngisi onun əlindən çıxır. Üz qoyur gəldiyi yerlə geriyə- dərya səmtinə. Vəzir də onun dalınca.

Dəryanın kənarında hündür sıldırımlı bir dağ var idi. At gəlib həmin dağın başında durur. Nəhayət, vəzir də gəlib çıxır. At dönüb vəzirə baxır. Vəzir ona elə vurulmuşdu ki, gözlərini atdan yayındıra bilmirdi. At da baxışlarıyla sanki vəzirlə vidalaşırdı.

Birdən atın cilovu vəzirin əlindən çıxır. At vəzirdən xeyli aralanır. Gəlib dəryanın lap yaxınlığında dayanır.

Vəzir birdən görür ki, atın başının üstündən qara buludlar var. Buludlar durduğu yerdən sel axmağa başlayır. Vəzir çaş-baş qalır. Sel atı zorla suyun içinə, dəryaya tərəf aparır...

Yazıq vəzir atı öz canından çox sevirdi. Ona özü ağırlıqda pul tökmüşdü. Amma, əlacsız qalır. At göydən onun üstünə gələn sellə bərabər dəryaya batır...

Vəzir elə bil acılı-şirinli bir röyadan ayılır...

Gözləri muncuq kimi göylərdən nur almışdı. Ulduz kimi parlayırdı dəryanın ortasında. Yüyürəndə ağzından alov saçırdı. İldırımtək şığıyırdı dərya atı-röya atı.

***Təranə Qurban qızı***

# *Armudsanayan bəyin nağılı*

Biri vardı, biri yoxdu, bir kənddə kasıb bir nənə vardı. Onun olan-qalanı, dünyada son umudu bircə dənə oğlu vardı. Bu oğlan bütün günü kənddə veyil-veyil gəzərdi. Heç bir işin qulpundan yapışmırdı. Anası öz kiçik daxmasındaca yaşayır, həyətindəki bostanı əkib-becərirdi. Göy-göyərtidən aparıb qonşularda əppəyə dəyişir, ya da elə sıxmadan, cılfırdan yağsız bişriib yeyərdi. Vecsiz oğul bu bostan yerində bir meyvə ağacı belə əkmirdi. Qoca nənəyə rəhmi gələn qonşular hərdən ona meyvə də gətirərdilər. Nənə hərdən oğluna deyərdi:

-Gör nə günə qalmışıq. Rəhmətlik atan heç olmasa, meyvə ağaclarına yaxşı baxardı. Qış azuqəmizi birtəhər tolayardıq. Sən mənə oğul olmadın ey, baş bəlası oldun. İndi kim qızını sənə verəcək? Kimin qapısında elçi daşında oturmağa getsəm, bu cırıq, köhnə-kürüş libasımı görüb elə bilərlər dilənməyə gəlirəm. Uzaq başı, bir tikə çörək verərlər. Gör nə gündəyik ki, bir ağız nübarı meyvəni də bizə qonşular gətirir. Heç bilmirəm sən, cavan, qoluzorlu oğlan bu meyvələri yeyəndə xəcalətindən niyə ölmürsən? Niyə yer yarılmır, yerə girəsən?

Oğlu bu sözləri eşidən kimi tez anasına çığırmağa başlayardı:

-Lazım deyil...Mən ta heç kimdən gələn meyvəni yemərəm. Allahın meşəsinə nə gəlib ki, gedib orda bol meyvədən yeməyəm...Gedib meşədə

özümə ağac nişanlayacam. Elə orda da meyvəmi yeyib gələcəm.

Belə deyib oğlan üz tutdu meşəyə tərəf. Gethaget, gethaget, kənddən xeyli aralıda, bol suyu olan bir çayın qırağında gözəl bir bağ gördü. Burda dünyanın hansı meyvəsindən desən vardı. Ağaclarda qırmızıyanaq alamalar, sulu şöytəlilər, sapsarı hay-valar, əsl mürəbbəlik güyəlilər, can dərmanı göyəmlər adama iştah gətirirdi. Hələ armudlar lap gözəl idi. Oğlan ömründə belə meyvələrdən nə görmüşdü, nə də dadmışdı. Bunlar onun ancaq ac yatanda yuxusuna girərdi, vəssalam. Oğlan belə qərara gəldi ki, hər gün gəlib elə bu meyvədən yeyər, doyar, evə gedəndə yığıb anasına da aparar. Əl atıb bir alma dərdi. Bu tamı, doğrudan da, heç vaxt dadmamışdı. Elə bil cənnət bağı, Gülüstani-İrəm elə bu yerin özü idi ki, onun rastına çıxmışdı. Başladı hər meyvədən bir az dadmağa. Bu minvalla axşam oldu. Ancaq evə gedəndə anasına pay aparmaq fikrindən döndü. Fikirləşdi ki, anam bu haqda qonşulara danışsa hamı bilər, gəlib bağı bircə günə talan edərlər. Sakitcə qayıtdı evlərinə...

Bu hal-qəziyyə düz bir ay çəkdi. Nəhayət, bir gün oğlan başa düşdü ki, bu bağın nazü-nemətlərini dadan təkcə o deyil. Çünki, bağın meyvəsi günü-gündən azalırdı. Oğlan bağı dolanıb bol meyvəli bir armud ağacı tapdı. Onun meyvələrinə deyəsən to-xunulmamışdı. Bir az da bundan yeyib bağda daha kimin olmasını fikirləşə-fikirləşə evlərinə gəldi.

Səhərisi baxdı ki, armud ağacının başında meyvə azalıb. Ağlına gəldi ki, armudları saysın. Ərinməz-yorulmaz çıxıb meyvələri saydı. Düz iyirmi dənəydi. Yenə axşam olunca evə qayıtdı.

Səhəri gün bağa gələndə tez armudları saymağa başladı. On altı dənə armud qalmışdı. Demək kimsə, doğrudan da, armudlara dadanmışdı. Ürəyi durmadı, bu dəfə özü də dördünü yeyib evə qayıtdı. Səhəri yenə armuddan dördü əskik gəldi. Artıq ağacda cəmi səkkiz armud qalmışdı. Oğlan o qədər hirsləndi ki, boğazından heç nə keçmədi. Bir dənə də olsun armud yeyə bilmədi. Tez evə qaçıb böyük bir siçan tələsi gətirib ağacın dibinə qoydu. Özü isə evə qayıtdı. Gecə ilan vuran yatdı, oğlanın yuxusu ərşə çəkildi. Səhəri dirigözlü açıb özünü armud ağacına çatdırdı. Nə görsə yaxşıdı? Şələquyruq bir tülkü tələyə ilişib qalıb. Vurnuxur, vurnuxur, ancaq ayağını çıxara bilmir. Tez yaxınlaşıb tülkünün boynundan yapışdı. Başladı vurmağa. Tülkü insan kimi dil açıb dedi:

-Ay oğlan, məni vurma. Dünyada nə istəyin var yerinə yetirrəm. Azad elə məni.

Oğlan tülkünü döyməyini saxlayıb dedi:

-Sən mənim armudlarımı yemisən, səni buna görə döyürəm.

Tülkü dedi:

-Sənin armudlarını yemişəm? Harda? Mən ki, bu bağdan qırağa çıxmamışam heç. Elə anadan da burda olmuşam, bu bağın meyvəsi ilə böyümüşəm. Dilimə anadan gələndən bir tikə ət dəyməyib, mənim

ulu əcdadlarım da beləcə mer-meyvə ilə dolanıb. Bura bizim nəslin miras bağıdır. Sənin hardan oldu?

Oğlan dedi:

-Mən düz bir aydır ki, bu bağın sahibiyəm. Meyvələrlə dolanıram.

Tülkü şirin dilini işə saldı:

-Məni azad et, səni varlı edəcəm. Kəndxudanın qızını sənə alacam. Üstəlik, bu bağı da sənə həmişəlik verəcəm. Amma, bircə şərtlə. Məni heç vaxt unutmayasan.

Oğlan and-aman elədi:

-Sən dediklərinə əməl et, mən də şərtinə əməl edərəm.

Nəhayət, oğlan uzun danışıqdan sonra tülkünü tələdən azad etdi. Tülkü isə dediyi sözün üstündə durub heç yana qaçmadı. Eşib ağacın dibindən bir qızıl pul çıxartdı. Dedi:

-Bu, mənim dədəmdən qalan puldu. Onu bu ağacın dibində gizlətmişdim. İndi bunu götür, get evinə. Ancaq, bax ha, xərcləmə. Nə də heç kimə göstərmə. Sabah səhər ertə dur, get kəndxudanın evinə. Ondan qızıl çəkməyə tərəzi istə. Başqa nə soruşsalar cavab vermə, tərəzini götür düz bu ağacın dibinə gəl.

Oğlan tülkünün dediyinə əməl etdi. Səhər obaşdan kəndxudanın qapısını kəsdirdi. Ondan qızıl tərəzisini istədi. Kəndxuda gözlərinə inanmadı. Axı, bu kənddə oğlanın necə kasıb, necə veyil olduğunu hamı bilirdi. Bəs bu tərəzi ilə o, nə çəkəcəkdi? Onda

qızıl hardan idi? Yenə də kəndxuda qızıl tərəzisini oğlana verdi. Bərk-bərk tapşırdı ki, axşama qaytarsın.

Oğlan düz armud ağacının dibinə yollandı. Tülkü orda onu gözləyirdi. Tez tərəzini alıb qızıl pulu onun içinə qoydu. Oğlana verdi ki, apar tərəzini qaytar. Oğlan heç nə başa düşmədi. Maddım-maddım tülkünün üzünə baxmağa başladı. Tülkü dedi:

-Bu gündən sənin adın Armudsanayan bəy olacaq. Apar tərəzini ver kəndxudaya, özünə də de ki, qızılımı ölçürdüm. Desə ki, tərəzinin içində qızıl qalıb, özünü elə göstər ki, guya vecinə deyil. Cavab ver ki, ondan mənim xəzinəmdə o qədərdi ki, qoy biri də tərəzi haqqı olsun. Başqa heç nə demə, düz qayıt yanıma gəl.

Oğlan tülkünün bütün dediklərinə əməl etdi. Qayıdanda gördü ki, tülkünün əlində iki dənə gözəl, şahlara layiq libas var. Tülkü dedi:

-Apar, bunun birini anana ver geyinsin, o birini də özün geyin. Anan getsin kəndxudanın qızını sənə alsın. Desin ki, Armudsanayan bəyin anasıyam. Sonrası ilə işin yoxdu.

Oğlan libasları götürüb evə gəldi. Anası paltarı görüb vay-şivənə qalxdı:

-Evim yıxıldı, vay...Veyil gəzməyi bir tərəfə dursun, hələ bir oğurluğa da başlayıb. İndi katda sənin başını kəssə haqq yeridir. Vay...

Oğlan tez anasını sakitləşdirib başına gələnin hamısını bircə-bircə söylədi. Ta bağdan tutmuş, tülkünü tələyə saldığını, kəndxudanın qızını almaq

məsələsinə qədər. Anası axırda sakitləşib elçi getməyə razılaşdı. Həm də belə gözəl paltarda özünü qonum-qonşuya göstərmək istəyirdi. Geyinib yola düşdü. Kəndxuda Armudsanıyan bəy adını eşircək razılaşdı. Axı, o da kələkbaz idi. Düşündü ki, gözünün ağı-qarası bircə qızını verər, sonra da bəyin qızıllarına sahib çıxar. Qoca nənə:

-Başlıq nə qədər olacaq? - deyə soruşanda da kəndxuda özünü tülkülüyə vurdu:

-Heç elə şey olmaz...Mən qızımı Armudsanayan bəyə verirəm, onunla qohum olmaq şərəfdir. Üstəlik, yeddi otaqlı bir imarət, bir bağ, bir sürü qoyun, bir at ilxısı, bir naxır da mal-qara cehiz verirəm. Qaldı nökər-qaravaşa, mənim qulluğumda necə dururlarsa, Armudsanayan bəyin qulluğunda da elə o cür duracaqlar.

Yağlı sözlərlə elçini yola salan kəndxuda həm də tamahından öz malına yağı kəsilənlərdən idi. O düşünürdü ki, toyun bütün xərcini də özü çəkər. Kürəkəninin qızıllarının başının pozulmasına izn verməz. Sonra qızıl pullara bütövlükdə sahib çıxar. Buna görə də, toy xərcinə görə narahat olmamalarını da Armudsanayan bəyin anasına bərk-bərk tapşırdı.

Oğlan kəndxudanın cavabını tülküyə söyləyəndə şələquyruq yenə oğlanın yadına şərtini saldı:

-Bu yaxşılığımı heç vaxt unutmayasan ha...

Oğlan da unutmayacağına möhkəm-möhkəm and içdi. Vaxt gəldi, vədə yetişdi. Kəndxudanın evində toy hazırlığı sona yetdi. Burda da tülkü öz

hiyləsindən qalmadı. Toydan bir gün qabaq qızın atasına xəbər yolladı:

-Bizdə adət belədir ki, gəlin atasının verdiyi imarətə yox, birinci ər evinə gəlməlidir. Həm qoy təzə qohumlar Armudsanayan bəyin imarətinin necə görkəmli, özünün necə qonaqpərvər olduğunu görsünlər.

Qoca nənə və oğlu bu işə məəttəl qalmışdılar. Axı, onların komasına heç itə təpinsən də girməzdi. Amma, tülkü bic-bic gülümsünüb bu işi də yoluna qoyacağını söylədi.

Toy günü gəlib çatdı. Qazanlar asıldı, erkəklər kəsildi, bir vur-çatlasın toy başladı ki, kənddə hələ belə büsat heç kim görməmişdi. Yeddi gün, yeddi gecə Armudsanayan bəylə kənxudanın qızına toy çalındı. Yeyənlər yedi, içənlər içdi, oynadılar, güldülər, nağaranın, sazın, zurnanın səsindən toy çadırı uğuldadı. Danışırdılar ki, bu toyun səsi neçə dağ o tərəfdə yaylağa çıxan tərəkəmələrə də gedib çatıb.

Toyun yeddinci gününün axşamı gəlinin cehizi atlara, arabalara yükləndi. Gəlinlə bəyə ayrıca kəcavələr quruldu. Yol başlandı kəndin o tərəfindən bu tərəfinə. Elə bir az getmişdilər ki, uzaqdan tüstü-duman gördülər. Elə bil kəndin bir tərəfi od tutub yanırdı. Kəndxuda təlaşlanıb toy karvanını dayandırdı. Bir də gördü ki, yaşlı bir kişi qaçaraq gəlir. Tövşüyə-tövşüyə gələn nökər bəyin kəcavəsinə yaxınlaşıb sevincək dedi:

- Bəyim, adətimizə uyğun olaraq gəlinin gəlişi səbəbinə qapıdakı ot tayalarına od vurdum. Gəlinin

atası nəmərimi versin.

Kəndxuda camaatın içində bir söz deməsə də artıq dişi bağırsağını kəsirdi. Çünki, toy başlayandan bizdə adət belədir deyib bütün nəməri ondan almışdılar. Yenə də qızın atası əlini cibinə atıb 5-10 şahı çıxarıb nökərə verdi. Karvan yerindən tərpəndi. Bir az getmişdilər ki, bu dəfə də ayrı bir nökər qaçaraq gəldi. Ancaq o heç sevinənə oxşamırdı. Yaxınlaşıb bağıra-bağıra dedi:

- Dayanın! Dayanın! Bəyimizin imarəti yandı. Ot tayasına od vuran nökərlər onun yanındakı üzüm çardağını da, odun talvarını da, pəyəni də yandırıblar. Pəyənin damından da alov imarəti bürüyüb. Əvvəl birinci qat, sonra ikinci qat, sonra üçüncü qat, sonra dördüncü qat... Elə hamısı da yandı, kül oldu. İndi bizim bəyimizin yanında üzümüz qaradır. Onun heç nəyi qalmadı.

Armudsanayan bəy başa düşdü ki, bunlar tülkünün işləridir. Bu qoca kişini də, cavanı da tülkü öyrədib. Özü də yanan onların kiçik daxması, bir də anasının çəpərlərdən yığdığı çır-çırpı topası, kərmə qalağıdır.

Toy karvanındakı camaatın arasına elə qığıltı düşdü ki, ağız deyəni qulaq eşitmədi. Kimisi kəndxudanı tanımadığı adama qız verdiyinə görə qınayır, kimisi də cavanlara ürək ağrısı ilə az qala ağı deyirdi. Bəyin anası isə özünə əməlli-başlı əl qatmışdı:

Toyu vay olan balam vay...
Evi dağılan balam vay...

Kəndxudanın dərdi isə başqa idi. Bilmirdi kimdən soruşsun ki, bəs qızıllar necə oldu? Armudsanayan bəy təmkinini pozmadan camaatı sakitləşdirdi:

- Eybi yox, mən nökərlərimə buna görə cəza verməərəm. Təzə imarətim tikilənə qədər qaynatamın verdiyi imarətdə yaşayırıq.

Toy karvanının ağzını döndərib kəndxudanın verdiyi 7 otaqlı imarətə sürdülər. Toy orda davam etdi. Gəlini ora yerləşdirdilər. Armudsanayan bəy bu minvalla bir müddət xoşbəxt yaşadı. Kəndxuda arabir qızıllardan söhbət salanda deyirdi:

- İmarətimin yanan yerində bir gün eşib xəzinəni taparıq. Onsuz da hələ ehtiyacımız yoxdur.

Deyirlər xoş gün adamın gözünü elə tutur ki, özündən qeyri bu aləmdə heç nəyi görmür. Hətta, başqa bədbəxtləri də. Armudsanayan da belə olmuşdu. Heç tülküsünü də yada salmırdı. Hərdən bir tülkü özü onun qarşısına çıxır, salam-kəlam edirdi.

Bir gün də tülkü onu yoxlamaq qərarına gəldi. Gəlib onların həyətində uzandı, özünü ölülüyə vurdu. Nökərlər hay saldı ki, burda bir tülkü ölüb. Bu vaxt Armudsanayan bəy əyalı ilə birgə şirin söhbətdəydi. Nökərlərə səsləndi ki, ölüb-ölüb, qıçından tutub sürüyün, atın dərəyə. Nə hay salırsınız?

Tülkü bunu eşidən kimi ayağa durub dedi:

-Ey, Armudsanayan bəy. Mən şərtimə əməl etdim. Səni varlı etdim, kəndxudanın qızını sənə aldım. Sənə də bircə şərt qoydum. Məni heç vaxt unut-

ma. Amma, insan çiy süd əmib. Ondan vəfa, etibar gözləmək olmaz. O, yeri gələndə dədəsini də danır. Məni də yaddan çıxarar. Mən heyvanlığımla, tülküyümlə əhdə vəfa elədim, amma sən yox. Yadından saydığın armudlar da çıxıb, mən də. Halbuki, bir vaxtlar sən o sayılı armuda möhtac idin. Bu dünyada insan oğluna etibar olmayıb, olmayacaq da...

Bunu deyib tülkü üz tutdu meşəyə tərəf. Armudsanayan bəy ha çağırsa da geri dönmədi. Və bir daha nə o kənddə, nə də kəndin ətrafında görünmədi.

Hə, nağılı eşidənlər, bu dünyada təbiətə, gülə, çiçəyə etibar var ki, onlar yazda yenə açır. Amma, insan oğluna etibar yoxdu. Arxanı heç kimə söykəmə...

Göydən üç alma düşdü. Biri mənim, biri əmim qızının, birini də siz bölüşdürün, dədə malı kimi...

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən Güldərən Vəli qızı***

# *Bəxtimi axtarıram*

Bir nəfər öz bəxtindən gileylənir və qərara gəlir ki, bəxtini axtarsın. Elə də eyləyir, heybəsinə yol azuqəsi doldurub yoluna davam edir. Az gedir, çox gedir, bir meşənin kənarına çatır, səs eşidir və səs gələn tərəfə baxır. Görür ki, bir canavar ulayır. Bu adam canavardan soruşur:

- Sənə nə olub, niyə ulayırsan?

Rəvayətə görə, canavar dilə gəlib deyir:

-Ey bəni-insan, başımın ağrısı kəsmir. Gecə-gündüz ağrıyır və bütün günü belə zulumla keçirirəm. Ey bəni-insan, bəs sən hara gedirsən?

-Mən də bəxtimdən şikayətçiyəm, onu axtarmağa gedirəm.

Canavar deyir:

-Ey bəni-insan, səndən xahiş edirəm, öz bəxtini tapsan ona de ki, meşədə bir canavar var, başının ağrısından gecə-gündüz yatmır, hey ulayır.

O, canavara söz verib deyir:

- Mütləq sənin dərdini deyərəm və cavabını olduğu kimi sənə çatdıraram.

Bunu deyib canavarla xudahafizləşir və yoluna davam edir. Az gedir, çox gedir, gəlib bir bulağın yanına çatır. Bulağın suyunda əl-üzünü yuyur, doyunca su içir və dincəlir. Birdən gözü bulağın ortasındakı inkişaf etməmiş bir söyüd ağacına sataşır. Öz-özünə fikirləşir:

- Bu ağacın dibindən su axır, bəs bu ağac niyə qol-

budaq atmır?

Söyüd ağacı dilə gəlib soruşur:

-Sən kimsən və hardan gəlib, hara gedirsən?

-Mən bəxtimi axtarıram və bəxtimi tapmayınca geri dönən deyiləm- deyə insan cavab verir.

Ağac deyir:

- Mən də səndən xahiş edirəm ki, mənim də dərdimi ona danışın.

Həmin insan ağaca da söz verib yoluna davam edir. Az gedir, çox gedir, başqa bir ölkənin torpağına çatır. Həmin vaxt şah öz vəziri, vəkili və adamları ilə səyahətə çıxıbmış. Şahın fərraşları nabələd adamı görür və şahın hüzuruna gətirirlər. Şah onu sorğu-suala tutub soruşur:

-Sən kimsən, hardan gəlib, hara gedirsən?

Həmin insan deyir:

-Şah sağ olsun, mən öz bəxtimi axtarmağa gedirəm.

Şah deyir:

-Sən gecə-gündüz yol gəlib yorulmusan, bir az istirahət elə, sonra yoluna davam edərsən.

Kişi razılaşır. Şah adamlarına əmr edir ki, hazırlaşın, geri qayıdırıq. Kişini də götürüb saraya qayıdırlar. Həmin adam istirahət edir, sonra onu şahın hüzuruna aparırlar. Şah onunla tək söhbət etmək istədiyini bildirib adamlarına otaqdan çıxmağı əmr edir. Sonra şah üzünü tutub kişiyə deyir:

- Sən öz bəxtini tapanda ona de ki, uzaq ölkədə bir şah var, onun ürəyi gündə üç dəfə elə döyünür ki, az

qala yerindən çıxa. Ölkədə elə həkim, loğman qalmayıb ki, ona baxmasın. Amma, dərdinə əlac tapılmayıb.

Həmin adam şaha da söz verir:

- Sənin də dərdini ona çatdıraram və olduğu kimi gəlib deyərəm.

Şah əmr edir ki, onun heybəsinə yol azuqəsi doldurub yola salsınlar. Həmin adam şaha çox təşəkkür edib yoluna davam edir. Az gedir, çox gedir gəlib bir səhraya çatır. Görür ki, bir nəfər hansısa işlə məşğuldu. Soruşur:

-Sən burada nə işlə məşğulsan?

-Mən adamların bəxtiyəm və onlara kömək edirəm. Bəxtini axtaran adam deyir:

-Əgər sən insanların bəxtisənsə, onda mənim suallarıma cavab ver.

Kişi şahın əhvalatını ona danışır. O da deyir:

- Həmin şah qızdır, ərə getsə, dərdi ötüb keçəcək.

Kişi söyüd ağacının dərdini də ona danışdı. O da cavab verdi:

-Ağacın dibində zəncirə bağlanmış yeddi küpə qızıl var. Ağac zəncirin halqasının ortasından çıxıb, ona görə də inkişaf etmir. Zənciri qırıb küpələri çıxartsan, ağac inkişaf edər.

Sonra kişi canavarın xahişini də ona çatdırdı. O da dedi:

-Əgər canavar axmaq adamın başını yesə, başının ağrısı ötüb keçər.

O adam bu sözləri deyib qeybə çıxır. Kişi nə qədər

axtarsa da, onu tapa bilmir. Naəlac qalıb şahın yanına geri dönür. Şaha xəbər verirlər ki, kişi gəlib. Şah deyir:

-Onu mənim hüzuruma gətirin.

Sonra şah adamlarına onları tək qoymalarını əmr edir. Onlar söhbət etməyə başlayırlar. Adam əhvalatı şaha olduğu kimi danışır. Şah həmin adama deyir:

- Bu sirri səndən başqa heç kim bilmir. Gəl mənimlə evlən, ölkəmdə şahlıq elə.

Kişi razılaşmır, “mən bəxtimi tapmalıyam”-deyir. Şahla xudahafizləşib yoluna davam edir. Az gedir, çox gedir, gəlib söyüd ağacının yanına çatır, salamlaşır. Söyüd ağacı deyir:

- Mənim dərdimi soruşdun?

Adam əhvalatı olduğu kimi ağaca danışdı. Ağac dedi:

-Gəl, mənim zəncirlərimi qır, küpələri çıxar, dünyada ən varlı adam ol, mən də bəladan azad olum, inkişaf edim.

Kişi dedi:

- Mən hələ bəxtimi axtaracam.

Sonra söyüdlə də xudahafizləşib yoluna davam etdi. Az getdi, çox getdi, gəlib meşədəki canavarın yanına çatdı. Canavar oğlanı görüb çox sevindi və soruşdu:

- Bəxtin sənə nə dedi?

Kişi cavab verdi:

- Bəxt dedi ki, ona bir axmaq başı lazımdı, onu yesin.

Canavar bu sözləri eşidib çox sevindi və kişiyə dedi:

- Heç bilmirəm sənə necə minnətdarlıq edim, yaxına gəl doyunca başından öpüm.

Kişi yaxına gəldi, başını canavarın ağzına tərəf uzatdı. Canavar həmin dəqiqə onun başını yedi.

Atalar düzgün deyib: "Axmaq adamın başı qurd ağzında olar".

# *Qırmızı don*

Deyirlər, o zamanlar belə deyilmiş. O vaxtlar məleykələr, pərilər insanlardan qaçmazmış. Bəni-adəmlərlə bir yerdə oynayar, gülər, danışarmışlar. Hərdənbir insanlara sehrli hədiyyələr də edərmişlər. Bir gün də belə olur. Məleykələr şahının qızı bir kəndə gəlib ordakı qızlarla bulaq başında oynayır. Gedəndə də yadından çıxıb qırmızı donunu bulaq başında qoyub gedir. Qızlar donu götürüb kəndə gəlirlər. Başlayırlar bir-bir geyinməyə. Kim geyinirsə, donun düymələri bağlanmır. Təkcə çobanın qızına don yaraşır. Beləcə, don bu qızda qalır. Özü də söyləyirlər ki, qız bu donda əsl məleykələrə, pərilərə oxşayırmış. Bu qız əmisi oğluna nişanlıymış. O zamanlar həm də belə ədət boluymuş. Qızdarı yadlara verməsinlər deyə anadan olan kimi əmisi oğluna,

dayısı oğluna deyikliyərmişlər. Bunu da belə. Nəysə, bu qızın gözəlliyi, qırmızı donun sehri tez yayılır, çox dağ aşır, elləri, obaları dolaşır. Xəbər gedib divlər padşahının diyarına da çatır. Divlər padşahının qızı əyağını dirəyir ki, gərək o don mənim olsun. Öz qulluqçularını göndərir donun dalınca. Həmin vaxt çobanın qızı da donunu geyinib toya gedirmiş. Ta divin qulluqçuları qızın özünü oğurruyası olurlar. Qızı aparırlar. Orda da divin qızı donu əyninə ha geyinir, olmur. Donun düymələri bağlanmır ki, bağlanmır. Əlacsız qalan div çoban qızına deyir:

- Donu elə sən geyin, amma gözümün önündən getmə, bu dondaca mənə qulluq elə. Çünki, bu don səndən ayrısına yaraşmır ki, yaraşmır.

Qız burda qalmağında olsun, sizə deyim qızın nişanlısından. Kənddə söz yayılır ki, bu necə oğlandı, nişanlısını oğurrasınlar, bu da sakitcə durub baxsın. Oğlanın da qeyrəti götürmür. Durub yol alır divlər diyarına. Nə qədər vaxt keçir, bilmirəm, oğlan gəlib çatır lazım olan yerə. Divin qızına xəbər çatır ki, bəs deməzsənmi, bir oğlan gəlib, darvazanın ağzında durub qan-qan deyir. Deyir, ya nişanlımı verin, ya da bu saat dunyanızı qana boyayaram. Divin qızı əmr verir ki, oğlanı hüzuruma gətirin. Gətirirlər. Divin qızı dedi:

-Oğlan, görürəm igidsən. Canından qorxmayıb durub ordan bura gəlmisən. Əgər eşqin budusa, sana zaval yoxdu. Nişanlını verirəm, apar. Amma, bircə şərtlə. Get, dəryadan balıqlar şahının mirvari təsbehini

mənə gətir.

Oğlan burdan yol aldı, düz dəryanın kənarına gəldi. Hirsindən onu ağlamaq tutdu. Hönkürtüsündən dalğalar şahə qalxdı. Balıqlar şahı suyun üzündə göründü. Oğlanın qəmli halını gördü, ona yazığı gəlib soruşdu:

-Bu nə haldı, igid? Nolub?

-Mənə sənin mirvari təsbehin lazımdı.

-Oğlan, yoxsa başın bədəninə ağırlıq edir? Səni bu işə km göndərib?

-Ey balıqlar şahı, məni bu işə divlər padşahının qızı göndərib. Nişanlım onun yanındadır. Aparsam verəcək. Aparmasam, yox.

Balıqlar şahı baxdı ki, bu bir əməli-saleh oğlandı. Özünü də ki, eşq alovu, yar qeyrəti yandırır. Rəhmi gəldi, tez dənizin dibinə cumub ona bir ovuc mirvari gətirib, dedi:

-Apar, bunu sapa düz, ver div qıza.

Oğlan mirvariləri sapa düzdü. Gətirdi div qıza. Div qız da elə-belə döyüldü ha. O saat bildi ki, bu qondarmadı. Dedi:

-Oğlan, deyəsən o təsbehin sirrini sənə açmasam, hələ çox aldanassan. O təsbehin sapı dəniz yosununnandı. Hər dənəsinə neçə minlik qoşun tabedi. Ona görə, onu istəyirəm. Get, onu gətir.

Oğlan yenə dəryanın qırağına qayıtdı. Bu dəfə lap bərkdən nərə çəkib hönkürdü. Balıqlar şahı yenə göründü. Oğlan divin sözlərini olduğu kimi ona çatdırdı. Balıqlar şahı dedi:

-Yenə qorxmayıb gəlmisənsə eşit və agah ol. O təsbehi mənim ulu babam divlərə ənam verib. Ancaq, həmin qız uşaq vaxtı əlində oynadıb dəryaya salıb. Bu onların halal malıdı. Mən vermədim ki, görüm onun sirrini biləcəklərmi. Biliblərsə, deməli verməliyəm. Bu dəfə şah oğlana əsl təsbehi verdi. O da qayıdıb div qıza təsbehi təslim elədi. Div tez o biri otaqdan çoban qızını çağırdı. Ona dedi:

- Gəl, nişanlın dalınca gəlib.

Qız sevincək oldu. Qapıdan çıxanda div qız onları saxlayıb dedi:

-Siz o qırmızı donu məleykələr şahzadəsinə qaytarın.

Özü də onlara çoxlu ləl-cəvahirət verdi. Oğlanla qız öz evlərinə döndülər. Qırmızı donu məleykələrə qaytarıb halallaşdılar və şad-xürrəm yaşadılar.

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən olan Zəhra Baratəli qızı***

# Əmrahın nağılı

Nağıllar biri var, biri yoxnan başlayır. Bir də həmişə Məmmədnəsir tinində deyirlər. Bax, o Məmmədnəsir kişinin zamanında bir Əmrah adında cavan oğlan vardı. Atan-tutan adam idi. Hamı onun qoçaqlığından danışardı. O da çox adamı saymırdı. Yetənə yetir, yetmədiyinə də bir daş atırdı. Bir gün Əmrah yenə öz tay-tuşlarınnan aşıq-aşıq oynayırdı. Yer-yurd toza bürünmüşdü. Yoldaşlarından biri dedi:

-Ay Əmrah, bu yola su çilə, toz qalxmasın.

Əmrah da o yan-bu yana baxdı, gördü bir qarı səhənglə su aparır. Tez aşığın birini alıb səhəngi nişannadı. Bir atmaqla səhəngi qırdı. Səhəngin suyu yola çiləndi. Qarı dönüb dedi:

-Səni görüm Hindistan padşahının kələkbaz qızına aşiq olasan, onun tələsinnən çıxammayasan.

Bu sözdən Əmrah bərk tutuldu. Yoldaşlarından aralanıb evə gəldi. Üzüqoylu yıxılıb qaldı. Üç gün, üç gecə özünə gələmmədi. Üç gündən sonra yerindən qalxıb anasına tapşırdı ki, ona yol azuqəsi hazırlasın. Anası soruşur ki, bala, hara gedirsən? Cavab verir ki, bir qarğışa tutulmuşam, onun dalınca. Anası yalvarır-yaxarır ki, oğul, getmə, bə məni kimə umuduna qoyub gedirsən, Əmrah fikrindən dönmür ki, dönmür. Halallaşıb, sağollaşıb evdən çıxır, üz qoyur Hindistana tərəf.

Uzun qəziyyədi, yoldan danışmayaq, qərəz, Əmrah gəlib mənzil başına yetişir. Baxır ki, Hindistan

padşahının sarayının elçi daşında yekə bir almaz, yanında da bir daş var. Ancaq heç kim ona yaxın getmir. Şaha işi düşən, halını ərz eləmək istəyənlər elə bükülüb daşın dibindəcə oturur, keşikçilər də onları içəri aparırlar. Əmrah eləməyib tənbəllik, gəlib daşı əlinə götürür, almazı xıncım-xıncım edir, daşın üstünü süpürüb oturur. Bir də görür ki, eşikağası özünü yetirdi. Qolundan tutub içəri apardı. Baxıb görür nə? Hindistan şahının libasına bir daşlarla bəzək vurulub ki, bunun eşikdə əzdiyi almaz bunların yanında heç nəymiş. Bu daşlar olsa-olsa Əmrahın uşaq vaxtı nağıllarda eşitdiklərindən ola bilərdi. Hələ padşahın başındakı tacı... Əmrah bilmədi əlini necə tutsun ki, gözləri qamaşmasın. Birdən padşah dilləndi:

-Qərib, hardan gəlirsən?

Əmrah dedi:

-Şah sağolsun, qərib olduğumu nədən bildin?

-Mənim elçi daşımı təmizləyib oturmağından. Mənim ölkəmdə heç kimin buna cürəti çatmaz. O daşın üstündəki almaz mənim qızımındı. Onu əzmək qızıma elçi düşmək deməkdi.

Əmrah cavab verdi:

-Mən elə qızınızı deyib öz diyarımdan bura gəlmişəm. Ona elçi düşürəm.

Padşah gülüb dedi:

-Çox özünü öyürsən. Neynək, biz də şərtimizi deyərik.

Sonra da vəzir-vəkilə əmr elədi ki, qonağı yaxşıca ağırrasınlar. Sabah bu vaxtı hüzuruna gətirsinlər.

Əmrah o gecə hind padşahın sarayında yaxşıca yedi-içdi, şahlara layiq libaslar geyindi, pərqu yastıqda, ipək yorğan-döşəkdə yatdı. Səhərisi gün onu padşahın yanına apardılar. Padşah soruşdu:

-Hə, qərib, qonaqpərvərliyimizdən razı qaldınmı?

Əmrah dedi:

-Allah sizi hökmünüzdən əskik eləməsin, çox razı qaldım.

-Hə, indi elçiliyin şərtini deyək. Mənim ağıllı bir dəlləyim var. O səni sınayacaq. Bu sınaqlardan çıxdın, qız sənindi. Çıxammadın, başın vurulacaq.

Əmrah razılaşdı. Dəlləyi çağırdılar. Əmrah baxdı ki, bu ahıl, bəstəboy, dolu bir adamdı. Amma, gözlərindən biclik yağır. Bəbəkləri civir-civir oynayır. Bildi ki, işi asan olmayacaq. Yenə "Allaha təvəkkül" deyib gözlədi. Dəllək dinməz-söyləməz yerdə ortaya bir quş yumurtası qoydu. Əmrah bu yumurtanı götürüb palazla üstünü bərk-bərk basırdı. Dəllək bu dəfə əlini qarnına sürtdü. Əmrah yerdə altı xətt çəkdi, üçünü dəllək tərəfdə, üçünü də öz tərəfində. Dəllək bu dəfə gülümsədi. Əmrah da ağlamsındı. Dəllək yerdə yekə bir dairə çəkdi. Ortadan böldü. Əmrah başını bulaya-bulaya dairəni dörd yerə böldü, üç tərəfində əlini buladı, birində isə əlini yastıladı. Dəllək razılıqla başını tərpətdi. Hamı bu işə məəttəl qaldı. Şah soruşdu:

-Hə, dəllək, izah elə görüm nə dedin, o nə cavab verdi?

Dəllək cır səslə dedi:

-Şah sağ olsun. Əvvəlcə soruşdum ki, yumurta necə quş olur? Cavab verdi ki, gərək quş üstündə yata, yaymalaya, yeri də isti ola. Sonra dedim, insan neçə aylıqda ana bətnində insana oxşayır? Dedi ki, altı ayında. Dedim, gülə-gülə gəlir? Tez cavab verdi ki, yox, ağlaya-ağlaya. Sonra dedim, yer kürəsinin yarısı sudur? Bunu da bildi. Üç qismi su, bir qismi torpaqdı dedi.

Şah dəlləyin ənamını verib yola saldı. Hamıya ziyafət verdi, dedi ki, toya hazırlaşın. Qızımı Əmraha verirəm. Padşahın bir cavan, amma, çoxbilmiş vəziri vardı. Sən demə, onun da nə vaxtdan padşah qızında gözü varmış. Ancaq deməyə qorxurmuş. Əlacı kəsilən vəzir Əmrahı yannadı, ona qulluq göstərdi. Əmrah da elə bildi ki, vəzir onu çox istəyir. Axı, ürəyitəmiz idi. Vəzir də fürsəti fövtə vermədi. Əmrahdan suallara necə cavab tapdığını soruşdu. Əmrah dedi:

-Nə var ki...Dəlləyiniz soruşdu ki, bir yumurtaynan doyarsanmı? Dedim, ə, yekə kişisən, apar bunu qoy quşun altına, bala çıxartsın, balası yekəlsin, onu kəsib yesəm dişimdə bir şey qalar. Sonra dedi ki, bəs qarnın neçəsinnən doyar? Dedim tək yemərəm. Altısını gətir, üçünü sən, üçünü mən. Dedi, ac adam gülərmi? Dedim dəli olmuşam, nədi? Ağlamayana pəpə yoxdu. Soruşdu ki, gəlsənə padşah qızının cehizini yarı bölək? Dedim, üç pay mənimdi. Qızı mən alıram. Yaxşı qulluq göstərsən, bir pay da sənə verərəm.

Vəzir başa düşdü ki, Əmrahı nə vaxtsa aldada bilər. O da fəhmli çoxbilmişiydi axı. Başladı plan tökməyə ki, Əmrahı neynəsin. Bu yandan da padşah qırx gün, qırx gecə toy çaldırıb qızını Əmraha verdi.

Bir müddət Əmrah şah qızı ilə sarayda xoşbəxt yaşadı. Qarının dediyi "kələkbaz" sözünü də çoxdan yadınnan çıxartdı. Amma, qız yerində sakit durammazdı axı. Öyrənmişə nə tova? Ədət elədi bir kərə, çətin əl çəkə. Başladı yenə xəlvətcə cavan vəzirnən görüşməyə. Bir gün vəzir dedi ki, padşah Əmrahı yaman çox istəyir, hər işində onunla məsləhətləşir. Gəl, elə eləyək ki, Əmrah gedər-gəlməzə getsin, biz də ta orda-burda gizlində görüşməyək. Əmrah qayıtmasa onsuz da səni mən alaram. Qızın da bu, ağlına batdı. Oturub gecə-gündüz Əmrahı hara göndərməyin fikrini elədi. Axırda tapdı. Bir gün Əmraha dedi:

-Sən mənə öz istəyini sübut eləməmisən. Dur get, dəryanın dibindəki sehrli bağdan mənə ləl gülünü gətir. Gətirsən, bilərəm ki, məni istəyirsən, gətirməsən, demək elə dədəmin malını-pulunu istəyirsən.

Əmrah qızı o qədər istəyirdi ki, əlacsiz razılaşdı. Amma, padşahın qoca vəziriynən məsləhətləşmədən yola çıxmaq istəmədi. Qoca vəzir onu dərindən dinləyib dedi:

-Səni ölümə göndərirlər, xəbərin yoxdu. Getmək fikrindən daşın.

Əmrah qərarında qəti olduğunu söylədi. Axırda çar-naçar qoca vəzir bildiyini söylədi:

-Bala, o gül balıqlar şahının qızının bağındadı.

O bağı gözəgörünməz tilsimkarlar qoruyur. Heç vədə sən o bağa ayaq basammazsan. Bunun bircə yolu var. Gərək gedib dəryanın günbatan tərəfində tor qurasan. Axşamlar, günəş qüruba enəndə sular qızarır. Onda o qız öz balıq donunu soyunub qayaların üstündə günəşə tamaşa edir. Yanında da onun balaca bacı-qardaşları gəlir. Əgər qıza yaxınlaşsan səni bir ovsunlaca yerində qara kösöyə döndərər. Ona görə də Allahını çağır, onun bacı-qardaşlarından biri sənin toruna düşsün. Onda qız sənə yalvaracaq ki, onu azad elə. Amma, nəbadə onun gözəlliyinə, şirin dilinə aldanasan. Deyərsən, dədəsinin canına and içsin, sonra buraxarsan. İstəyini də deyərsən. Gör nə deyir. Ancaq, bax ha, o sənə yaxınlaşsa da ona toxunma.

Əmrah məsləhətlərini alıb durub yol başladı günbatana. Burda tor qurub gözlədi. Elə ki, sular qızılı rəngə boyandı, bir də gördü, budu ha, balıqlar şahının qızı sudan çıxdı. Balıq donunu soyundu, oldu bir gözəl qız. Gözəl də dedin, qoydunmu? Xətti-xalına, gül camalına baxan doymaz, ahıl cavannaşar, cavan eşqinnən dağlar aşar. Burda buna baxdı, baxdı, dünyanı unutdu. Elə ki, günün batmağına az qaldı, elə bil birdən ayıldı. Tez torunu atıb gözləməyə başladı. Az keçmədi iki balaca balıq tora düşdü. Bunlar elə gözəl balıqlar idi ki, pulcuqları yetmiş yeddi rəngə çalırdı. Əmrah sevincək toru çəkdi. Elə bu an qız məlahətli səslə yalvarmağa başladı ki, onun kiçik bacılarını buraxsın. Əmrah da inad elədi. Elə ki, qız dədəsinin canına and içdi, tez balıqları buraxdı, qıza

yaxınaşdı. Ondan ləl gülünü istədi. Qız dəryaya cumub gülü gətirdi. Özü də tamam sudan çıxıb Əmrahın yanına gəldi. Qoca vəzirin dediyi Əmrahın yadındamı qalardı ta? Səhər açılanda Əmrah gülü götürüb evə yollanmaq istədi. Bir də gördü qız da onunla gedir. Soruşdu ki, sən hara? Qız da dedi ki, daha mənə bəni-adəm əli dəyib, dəryaya necə qayıdım? Səninlə gedirəm. Əmrah bir yandan sevindi ki, belə bir gözəl onunla gedir, bir yandan da fikrə batdı ki, hind qızına nə deyəcək. Nəhayət, qızı da götürüb saraya gəldi. Qapıya çatanda qapını açıq gördü. İçəri girdi, nə görsə yaxşıdı? Hind qızı cavan vəzirlə bir kef-damaqdadır ki, gəl görəsən. Rəqqasələr oynayır, dumbullar çalınır, süfrəyə min nazü-nemət düzülüb, hind qızı da vəzirin qucağında oturub. Tez qılıncını sıyırdı, nərə çəkib irəli cumdu. Bir həmlə ilə vəziri cəhənnəmə göndərdi. Bu dəm kələkbaz qız arxadan onu vurmaq istəyəndə sular pərisi ayağının altındakı xalçanı çəkdi. Hind qızı yıxıldı, Əmrah onu da öldürdü. Sular pərisini burda qoyub düz şahın yanına getdi. Ona əhvalatı olduğu kimi danışdı. Qoca vəzir də onun dediklərini təsdiqlədi. Padşah qızının kələkbazlığını, ölümünü eşidib yerindəcə ürəyi partladı, öldü. Əmrah ağıllı, ədalətli qoca vəziri onun yerində şah qoyub sular pərisini də götürüb öz ölkəsinə yola düşdü. Yol uzundu axı, bunlar evə çatana kimi yolda iki ekiz oğlanları da oldu, ay parçası kimi. Əmrah evlərinə gələndə gördü anası o qədər ağlayıb ki, ağlamaqdan gözlərinə tor gəlib. Ləl

gülünü onun gözlərinə sürtən kimi əvvəlkindən də yaxşı gördü. Burda Əmrah yenə şadyanalıq etdi. Hamısı da xoş gün gördülər, uzun ömür sürdülər.

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən olan Zəhra Baratəli qızı***

# *Kəndli və dəvə*

Biri vardı, biri yox idi. Bir kənddə iki yaxın dost vardı. Onlardan birinin bir dəvəsi, o biri dostunun isə uzunqulağı vardı. Uzunqulağı olan dost hər gün meşəyə gedər, odun gətirib bazarda satar, külfətini çətinliklə dolandırırdı. Bir gün dəvəsi olan dost uzaq səfərə çıxmalı olur. Dostunun yanına gəlib deyir:

-Ay dost, mən uzaq səfərə çıxmalıyam. Dəvəmi isə yalnız sənə etibar edirəm. Onun altı aylıq yemini qoyub gedirəm. Hər gün vaxtlı-vaxtında yemini, suyunu verərsən. Çalış ki, dəvə arıqlamasın.

O, dostuna tapşırığını verib xudahafizləşdi. Qonşu isə adəti üzrə meşəyə oduna gedəndə dəvəni də aparır. Ancaq, onu uzunqulağın quyruğuna bağlayırdı. Odunu uzunqulağa yükləyir, dəvənin noxtasını da onun quyruğuna keçirib bazara üz tuturdu. Alverini edib evinə dönürdü. Altı ay, dəvənin sahibi gələnə qədər bu hal-qəziyyə davam edir. Vaxt gəlir, vədə

keçir, dəvə yiyəsi səfərdən qayıdır. Dostu ilə səmimi görüşüb hal-əhval tutur. Sonra da dəvəsinin yanına gəlir, onu aparmaq istəyir. Görür ki, dəvə çox arıqlayıb. Qonşusundan soruşur:

-Ay dost, bəs mən dəvəmi sənə etibar etdim. Niyə bunun yemini, suyunu kəm etmisən ki, dəvə belə arıqlayıb?

Dostu and-aman edir ki, dəvənin yemini vaxtlı-vaxtında vermişəm, ona bircə odun parçası da yükləməmişəm. Dəvə sahibi inanmır. İnad eləyir ki, mənim dəvəmi sən arıqlatmısan. Ya yemini verməmisən, ya da işlətmisən. Dostu üzünü Allaha tutub yalvarır:

-Ay Allah, bu dəvəyə dil ver, qoy nahaq haqqı üstələməsin, bizim də aramıza nifaq düşməsin.

Allahdan vəhy gəlir, dəvə insan kimi dil açıb danışır:

-Ey mənim sahibim. Bu kişi, doğrudan da, məni nə işlətmədi, nə də ac saxlamadı. Ancaq noxtamı uzunqulağın quyruğuna bağladı. Bu dərd də məni üzdü. Ona görə də, bu kökə düşdüm.

# *Küllücə*

Biri vardı, biri yoxdu, bir şəhərdə qoca bir odunçu yaşayırdı. Bu odunçunun övladı olmadığından günlərini qarısı ilə lağlağı edərək yola verirdi. Bir gün odunçu meşəyə gedəndə baxır ki, ağacın koğuşunda bir uşaq var. Onu götürüb evlərinə gətirir. Evdə qarısı baxıb görür ki, uşağın qolunda bazubənd var. Özü də qızıldandı. Açıb o üzünə-bu üzünə baxır, görür nəsə yazılıb, ancaq oxuya bilmir. O vaxtın qarılarının çoxu savadsızıydı, əlif-beyi qanmırdılar. Onlarınkı elə o idi ki, orda-burda lağlağı eliyib danışsınlar. Buna görə də, qarı bazubəndi tez aparıb gizlətdi. Odunçuyla arvadı uşağa öz uşaqları kimi baxdılar. Ancaq, uşaq bütün günü küllükdə eşələnirdi. Elə olurdu ki, təkcə gözləri, bir də dişləriküldə ağarırdı. Qonşular bir yana dursun, odunçuyla qarısı da onu Küllücə deyə çağırardılar. Gün keçir, ay dolanır, Küllücə günbəgün, saatbasaat boy atır, yekəlirdi.

Bir gün odunçu dedi ki, ay bala day qocalmışam, gedək odun gətirməkdə sən də mənə kömək elə. Heç olmasa, çörək pulumuzu çıxaraq. Küllücə razılaşdı. Durub atasıyla meşəyə getdi. Axı, o elə bilirdi ki, bu qoca ilə qarının övladıdır. Başladılar odun yığmağa. Odunçu baxdı ki, Küllücə yaman yekə şələ tutub. Dedi:

-Ay bala, sən onu götürəmməzsən, bir az böl, burda qoy. Belini qırarsan, məni də, cijini də yazıq edərsən.

Küllücə ona cavab verməyib şələni belinə qaldırdı. Elə bir dəfə “hop” eləyib yol başladı. Yüyrək evə çatdırıb atasının qabağına da getdi. Onun da şələsini evə gətirdi. Odunçu onda olan bu gücə heyran qaldı. Küllücə, doğrudan da, əsl pəhləvan qüvvətindəydi. Amma, boyu balaca, özü də cılız idi. Küldə oynamaqdan da dərisi bom-boz idi. Nə isə...Beləcə, günlər keçirdi. Küllücənin daşıyıb gətirdiyi odunlar çox olduğundan onların pulu da artmağa başladı. Yavaş-yavaş əyin-baş aldılar, yaxşı yeməklər yedilər, hələ üstəlik evlərinə də əl gəzdirdilər. Hamı Küllücənin qocalara necə kömək olduğundan danışırdı. Qonşular onu öz uşaqlarına nümunə göstərirdilər. Ancaq dövran həmişə bilinməzdi. Bir gün qonşu ölkənin padşahı bu ölkənin padşahına xəbər yolladı ki, hazır ol, müharibəyə hazırlaş. Padşah da əmr verdi ki, nə qədər cavan oğlan var, hamısını yar-yasağı, atı ilə birgə səfərbərliyə alın. Xəbər Küllücəyə də çatdı. Onun nə atı, nə də yar-yasağı yox idi. Buna görə də atasının qoca, beli yağır olmuş yabısını mindi, əlinə də odun baltasını alıb üz tutdu saraya tərəf. Yol boyu onu görənlər gülüşürdülər. Hələ sarayın qabağında dayanan pəhləvan cüssəli igidlərdən bir qəhqəhə çıxdı ki, saray silkələndi. Padşah eşiyə çıxdı ki, bu nə gurultudur. Baxdı ki, arıq, cılız bir oğlanı məsxərəyə qoyublar. Tez əmr elədi oğlanı içəri gətirsinlər. Fərraşlar onun əmrini yerinə yetirdilər. Küllücə içəri girən kimi ədəblə padşaha salam verdi. Padşah soruşdu:

-Oğlan, kimsən, hardan gəlmisən?
Küllücə dedi:

-Padşah sağ olsun, mən bir kasıb odunçu oğluyam. Əmrinizə müntəzirəm. Yabımı minib, baltamı götürüb gəlmişəm. Nə əmr etsəniz onu da edərəm.
Padşah dedi:

-Onda sənə bir iş tapşırım. Sən elə qoşun üçün odunçu işlə. Sarayın odun damına odun daşı. İşin bu olsun.

Küllücə birbaş meşəyə yollandı. Gecəni səhərə işlədi. Səhər ertədən padşahın hüzuruna gəlib dedi ki, tapşırdığını eləmişəm. Padşah məəttəl qaldı. Gedib odun damına baxdı. Doğrudan da, odun damı ağzına kimi odunla dolmuşdu. Padşahın deməyə sözü olmadı. Küllücədən soruşdu ki, ayrı nə bacarır. Oğlan cavab verdi ki, nə əmr etsəniz. Padşah qayıdıb ona nə iş tapşıracağını fikirləşirdi. Hiyləgər vəzir dedi ki, gəl onu göndərək düşmən padşahın qoşunun yerləşdiyi yerə. Qoy nə qədər at, nə qədər pəhləvan olduğunu xəbər gətirsin. Padşah razılaşdı. Onlar Küllücəni düşmən padşahın ərazisinə yola saldılar. Üç gündən sonra padşaha xəbər getdi ki, oğlan gəlib, deyir, padşah eşiyə çıxsın. Padşah eşiyə çıxıb gördü nə? Küllücə o qədər yar-yasaq gətirib ki. Hamısını da gözəl-gözəl atlara yükləyib. Tez soruşdu:

-Oğlan, bunları hardan almısan?

-Padşah sağ olsun, düşmənin atları və silahlarıdır. Onları yuxuya verib hamısını yükləyib gətirdim ki, özün say, gör nə qədər qoşun var.

Padşah yenə mat-məəttəl qaldı. Geri qayıdıb vəzirlə məsləhətləşməyə başladı. Elə bu dəm xəbər gəldi ki, düşmən padşahın elçisi gəlib. Padşah elçini qəbul etdi. Elçi dedi:

-Bizim padşah dava eləmək istəmir ta. Onun qoşununu gecə quldurlar soyublar. Geri çəkilirik. Sizdən istəyimiz bircə Buzdağdakı sarayda yatan şahzadə Gülpəridi. Padşahımız ya onu, ya da əvəzində yeddi ilin xəracını istəyir. Əgər razılaşmasanız, onda padşahımız Qara cadugəri üstünüzə göndərəcək.

Bunu deyib elçi getdi. Padşahı fikir götürdü. Axı, Qara cadugərin nələr etdiyini bilirdi. O, bir tilsimdəcə padşahı yolu bilinməyən qaranlıq dünyaya göndərə bilərdi. Buna görə də tez vəzirin üzünə baxdı. Yəni, ondan məsləhət istədi. Vəzirin cavabı çoxdan hazır idi:

-Küllücə gedib Gülpərini gətirsin.

Padşah tələsik Küllücənin dalınca adam göndərdi. Oğlana tapşırığını verdi. Küllücə izn aldı ki, ata-anası ilə halallaşsın. Düz evlərinə gəldi. Əhvalatı söylədi. Cijisi ağlayıb özünü döydü ki, bala, o vəzirin evi yıxılsın, səni lap ölümə göndərir ki. Atası isə bir az təmkinlə dedi:

-Oğul, gedək, şəhərdə qoca bir dərviş var, onun yanına. Görək o nə deyir.

Ata-oğul getdilər dərvişin yanına. Dərviş qulaq asandan sonra dedi:

-Odunçu, qorxma, bunun da çarəsi var. Ancaq, mənə düzünü de, bu sənin doğma övladın deyil.

Küllücə tez təəccüblə atasına baxdı. Odunçu ah çəkib dilləndi:

-Allahdan gizlin deyil, sizdən nə gizlədim. Bizim züryətimiz olmadı. Küllücəni də meşədən, ağacın koğuşundan tapdım. Özümüzə övlad kimi böyütdük. Deməyə qorxurdum ki, bizi qoca vaxtımızda qoyub gedər əsl ata-anasını axtarmağa.

Dərviş dedi:

-Mən bilirəm Küllücə kimin oğludur. O, Buzdağda yatan Gülpərinin deyiklisidir. Hər ikisi də şahzadədir. Bizim bu padşahın qardaşı uşaqlarıdır. O vaxt padşahgil üç qardaş idilər. Ataları rəhmətə gedəndə böyük qardaş padşah, ortancıl qardaş vəzir, kiçik qardaş da vəkil oldu. Böyük qardaşlar mehriban yola getsələr də, kiçik qardaş hey xiffət edirdi. Axı o tamahkar idi. Bir gün iki böyük qardaş meşədə ov edərkən orda iki gözəl bacıya rast gəlirlər. Sən demə, bu iki bacı əkinçi qızlarıymış. Bunlar o qədər gözəl imişlər ki, qardaşlar düşünmədən qızlarla evlənirlər. Söz kəsirlər ki, uşaqlarını deyikləsinlər. Kiçik qardaş böyük qardaşlarının arvadlarına göz dikir. Hansına xəbər yollayırsa, onunla görüşsün, heç bir gəlin razı olmur. O da hirslənir. Plan çəkməyə çalışır ki, qisasını alsın. Gün gəlir, vədə yetir. Padşahın oğlu, vəzirin də qızı olur. Onları deyikləyirlər. Oğlanın adını Adilabbas, qızın da adını Gülpəri qoyurlar. Bir gün kiçik qardaş özü kimi xəbis əlaltılarını bir yerə yığır, qardaşlarını və gəlinlərini tutub zindana salır. Gülpərini, Adilabbası isə öldürməyi tapşırır. Cəllad ondan

insaflı çıxır. Oğlanı ağac koğuşunda gizlədir, ancaq qoluna bir bazubənd taxır. Qızı isə Ağ cadugərə tapşırır ki, qorusun. Özü də hər ikisinin köynəyini tülkü qanına boyayıb ağlaya-ağlaya saraya qayıdır. Gəlib görür ki, kiçik qardaş özünü şah elan edib, hiyləgər əlaltısını da özünə vəzir seçib.

Küllücə soruşdu:

-Baba dərviş, bəs sən bunları hardan bilirsən?

- Bala, mən həmən elə o cəlladam. Dərd-qəm məni bu kökə salıb. Həmən gündən padşahın sarayından çıxdığımdı. Hələ özümə gəlməmişəm. Amma, bilirdim ki, harda olsa, şahzadəmiz sağdı. Öldürməmişəm. Səni görən kimi tanıdım. Rəngin boz olmasa deyərdim ki, atanın cavanlığısan. İndi gedib Gülpərini xilas edə bilərsən.

Küllücə dedi:

-Əvvəlcə, gərək ata-anamı zindandan xilas eləyim.

Dərviş dedi:

-Yox, get Gülpərini gətir. Buzdağın başına çıxa bilsən tilsimi sındırarsan. Əgər birinci dəfə atın ayağı sürüşsə, Gülpəri bir az da daha dərin yuxuya gedəcək. İkinci dəfə bir az da dərin, üçüncü dəfədə heç oyada bilməzsən. Çalış ki, heç olmasa ikinci dəfədə oyada biləsən.

Küllücə "baş üstə" deyib odunçuyla birgə evə qayıtdı. Qarıdan bazubəndi istədi. Qarı bazubəndi gətirib verdi. Üstündəki yazını görəndə Küllücə başa düşdü ki, qoca cəllad düz deyir. Bazubəndi də qoluna

taxdı, sağollaşıb Buzdağa tərəf yol başladı. Gəlib çatdı mənzil başına. Baxdı ki, bu dağ elə adına yaraşır. Buz şüşə kimidir. Bura atla çıxmaq möcüzə olar. Lakin, umudunu üzmədi. “Ya Allah” deyib atını yuxarı tərəf sürdü. Az keçmədi, atın ayağı sürüşdü. Geri qayıdası oldu. Özünü bir az toxtadıb bu dəfə də cəhd elədi. Atın başını qucaqlayıb yalmanını sığalladı:

-Boz at, mənə kömək ol, hünərini göstər-dedi.

Bu dəfə at Bozdağın yamacından büdrəmədən qalxdı. Küllücə tez Gülpərinin belindən tutub qaldırdı atın belinə. Bir göz qırpımında dağın ətəyinə özünü çatdırdı. Burda bir az nəfəs dərib üz tutdular şəhərə tərəf. Küllücə Gülpərini birbaş evlərinə gətirdi. Qızı burda qoyub saraya getdi. Çatan kimi bir həmlədə padşahı da, vəziri də cəhənnəmə vasil elədi. Zindana gedib ata-anasını, Gülpərinin də ata-anasını xilas etdi. Özünü Adilabbas şah elan etdi. Qoca cəlladı da, odunçunu və onun qarısını da saraya gətirib xoşbəxt yaşadılar. Bir gün də əmisindən Gülpərini istədi. Böyüklər razılıq etdilər. Toy hazırlığına başlandı.

Bu xəbər gedib düşmən padşaha da çatdı. O bu dəfə Qara cadugəri işə qoşdu. Cadugər də cadusundan qalmadı. Gülpərini saraydan oğurlayıb apardı. Adilab-bas şah yenə qoca cəlladın məsləhətinə üz tutdu. Cəllad dedi:

-Oğul, ona yalnız Ağ cadugər bata bilər. Onu tapmaq üçün də gərək yenə Buzdağa gedəsən. Orda onu oyadasan. Deyəsən ki, sənə kömək olsun.

Adilabbas şah yenə atının başını qucaqlayıb

Buzdağa çatdı. Ağ cadugəri oyadıb başına gələnləri əvvəldən axıra kimi danışdı. Ağ cadugər onu dinləyib bircə sehrlə Qara cadugəri də, Gülpərini də Buzdağda hazır elədi. İkinci sehrlə də Qara cadugəri Buzdağda yeddiqat buzun altındakı zindanına saldı. Gülpərini Adilabbas şaha təhvil verib yola saldı. Cavanlar şəhərə çatan kimi toyu başladılar. Qırx gün, qırx gecə toy çaldırıb muradlarına çatdılar. Toyda mən də vardım. Yedim, içdim, ancaq nə əlim batdı, nə də ağzıma bir şey çatdı. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağılı bilənin.

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən olan Zəhra Baratəli qızı***

# *Göygöz kosa və Keçəl*

Möhtəşəm Samux torpağı özünəməxsus xüsusiyyətlərinə görə müstəsna yerlərdən birini tutur. Deyilənlərə görə, ən uzaq keçmişdə Samux kəndlərinin birində kiçik yaşlarında ata və ana nəvazişindən məhrum olmuş iki uşaq vardı. Həmin uşaqlardan oğlanın adı Tahir, qızın adı Zöhrə idi. Uşaqlar kənd əhalisi tərəfindən hər cəhətcə əhatə olunsalar da, ata-ana nəvazişinə ehtiyacları böyük idi. Vaxt ötdü, zaman keçdi, yetim uşaqlar böyüyərək

həddi-buluğa çatdılar. Yenə də kənd əhalisi yığışaraq gəncləri nigaha cəlb etdi, ailə qurmalarına köməklik göstərdilər. Yenicə ailə qurmuş gənclər yaşayışlarından çox razı idilər. Bir ildən sonra gənc ailənin bir oğlan uşağı dünyaya gəldi. Bu zaman ailənin sevincinin həddi-hüdudu yox idi. Belə olan halda gənc ata və ana uşaqlarının adını Məhəmməd qoydular.

Samux mahalında əhali arasında keçmişdə bir çox xəstəliklər tüğyan edirdi. İsitmə xəstəliyi, qızılca, çiçək çıxartma kimi. Məhəmməd çox erkən vaxtlardan atasını itirdi. Ana himayəsində olan kiçik Məhəmməd ev işlərində anasına yaxından köməklik göstərirdi. Bir gün anası Məhəmmədin saçını tumarlayırdı, bir də gördü ki, uşağın başına sarı yara düşüb. Tez onu kənddə türkəçarə bir həkimin yanına apardı. Həkim dedi:

- Qızım, uşağın başına keçəl düşüb.

Həkim dərman verdi. Lakin, heç bir müalicə fayda vermədi. Sonda uşağın başı tamam keçəl oldu. Bundan belə Məhəmmədin yaşıdları onu adı ilə deyil, “Keçəl” deyə çağırırdılar.

Məhəmməd hər cəhətdən yaşıdlarını üstələyirdi. Onu “keçəl” deyə çağıranda heç vaxt narahat olmurdu. Ona görə ki, ilk baxışdan keçəl sözü insana xoş gəlməsə də, o öyrənmişdi ki, bütün nağılların baş qəhrəmanı həmişə keçəl olur. Hətta, belə bir atalar sözü də var: “Keçəlsiz nağıl olmaz”

Günlərin birində anası Keçəli yanına çağırıb dedi:

- Oğlum, Novruz bayramına az qalır, köhnə azuqəmiz azalıb, yenisinin çıxmasına da çox qalır. Cəmisi bir dağarcıq buğdamız var. Su dəyirmanında növbəmiz də yaxınlaşıb. Apar dənimizi üyüt gətir. Amma, Göygöz kosa olan dəyirmana yaxın getmə. Ona görə ki, o çox hiyləgər adamdır. Bir kələk qurub unu əlindən alacaqdır.

Məhəmməd anasına dedi:

-Ay ana, narahat olma. O, Göygöz kosadırsa, mənə də Keçəl deyərlər.

Keçəl dağarcığı çiyninə keçirdi. Anası ilə xudahafizləşib dəyirmana yola düşdü. Gedib dəyirmana çatanda gördü ki, Göygöz kosa başda əyləşib. Keçəl adamların birindən soruşdu:

- Buralarda başqa su dəyirmanı varmı?

Bir nəfər dedi ki, bu dəyirman da daxil olmaqla yeddi su dəyirmanımız var. Keçəl ikinci dəyirmana çatanda gördü ki, burada da Göygöz kosa başda əyləşib. Nə isə, Keçəl yeddi dəyirmanı gəzdi. Gördü ki, dəyirmanların hamısında Göygöz kosa var. Axırda əlacsız qalıb dəyirmanlardan birində dənini üyütməyə başladı.

Keçəl yenicə dənini üyüdüb qurtarmışdı ki, Göygöz kosa ona yaxınlaşıb dedi:

-Keçəl, oğlum, sən dəyirman qanunlarını bilirsənmi?

Keçəl dedi:

-Necə bəyəm?

Göygöz kosa dedi:

-Dəyirmana gələn insanlar kimliyindən asılı olmayaraq dəni üyütdükdən sonra mütləq kömbə salmalıdır.

Keçəl dedi:

-Mənim cəmi-cümlətən bircə dağarcıq unum var, onu da kömbə salsam evə əliboş getməliyəm.

Kosa dedi:

-Neynək, indi ki, belə oldu unu məndən, urvası səndən.

Kosa çalışırdı ki, nəyin hesabına olursa-olsun, Keçəli aldadıb unu əlindən alsın. Vəziyyət bu yerə çatanda Keçəl gördü ki, geriyə yol yoxdur. O, bir ovuc urva gətirdi. Kosa tez yerindən qalxaraq iri bir xəmir tabağı gətirdi. Sonra bir ləyən də un gətirib xəmir tabağına tökdü. Keçəl də ovcundakı urvanı unun üstünə qatdı. Kosa iri bir cürdəkdə su gətirib həmin tabağa tökdü. Su çox olduğundan tabaqda un hörrə şəklini aldı. Kosa təkrar-təkrar:

-Keçəl, urva gətir- deyirdi.

Axırda vəziyyət o yerə çatdı ki, Keçəl dağarcıqda nə qədər un vardısa hamısını gətirib Kosanın xəmir tabağına çırparaq boşaltdı. Bu zaman anasının dediyi söz Keçəlin yadına düşəndə ürəyində çox peşmançılıq keçirdi. Lakin iş işdən keçmişdi. Ona görə də, Keçəl işin sonunu gözləməyə məcbur idi.

Göygöz kosa özündən çox razı halda kömbənin xəmirini yoğurub hazırladı və buxarıda yanmış odunların közünü səliqə-səhmana saldı. Bu zamana qədər Kosa bu böyüklükdə kömbə salmamışdı.

Deyilənə görə, kömbənin qalınlığı bir qarış imiş.

Axşamdan salınmış kömbə sübh vaxtı bişərək hazır oldu. Kosa kömbəni çıxarıb yanan yerlərini bıçaqla qazıdı. Sonra divara söykəyərək Keçəli yanına çağırdı və dedi:

- Oğlum, Keçəl, mən bu yaşıma qədər belə bir kömbə görməmişəm. Gəl belə edək, özün də görürsən ki, necə bir yaraşıqlı kömbədir. Onu kəsməyə heç adamın əli gəlmir.

Kömbə ortaqlı olduğuna görə mütləq kəsilməli idi. Bu da Keçəlin xeyri, Kosanın ziyanı demək idi. Çünki, unun çoxu kosanın idi. Ona görə də, Kosa fənd işlədib kömbəni ələ keçirmək istəyirdi. Axırda Kosa hiylə işlədərək Keçələ dedi:

-Oğlum, Keçəl, gəl kömbəni kəsməyək. Hərəmiz adama bir yalan danışaq, kimin danışdığı yalan uzun olsa kömbə də onun olsun.

Keçəl razılaşdı. Kosa yalan danışmağı birinci Keçələ təklif etdi. Lakin, Keçəl düşündü ki, birinci addım həmişə çətin olur, hətta bir atalar sözünü də yadına saldı, ürəyində onu təkrarladı: "Divanın sabaha qalanından ol". Keçəl Kosaya dedi:

- Söz həmişə böyüyün olub, ona görə də sən birinci başla.

Kosa yalan danışmağa belə başladı:

- Qonşu kəndimizin adamları kimi bizim də ailəmiz yay mövsümündə Sarıyer yaylağına köç edirdi. Biz Kür çayını keçəndən sonra mən Kürün kənarına bir qarpız toxumu basdırmışdım. Payızda el

dağdan arana köç edib Kürdən keçərkən, mən basdırdığım qarpız toxumuna baş çəkəndə gözlərimə inanmadım. Gördüm qarpız tağ atıb Kürün o biri sahilinə keçib. Mən qarpızın tağından tuta-tuta o biri sahilə keçdim və gördüm ki, tağın üstündə böyük bir qarpız var. Mən qarpızı birtəhər qayanın qaşına gətirdim və kəsdim. Qarpızın özəyindən bir loxma ağzıma almışdım ki, qarpız bıçaqla birgə qayadan Kürə düşdü.

Keçəl Kosanın yalanının sona çatdığını gördü. Sonra Keçəl yalan danışmağa başladı:

- Kosa, qulaq as, mən anamla meşəyə təndir çırpısı gətirməyə getmişdim. Mən çırpı yığa-yığa həm də hündür və böyük qovaq ağaclarının başına nəzər salırdım. Bir də gördüm ki, böyük bir ağacın başında yekə bir quş yuvası var. Mən ağacın başına çıxıb quş yuvasına baxdım və gördüm ki, yuva ağzınacan yumurta ilə doludur. Mən bu yumurtaları iki gün bir gecə daşıyıb xırmana tökdüm. Taxıl döyən vəlləri atlara qoşub yumurtaları döyməyə başladım. Gecəni yatıb sübh tezdən yuxudan oyananda gözlərimə inanmadım. Belə ki, xırman, məhlə, ətraf, bir sözlə, hər yer cücə ilə dolmuşdu. Bu zaman cücələrə dən tökdüm, diqqətlə baxanda gördüm ki, bu cücələrin içərisində böyük və göy rəngli bir xoruz var. Arabir bu xoruzu minib Naxçıvana duz gətirməyə gedərdim. Bir də gördüm ki, xoruzun kefi yoxdur. Baxanda gördüm ki, xoruzun beli çox minməkdən yağır olub. Mən yaşlı adamlardan soruşdum ki, xoruzun yağırına

nə kömək edər? Dedilər qoz ləpəsi. Mən tez bir zamanda ləpəni tapıb məlhəm hazırlayıb xoruzun yağırına bağladım. Gecəni yatdım, səhər oyananda gördüm ki, xoruzun belində nəhəng bir qoz ağacı bitib. Mən qoz ağacının başına çıxdım gördüm ki, burada torpaq, meşə, ağac, bir sözlə, yaşayış üçün hər cür şərait vardır. Mən qoz ağacının başına bir cüt öküz, xış çıxartdım və buranı əkməyə başladım. Əkilmiş şumu dırmaqlayıb darı səpdim. Qədim Samux mahalı yay mövsümündə çox isti olduğundan Azərbaycanın ata-baba yurdu olan İrəvan mahalının Basarkeçər rayonunun Sarıyer adlanan yaylağına köç edirdilər. Mən də ailəmizlə birgə Sarıyer yaylağına getdim. Bir müddətdən sonra mənə arandan xəbər gəldi ki, Keçəl, darına donuz dadanıb. Mən arana yola düşdüm, gəlib arana, yəni Samuxa çatanda gördüm donuzlar darını başına alıb. Mən çaxmaqlı tüfəngimlə birgə həm də ehtiyatdan darı biçmək üçün lazım olan çin də götürmüşdüm. Mən donuzlara nəzər salanda gördüm donuzların sürüsündə bir qaban var. Mən birtəhər həmin qabana yaxınlaşdım və əlimdəki çini elə atdım ki, həmin dəqiqə qabanın bud hissəsinə sancıldı və qaban darının içərisində qaçmağa başladı. Donuz qaçdıqca darı biçilirdi. Bu minvalla darı tamam biçildi. Mən biçilmiş darını tayaya vurub sonra yaylağa getdim. Aradan bir müddət vaxt keçdi, artıq payız girmişdi, arana gəlməyimizə az qalırdı. Bir də eşitdim ki, indi də darıya at ilxısı daranıb. Mən tələm-tələsik özümü arana çatdırmaq üçün çaxmaqlı

tüfəngimi çiynimə alıb yola düşdüm. Gəlib qədim Samuxa çatdım, darıya baş çəkəndə gördüm ilxı tayanı başına alıb. Amma, başqa atlardan fərqli olaraq bir böyük qara ayğır var, o qabaq ayaqları ilə darı tayasını eşərək yeyirdi. Mən tez bir zamanda çaxmaqlı tüfəngimi işə salıb ayğırın ayaqlarına atəş açdım. Sən demə ayğırın ayağında nal varmış. Atəş nəticəsində güllə atın nalına dəyərək alov saçdı və taya od tutub yanmağa başladı. İnsanlar köməyə gəlsələr də, alovu söndürmək mümkün olmadı. Taya tamamən yandı. Çox fikirləşdikdən sonra mən yaşlı adamlardan məsləhət aldım ki, bu yanmış tayanı nə etmək olar. Dedilər ki, ancaq bunu sovurmaq olar. Ola bilsin ki, yanmış tayanın yerində az və ya çox miqdarda darı qalmış olar. Biz bir neçə nəfərlə darı tayasının yanıb kül olduğu yerə gəldik. Külü sovurmağa başladıq. Birinci sovurmada küldən bir ağ yapıncı, ikinci sovurmada bir yəhər, üçüncü sovurmada isə bir məktub çıxdı. Məktubu açdıq, ancaq onu heç kim oxuya bilmədi. Ona görə də, qazı ağanın yanına getməli olduq. Qazı ağa məktubu oxuyaraq, bizi belə başa saldı. O, dedi:

-Oğlum, məktubda yazılıb ki, Göygöz kosa qələt edir, kömbə Keçəlindir.

Bundan sonra artıq Keçəlin sevincinin həddi-hüdudu yox idi. Ona görə ki, o, dəyirmana bir dağarcıq buğda aparmasına baxmayaraq, bacarıq və zəkasının gücünə əsasən qayıdarkən üç dəfə çox unla bişmiş kömbə ilə qayıdırdı. Keçəl olub keçənləri

anasına anladarkən, ana övladının zəkasına heyranlığını gizlədə bilməyib dedi:

- Mənim zirək, bacarıqlı oğlum, indi mən dünyanın ən xoşbəxt analarından biriyəm. Ən azı ona görə ki, indi mənim sənin kimi aslanlar tək oğlum var. Səninlə fəxr etməyimə dəyər. Çünki, sən mənim üçün çox dəyərlisən.

Mənim əziz və çox dəyərli könül dostlarım, nağılımız burada sonuna çatdı, nağılçı sözlərdən inci yaratdı.

Göydən üç qırmızı alma düşdü, biri mənim, biri sənin, biri də nağıl danışanın.

# *Halal əmək*

Qədim zamanlarda kasıb bir kişi vardı. Onun övladı olmurdu. Bu kişi o qədər halal adam idi ki, bir qonşunun toyuğuna "kiş" deməmişdi. Buna görə də, bir gün arvadını kənddə qoyub şəhərə gedir. Burda da deyir ki, mən yalnız halal pul qazanacam. Bir ağanın qapısında gündə bir qarın yeməkdən əlavə, bir şahı pula işləməyə razılıq verir. Bir gün öz kəndlərindən olan bir bəzirganla rastlaşır. İstəyir ki, arvadına nəsə göndərsin. Ancaq, baxır pulu azdır. Ona görə də, bir pişik alıb bəzirgana verir. Fikirləşir ki, evdə uşaq da yoxdur, arvad elə pişiklə başını qatar. Bəzirgan yol başlayır kəndə tərəf. Yolda bir evə qonaq düşür. Evin arvadı ona yaxşı şorba bişirir. Stolun üstünə qoyur.

Uşaqlar da hərəsi əlinə bir ağa alıb stolun başına yığılır. Bəzirgan bilmir neynəsin. Evin kişisi deyir:

-Ay qonaq, niyə yemirsən?

Cavab verir:

-Ay rəhmətliyin oğlu, hərəniz əlində bir ağac başımın üstünü kəsmisiniz. Belə qonaq qarşılayırlar?

Kişi dedi:

-Qonaq, xətrinə dəyməsin. Evimizdə yaman çox siçan var, sənə yeməyə imkan verməzlər deyə belə edirik. Günümüzü qara edib bu siçanlar. Bilmirik neyniyək.

Bəzirgan tez xurcundan pişiyi çıxarıb evə buraxır. Pişik miyoldadıqca siçanlar qaçıb gizlənir. Ev sahibi deyir:

-Qonaq, sən bizi belə bir bəladan xilas etdin. Sənin hörmətindən bilmirəm necə çıxım.

Kişiyə gətirib bir xeyli qızıl, pul verdilər. Bəzirgan bunları gətirib arvada verdi. Əhvalatı da ona danışdı. Arvad da yaxşı arvad idi. Dunux deyildi yəni. O saat puldan bir xeyli ayırıb kənara qoydu. Özü üçün azca xərclik saxladı. Bu burda dolanmağında olsun, kişidən danışım. Kişi özünü elə halal adam kimi göstərmişdi ki, ağa onun xətrini yaman çox istəyirdi. Bir gün ağaya hind narının şitillərini gətirirlər. Ağa da onun birini kişiyə verir, bərk-bərk də tapşırır ki, qaranlıq yerdə əksin. Meyvəsi can dərmanıdır. Kişi yenə bəzirganı tapır. O qədər ürəyi təmiz olur ki, şitili də onunla göndərir. Ağanın dediklərini də atvadına deməsini tapşırır. Bəzirgan şitili götürüb kəndə gəlir.

Arvada verib, ərinin sözlərini də çatdırır. Arvad şitili qaranlıq yerdə əkir, ona qulluq edir. Ancaq, bəzirgan paxıllıqdan durammır. Öz-özünü danlayır ki, o pulu da, şitili də nahaq gətirib arvada verdi. Bir yolla onları ələ keçirtmək istəyir. Nəhayət, yolunu tapır. Arvada deyir ki, bəs belə-belə, ərin şəhərdə xəstələnib, can üstdədi. Deyir, yanıma gəlsin. Arvad da tədarükünü tutub gedir şəhərə. Gəlib ərini tapır, baxır ki, kişi sappasağdı. Barmağını dişləyir ki, bəzirganın nəsə kələyi var. Hər şeyi ərinə danışır. İkisi də daban-basaraq kəndə qayıdır.

Bəzirgan da bu yandan hind narının şitilini oğurlayıb yerinə ayrı şitil əkir. Pulları da tapıb götürür. Kişiylə arvadı gəlib evə çatanda baxırlar ki, şitil balacalaşıb, pullar da yerində yoxdur. Gedirlər bəzirganın üstünə. Bəzirgan da heç nəyi boynuna almır. İş qazıya düşür. Qazı da arif adamdı. Fikirləşir, fikirləşir, axırda belə deyir:

-Kişi səndə o qədər pul hardan idi?

Kişi deyir:

-Mən arvadıma pul yox, pişik göndərmişdim. Bəzirgan yolda pişiyi baha satıb. Pul o puldu.

Qazı deyir:

-Onda bəzirganın pula haqqı çatır. Deyərəm sənin pişiyini alıb özünə verər. Bəs şitilin dəyişdiyini nədən bildin?

Kişi cavab verir:

-Onu mən yox, arvadım bildi.

Qazı arvadı çağırır. Soruşur:

-Sən nədən bildin ki, şitil həmənki deyil?
Arvad dedi:
-Mən nə müddətdi onun qulluğunda durmuşam, baxan kimi bildim ki, bu adi nar şitilidir.
Qazı dedi:
-Fəhm sübut deyil. Bəzirgan haqlıdır.

Bunu deyib onları yola salsa da qazı bəzirganı faş eləmək istəyirdi. Odur ki, yavaş-yavaş bəzirganla dostlaşdı. Bir gün də mərc gəldi ki, sabah gün Şərqdən yox, Qərbdən çıxacaq. Bəzirgan dedi, ola bilməz. Mərc gəldilər. Qazı şərt qoydu:

-Əgər mən dediyim düz çıxsa, hind narının ilk meyvəsi mənimdi, yalan çıxsa sənindi.

Bəzirgan qazının eyhamını başa düşəmmədi. Razılaşdı. Üstəlik yekələndi:

-O narın meyvəsi can dərmanıdır. Ona görə oğurladım onu.
Elə qazı da bunu istəyirdi. Tez camaatı yığıb dedi:
-Baxın, halal əməklə qazanılan mal budu. Bəzirgan doğrudan da, bu kişinin pulunu, narını oğurlayıb.

Qazı pulları da, nar ağacını da alıb kişiyə verdi. Bəzirganı isə yığılıb kənddən qovdular. Halallıqla yaşamaq gözəl şeydi. Çalışın, həmişə halal mal qazanın ki, xeyrini görəsiniz.

# *Almanın nağılı*

Bir gün Qasım adlı bir kişi başqa şəhərə işləməyə getmək istəyir. Səfərə çıxmağa az qalmış bazardan iki alma alıb gətirir. Birini arvadına verib deyir:

-Hər gün bu almalara baxarıq. Sənin başına bir iş gəlsə, mənim cibimdəki alma saralacaq, ya da tərsinə, mənə nəsə olsa, sənin alman solacaq.

Kişi gedir işləməyə. Orda da hər gün cibindən almanı çıxarıb baxır, qaytarıb yerinə qoyur. Onunla işləyən yoldaşlarından biri padşaha xəbər verir ki, Qasım hər gün cibindən bir alma çıxarıb baxır, yerinə qoyur. Burda nəsə bir sirr var. Padşah Qasımı hüzuruna çağırır. Soruşur:

-Düzünü de görüm, o nə almadır cibində saxla-yırsan?

Qasım almanın sirrini padşaha açır. Padşah deyir:

- Qasım, yoxlayarıq.

Xəlvətcə vəkilini arvadın yanına göndərir. Vəkil gəlib qapını döyür. Arvad içəridən soruşur:

- Kimsən?

Vəkil deyir ki, Allah qonağıyam, bacı, bir gecəliyinə yer ver. Arvad razılaşır, qapını açır, ancaq qonağın yatağını zirzəminin qapısının üstündə salır. Qapının rəzəsinə də bir ip başlayıb əlində hazır saxlayır. Qonağa deyir:

-Get yat.

Vəkili də padşah öyrədib axı. Deyir:

-Xanım, niyə tələsirsən? Sən də tək, mən də. Əvvəl rahat-rahat söhbət edək, könlümüzü xoş edək.

Arvad bu sözləri eşitcək ipi çəkir. Vəkil tappıltıynan quyuya düşür. Tez gəlib qapını örtür. Padşah gözləyir, vəkildən səs çıxmır, vəzirini göndərir. Arvad vəziri də quyuya salır. Axırda padşahın ürəyi dözmür, Qasıma deyir:

- Almana baxım. Görür, alma yerindəcə durur. Padşah Qasıma üzünü tutur:

-Bu dəfə özüm gedəcəyəm, amma mən də qayıtmasam, özün gələrsən.

Padşah da yol alır Qasımın evinə tərəf. Ancaq, padşah olduğunu danmır. Arvada deyir:

- Nə tapmısan o kasıbda, gəl mənim könlümü xoş elə, səni qızıla tutaram. Arvadı o qədər qılıqlayır ki, görür arvad altdan-altdan qımışır. Ürəyində deyir:

- Hə, Qasım, almanı saraldım, sən də bax.

Arvad padşahın da yerini quyunun üstündə salıb deyir:

-Padşah sağ olsun, padşah adamsan, sən bir yuxu al, mən də sənə şahlara layiq yemək hazırlayım. Sonra oturub süfrə başında söhbətləşərik.

Padşah elə bilir arvad ta razılaşdı. Gedib uzanan kimi arvad bunu da quyuya salır. Yuxarıdan da çağırır:

-Ay padşah, səni vəzir-vəkilinin yanına göndərdim ki, ordan necə çıxmağı məsləhətləşəsiniz.

Qasım üç gün gözləyir, görür, xəbər yoxdu, evə

gəlir. Arvadı əhvalatı ona danışır, o da başına gələni nəql edir. Bilirlər ki, padşah almanı sınayır. Üçünü də ip sallayıb quyudan çıxarırlar. Padşah quyudan çıxan kimi soruşur:

-Qasım, alman nə təhərdir?

Qasım tez almanı çıxarır. Baxırlar ki, alma yerindəcə durur. Rəngi əvvəlkindən də parlaqdır. Padşah o qədər təsirləndi ki, Qasıma ev, pul verdi. Üstəlik, onu öz sarayında eşikağası vəzifəsinə təyin elədi.

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən olan Zəhra Baratəli qızı***

# *Musa və Əzrayıl*

Musa peyğəmbər yol ilə gedirdi. Birdən qarşısına Əzrayıl çıxdı. Musa peyğəmbər Əzrayıldan çoxdan yanıqlıydı. Ona görə də onu bərk danladı, hədələdi. Dedi ki, sən çox insafsız, qansız, allahsız və vicdansız adamsan.

Əzrayıl soruşdu:

-Niyə?

Musa peyğəmbər cavab verdi:

-Ondan ötrü ki, sən hər vaxt, qocalar qalır, cavanları aparırsan. Elə vaxt olur ki, bir kişinin gözünün ağı-qarası bir oğlu olur, onu da öldürürsən.

Əzrayıl xeyli fikirləşəndən sonra dedi:

-Musa, düzdü, adamları mən öldürürəm. Özü də kefimdən yox, Allahın əmri ilə bu işi yerinə yetirirəm. Amma, siz insanlar tamahınız güc gəldikcə mer-meyvənin yaxşısını yığıb aparırsınız, mal-qaranın, qoyun-quzunun cavanını kəsib yeyirsiniz. İndi ki, belədir, bax, o meşədəki palıd ağacını görürsən? Get, hərlən, onun dibinə gəl. Onda mən sənə nə üçün qocaları deyil, cavanları öldürdüyümün sirrini deyərəm.

Musa dinməz-söyləməz meşəyə gedib ağacın dibinə hərləndi. Baxdı ki, ağacın dibində elə bir yaşıl şöy var ki, dünyanın gözü bu şöydədi. Musa tezcə əyilib şöyü kəsdi. Cavan ağaca heç bıçaq vurmadan gözəl bir çəlik düzəltdi. Həvəsli –həvəsli gəldi Əzrayılın yanına. Əzrayıl dedi:

-Musa, niyə o palıd ağacının özünü qırmadın, o şöyə qıydın, onu sındırdın? Bax, Musa, sənlə mənim fərqim ondadır ki, siz tamahınıza görə, mən də Allahın əmri ilə bu işi icra edirəm. Hər adamın vaxtı tamam olanda kəsib aparıram.

***Gözəldərə kəndindən toplanıb.***

# *Ağ divlə Qara divin nağılı*

Biri vardı, biri yoxdu, iki qardaş vardı. Onların bu dünyada bir-birindən savayı heç kimi yox idi. Ona görə də, onlar bir-birinə söz vermişdilər ki, uşaqlarını deyikli etsinlər. Belə də edirlər. Əmiqızı ilə əmioğlu deyikli olur. İllər keçir, bu uşaqlar böyüyüb evlənəsi yaşa çatırlar. Bir gün onlar çəmənlikdə gül dərəndə Qara div qızı oğurlayır. Oğlan qəm çəkir. Evə gəlir. Atasına və əmisinə deyir ki, gedib nişanlımı tapacağam. Böyüklər deyir, oğul etmə-eləmə. Qara divə sənin gücün çatmaz. Olan olub, keçən keçib, gəl kənddən bir qız bəyən evlən, o qızdan da əlini üz. Oğlan əl çəkmir ki, çəkmir. Deyir:

-Bu yolda ölsəm də gərək gedim. Mən öz nişanlımı gətirməliyəm.

Axırda atasının və əmisinin deməyə sözü olmadı. Oğlana qırx günlük yemək-içmək hazırlayıb ağlaya-ağlaya yola saldılar. Oğlan başladı getməyə. Nağılda vaxt tez keçər. Oğlan günə bir mənzil gedib bir dağın ətəyinə çatdı. Bir də baxdı ki, artıq yeməyə heç nəyi yoxdu. O tərəf bu tərəfə baxdı ki, görsün nə var. Baxdı ki, dağın başında qalaça görünür. Başladı qalaçaya qalxmağa. Qalaçanın qapısında bir qoca oturmuşdu. O oğlana dedi ki, bura nəyə gəlmisən? Oğlan da cavab verdi ki, nişanlımı Qara div aparıb onu qaytarmağa gedirəm. Acdım, yeməyə nəyiniz var?

Kişi durub onu içəri apardı. Yaxşıca yedirib-içirtdi. Sonra da qırxıncı otağa apardı. Burada otuz doqquz dənə gözəl qızın şəkli vardı. Elə gözəl qızlar idi ki, oğlan az qaldı huşunu itirsin. Kişi dedi:

-Bunları görürsən? Bu qızların hamısını Qara div oğurlayıb. İndi sən də otur nişanlının şəklini çək, olsun qırx dənə şəkil.

Oğlan nişanlısının eşqiylə onu elə gözəl çəkdi ki, otaqdakı otuz doqquz şəkildən ən gözəli bu oldu. Kişi bir şəklə, bir də oğlana baxıb dedi:

-Qara divin məskəninə yol yoxdur. O tilsimli meşədə olur. Sən ki, bu eşqi belə yaşadırsan mənim hekayətimə də qulaq as. Mən də sənin kimi öz sevgilimin dalınca gedənlərdənəm. Ən birinci şəkil mənim sevgilimindi. Biz cavan olanda Qara div onu oğurladı. Mən də diyarbədiyar onu axtardım. Gəldim bura çıxdım. Bu dağdan o yana divlər məskənidir.

Gedə bilmədim. Bu qalaçada yurd saldım. Ondan sonra otuz səkkiz gənc də gəlib dedi ki, yarımı Qara div aparıb. Onlar da qızların şəklini çəkib burda qoydular. Amma, gedib qayıtmadılar. Mənim bir maralım var, o gedib otlayır, axşamlar onu sağıram. Maral xəbər gətirib ki, gedənlərin hamısı dağın o biri üzündə daş olub. Tilsimin yolunu yalnız Ağ div bilir. O da bəni-insan olmasa bu tilsimi sındıra bilməz. Maral dedi ki, yalnız qırxıncı adam Ağ divə kömək edər. İndi qırxıncı sənsən. Görək, nə edirsən.

Oğlan bunu eşidən kimi tez soruşdu:

-Ağ div harda olur?

Kişi dedi:

-Tələsmə, maral axşam gələr, ondan soruşarıq.

Axşam oldu. Maral yelini dolmuş halda gəldi. Kişi maralı sağdı. Oğlanın əhvalatını danışdı. Maral dedi ki, oğlan gərək meşəyə gedə. Oğlan dinməz-söyləməz maralın dalınca meşəyə getdi. Orda qırxıncı ağacın dibində ayaqlarını yerə vurub buynuzlarıyla budaqları sirkələməyə başladı. Az keçmədən güclü külək qopdu. Oğlan küləyin burulğanına qarışdı. Bir də gözünü açdı ki, güllü-çiçəkli bir bağdadır. Başının üstündə də bədheybət bir div oturub. Sən demə, bu Ağ div imiş. Div oğlana dedi:

-Qorxma, mən Ağ divəm. Qara div mənim düşmənimdi. Maral mənim əmimqızıdır. O da mənim deyiklim idi. Qara div ona aşiq oldu. Ancaq əmim qızı məni sevirdi. O da hirslənib əmimqızını maral donuna saldı. Tilsimin açarını da öz canına sehrlədi. Nə qədər

ki, Qara div ölməyib, tilsim qırılmaz. Bu bağın kənarında gördüyün otuz səkkiz yastı daş da igidlərdi. Onlar da Qara div ölsə adam olacaqlar. İndi yalnız sən mənə kömək edə bilərsən. Qara divin canı bu çarhovuzdakı suyun içindəki balığın qarnındadı. Balığı tutmaq üçün gərək sudan gələn səsin bir sualına cavab verəsən. O sualların cavabını mən də bilirəm. Ancaq bəni-adəm bu suallara cavab verməlidi. Bu da sənsən. Əgər cavab versən, balığı tutacaqsan. Tutan kimi də gərək öldürəsən. Cavab verə bilməsən sən də daş olacaqsan, mən də öləcəm.

Oğlan durub çarhovuza yaxınlaşdı. Əksi suya düşən kimi qeybdən bir səs gəlir:

-Dünyada ən yüyrək nədi?

Oğlan dedi:

-Fikir, xəyal. İnsan burda oturur, xəyalı, fikri uzaqlara gedir. Bax, mən burda oturmuşam, fikrim ata-anamın yanındadır.

Bunu deyib əlini atıb balığı tutdu, daşla vurub öldürdü, bir qırağa tulladı.

Bir də gördü ki, qulağına bir çığırtı, bağırtı gəldi, bir gurultu qopdu, az qaldı zəhri yarıla. Bir də onu gördü ki, tirtap yerə dəydi. Aradan nə qədər vaxt keçdi, bilmədi. Ayıldı ki, başının üstündə nişanlısı dayanıb. Bir də otuz doqquz gözəl qız. Ağ div də bir tərəfdə özü kimi div olan qızla söhbət edir. Nişanlısı ona üzünü tutub dedi:

-Sən Qara divin sehrini sındırdın. Bu qızları da azad etdin, məni də. İndi dur gedək.

Oğlan Ağ divlə, onun nişanlısı ilə sağollaşdı. Ağ divin nişanlısı da qızların birinə bir cavanlıq alması verdi. Sən demə, bu qız nurani kişinin sevgilisi imiş. Oğlan qızlarla birgə bağdan yenicə çıxmışdı ki, bir də gördü ordakı igidlər hamısı daş tilsimindən azad olub onları gözləyirlər. Hərənin yarını özünə təhvil verdi. Ancaq, igidlər də, qızlar da dedilər ki, biz də səninlə qalaçaya gedirik. Hamısı da qalaçaya üz tutdu. Burda onları nurani kişi qarşıladı. Sevgilisi cənnət almasını ona verdi. O da dönüb cavan oldu. Burda qırx cavan öz yarına qovuşdu. Hamısı yedilər, içdilər, şənləndilər. Gecəni orda qalıb səhər hər kəs öz diyarına yol aldı. Oğlan da əmisi qızını götürüb gəldi evlərinə. Bütün kənd onların pişvazına çıxdı. Hamı sevindi, yeddi gün, yeddi gecə toy çalındı. Toyun axırında nağıl danışana üç alma verdilər. O da hamısını özü yedi.

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən olan Zəhra Baratəli qızı***

# *Əzrayılla insanın dostluğu*

Biri varmış, bir yoxmuş, bir kəndçi varmış. Bu kəndçi gecəni gündüzə qatıb işləyər, ailəsini halal zəhməti, alın təri ilə saxlayarmış. Günlərin birində kəndçi yenə tarlada işləyirmiş. Birdən tanımadığı bir nəfər onun yanına gəlir. Nahar fasiləsi olduğu üçün kəndçi onu buraxmır, bir yerdə çörək kəsirlər. Söhbət zamanı qonaq kəndçiyə deyir:

-Rast ki, bir yerdə çörək kəsdik, deməli, dost olduq. Mən Əzrayılam. Nə sözün, tapşırığın olsa yerinə yetirirəm.

Kəndçi Əzrayılın sözünə inanmır. Onun bu sözünə ürəkdən gülüb deyir:

-Sən hardan Əzrayıl oldun, mənim kimi bir adamsan.

Əzrayıl ciddi şəkildə:

-Yox, qardaş, doğrudan da, mən Əzrayılam- deyə cavab verir.

Kəndçi onun sözünə yenə inanmır. Mübahisə xeyli uzanır. Axırda naəlac qalan kəndçi Əzrayıla deyir:

-İndi ki, belədir, elə bir möcüzə göstər ki, sənin Əzrayıl olduğuna inanım.

Söz kəndçinin ağzından çıxar-çıxmaz Əzrayıl süfrənin qırağından qeybə çəkilir. Kəndçi o yana, bu yana baxır, ətrafı nəzərdən keçirir, qonağı görmür ki, görmür. Elə bil o, yağlı əppək olub göyə çəkilmişdi. Handan-hana özünə gələn kəndçi başını aşağı salıb

əlini süfrəyə uzadır. Elə bu anda başqa bir əl də süfrəyə uzanır. Kəndçi başını qaldıranda bayaqkı adamın şirin-şirin çörək yediyini görür. Qonağın Əzrayıl olduğuna kəndçidə şəkk-şübhə qalmır.

Süfrə yığılandan sonra onlar əl verib, möhkəm dost olacaqlarına and içirlər. Ayrılanda kəndçi Əzrayıldan xahiş edir ki, ölümünə üç gün qalmış onu xəbərdar etsin. Əzrayıl onunla razılaşır.

Bəli, gün keçir, ay gedir, il dolanır, vaxt-vədə tamam olur. Kəndçi yenə bağda, bostanda işləyirdi. Birdən başını qaldırıb görür ki, budur, Əzrayıl gülə-gülə ona yaxınlaşır. Görüşüb-öpüşdükdən sonra Əzrayıl deyir:

-Qardaş, mən sözümə əməl etdim. Üç gündən sonra vaxtın tamamdır, get hazırlaş.

Kəndçi halını pozmadan işinə davam edir. Axşam evə qayıdanda kimə borcu var, qaytardı. Qohum-əqrəbayla hallalaşdı. Gedib bazardan çoxlu ağac şöyü, ting aldı.

Üç gün tamam olanda Əzrayıl kəndçinin canını almaq üçün onun yanına gəldi. Gördü ki, o, bağda yeni tinglər basdırır, onlara su verir, bir sözlə, qan-tər içində işləyir. Əzrayılın ona yazığı gəlib dedi:

-Onsuz da vaxtına az qalıb, gəl, bir az dincəl. Bu tingləri kimdən ötrü əkirsən, axı, onun barını sən görməyəcəksən.

Kəndçi halını pozmadan cavab verdi:

-Bax, bu gördüyün meyvə bağını bizim dədə-babalarımız salıb, barını biz dəririk. İndi də bu bağı

mən salıram ki, gələcək nəsillər meyvəsini dərdikcə mənə rəhmət oxusunlar. O ki, qaldı ölümə, o Allah əmridir, ondan qaçmaq olmaz. İstədiyin vaxt canımı ala bilərsən.

Əzrayıl onun bu sözündən tutulub bərk fikrə gedir. Handan-hana özünə gəlib deyir:

-Ey insan, səni öldürmək olar. Ancaq, arzularını, xeyirxah amallarını, vətənə, yurduna, insan övladına məhəbbətini heç vaxt öldürmək olmaz. Bu ürək ki, sizdə var, insan nəslini yer üzündən silmək mümkün deyildir.

Əzrayıl sonra kəndçiyə "afərin" deyib, ona toxunmadan ordan uzaqlaşır.

Nağıl burda sona çatdı. Göydən üç alma düşdü, biri kəndçinin, biri Əzrayılın, biri də nağıl danışanın.

# *Yunnupaltarın nağılı*

Əvvəllər şəhərlər də kəndlərə oxşayırdı. Heç deməzdin kənd hansıdı, şəhər hansı. Hamı mal-qoyun saxlayır, arana, dağa çıxır, odun daşıyır, atla, ulaqla yol gedirdi. Belə bir vaxtda şəhərlərin birində bir kasıb kişi vardı. Onun övlad adına bircə dənə qızı vardı. Bu qız böyüyüb on beş yaşına çatanda kişinin arvadı xəstələnir. Bilir ki, öləcək. Çağırıb ərinə deyir ki, mənim paltarım kimə yaxşı yaraşsa onu alarsan. Kişi razılaşır. Arvad canını tapşırır, onu yerdən urvatla götürürlər, qırxını, ilini el ədətiylə verirlər. Bundan sonra kişi arvadının paltarını çox gəlinlərə geyindirir, ancaq heç kimə yaraşmır. Kişi ta evlənmək fikrindən əl çəkir. Beləcə, xeyli vaxt keçir. Bir gün qız anasının paltarlarından bir dəst götürüb geyinir. Ona elə gözəl yaraşır ki, kişi məəttəl qalır. Deyir:

- Ananın vəsiyyətinə görə onda gərək səninlə evlənim.

Qız etiraz edir. Ancaq olmur. Kişi haqq-nahaq deyir ki, yox ey, gərək mənlə evlənəsən. Qız görür ki, kişi dediyini deyir, evdən qaçır. Gedib dərziyə deyir ki, mənə elə bir paltar tik, təkcə gözlərim görünsün. Dərzi də ona qoyun dərisindən paltar tikir. Qız bu paltarı geyinib başqa ölkəyə gedir. Orada padşahın qaz çobanı olur. Hamı ona paltarına görə Yunnupaltar deyir. Padşahın oğlunun isə ondan heç xoşu gəlmir. Harda Yunnupaltarı görəndə nifrətlə üzünü döndərirmiş.

Bir gün qız qazları çayın qırağına gətirir. Baxır hava yaxşı istidi, su da ilıqdı. Boylanır, görür, ətrafda heç kim yoxdu. Soyunub suya girir ki, özü də çimsin. Bu vaxt padşahın oğlu da gəzə-gəzə gəlib çayın qırağına çıxır. Görür burda bir qız çimir, özü də dünya gözəli. Durub eləcə tamaşa edir. Bir də onda ayılır ki, qız sudan çıxıb o yana, bu yana boylanır. Tez üzüyünü qıza tərəf atıb qaçır. Qız da baxır ki, padşahın oğlu onu gördü, özünü kolun dalına verib paltarını geyinir. Ondan sonra oğlan hər gün çayın qırağına gəlir, ancaq qızı görə bilmir. Evdə də yenə Yunnupaltarı görəndə nifrətlə üzünü yana tutur. Oğlan gözəl qızın həsrətindən o qədər yanır, qovrulur ki, axırda xəstə düşür. Həkimlər, loğmanlar onun dərdinə çarə tapmır. Padşah hər yana xəbər salır ki, kim oğlumu sağaltsa, onu dünya malından qəne eləyəcəm. Yunnupaltar da şahzadənin xəstəliyini eşidir. Bir qab şorba bişirir, üzüyü də şorbanın içinə salıb qulluqçuya verib deyir:

-Aparın bunu xəstəyə verin. Yeməsə, onda qaşıqla gözünün qarşısında qarışdırın. Yeyəcək.

Qulluqçu dediyi kimi edir. Oğlan qaşıqda üzüyü görən kimi şorbanı yeyir, üzüyü də barmağına taxır. Şorbanı kimin bişirdiyini soruşur. Qulluqçu deyir ki, Yunnupaltar bişirib. Tez qaçıb padşahdan muştuluq alır ki, oğlun həm yemək yedi, həm də danışdı. Padşah deyir:

-Məni istəyən, xələt!

Qulluqçuya o qədər xələt verirlər ki, zorla

yığıb-yığışdırır. Padşah oğlunun yanına gedir. Oğlu əhvalatı danışır. Padşah əmr edir ki, Yunnupaltarı gətirin. O, qızdan üzüyü hardan aldığını soruşur. Qız da hər şeyi tamam-kamal başdan danışır. Evdən qaçdığını deyir. Padşah kənizlərə əmr edir ki, qıza şahlara layiq paltar geyindirin. Kənizlər Yunnupaltarın qulluğunda elə dayanır ki, qıza yetmiş yeddi rəng bəzəyi elə vururlar ki, qapıdan girəndə elə bil saraya gün düşür. Padşah toy edib Yunnupaltarı öz oğluna alır. Cavanlar çox xoşbəxt yaşayırlar.

Bu şahzadənin əvvəlki üç kənizi başlayır fikirləşməyə ki, oğlan ta heç biz tərəfə baxmır. Necə eyləyək ki, onun Yunnupaltardan zəhləsi getsin. Ha fikirləşirlər, bir şey tapa bilmirlər. Beləcə, vaxt keçir, Yunnupaltarın bir cüt əkiz uşağı olur. Biri ay parçası oğlan, o biri də dünyalar gözəli qız. Həmin paxıl kənizlər tez uşaqların yerinə iki dənə küçük qoyub mamaçaya tapşırırlar ki, şahzadəyə xəbər yollasın. Mamaça da tamahkar idi. Kənizlərin verdiyi daş-qaşa aldanıb dediklərinə əməl etdi. Şahzadəyə xəbər yolladı:

- Bəs, gözün aydın, arvadın bir cüt küçük doğub.

Şahzadə bundan elə hirsləndi ki, əmr verdi hər küçüyü onun bir qoluna bağlayıb, meşəyə buraxsınlar. Yunnupaltarı belə də elədilər. Onu iki küçüklə zaha-zaha meşəyə atırlar. Kənizlər isə uşaqları cəllada verib öldürməsini istəyirlər. Cəllad onlara baxanda aman-nıydı. Nolsun adı cəlladdı. Uşaqları bir səbətə qoyub

yol qırağında dayandı. Gördü bir karvan keçir. Səbəti yavaşca karvandakı axırıncı dəvənin yükünə bağladı. Köynəklərini də soyundurdu. Gəlib meşədə bir dovşan vurdu, kabab eləyib yedi. Qanını da köynəklərə sürtüb, kənizlərə gətirdi. Onlar da sevincək cəllada ənam verib yola saldılar.

Bunlar burda qalsın, görək Yunnupaltarın sonrakı taleyi necə oldu? Bir az özünə gələndən sonra küçüklərin zingiltisini eşitdi. Onlara yazığı gəldi. Bir quş tutub boğazını üzdü, paraladı, onlara yedirtdi. Özü də mer-meyvədən yedi. Gözlərinə bir az işıq gəldi. Baxdı ki, yaxınlıqda bir işıq gələn koma var. Getdi ora, gördü bir div qarısı oturub nənni deyə-deyə cəhrə əyirir. Yaxınlaşıb ədəbnən salam verdi. Div qarısı başını qaldıranda gördü gözəl bir gəlindi, amma halı heç özündə deyil. Soruşdu:

- Bura nəyə gəlmisən?

Yunnupaltar başına gələni danışdı. Div qarısının ona rəhmi gəldi. Apardı yedirdi, içirdi, isti yerdə yatırdı. Küçükləri də hər gün yalladı. Otuz doqquz gün belə keçdi. Qırxıncı gün qarı dedi:

-Bu gün mənim oğlumun gələn günüdür. O səni görsə yeyəcək. Gəl sən sandıqda gizlən, küçüklərini də qucağına al. Mən onu görüm necə yola gətirrəm ki, sənə dəyməsin. Yaxşı olar, yeməsə, elə qızım kimi mənə kömək olarsan. Qocalmışam ta.

Bunu deyib qarı Yunnupaltarı sandıqda gizlətdi. Özü də üstündən tumanını salıb oturdu.  Div gəlib çıxdı. İçəri girən kimi iyləyib dedi:

-Ana, deyən yaxşı nahar hazırlamısan. İnsan iyi gəlir.

Anası dedi:

-Əvvəlcə, öküz kəsib bişirmişəm, onu ye, sonra söhbət eləyərik.

Div qırx gündü ki, anasını görmürdü. Odur ki, onun sözündən çıxmadı. Yeməyini yeyib oturdu. Doyan kimi yenə soruşdu ki, niyə burdan insan iyi gəlir? Anası and içdirib olan-qalanın hamısını danışır. Div axırda Yunnupaltara dəyməyəcəyinə and içdi. Sonra anası sandıqdan Yunnupaltarı çıxardır. Burdaca öz qızı kimi buyurub-çağırır, küçükləri də həyətdə saxlayırlar.

Bunları da burda qoyaq, uşaqlardan danışaq. Cəllad ki, onları dəvə karvanında yükə bağlamışdı, sən demə, bu karvan varlı bir tacirin imiş. Elə yoldan bir az aralanmışdılar ki, gördülər, uşaq səsi gəlir. Yaxınlaşıb gördülər ki, səbətdə iki ay parçası kimi uşaq var. Tez tacirbaşıya xəbər verdilər. O da yaxınlaşıb körpələri qucağına götürdü. Ürəyi attandı. Elə beləcə də evlərinə apardı. Əyalı ilə birgə sevərək onları böyütdü. İllər keçdi, vaxt ötdü, bu uşaqlar böyüdü. Tacirbaşı onların tərbiyəsi ilə xüsusi məşğul oldu. Kiçik yaşlarından savad verdi, molla yanına qoydu, dünyanın bütün elmlərindən xəbərdar etdi. Bu uşaqların ağlı, kamalı haqda danışmağa başladılar. Xəbər gedib padşaha da çatdı. Əmr elədi ki, o uşaqları yanıma gətirin. Gətirdilər. Padşah görən kimi dedi ki, bu uşaqlar mənə yaman oxşayır. Bir az fikirləşir,

fikirləşir, axırda tacirbaşını yanına çağırır. Soruşur ki, bu uşaqlar sənin doğma uşaqlarındımı? Düzünü de, yoxsa boynun vurulacaq. Tacirbaşı dedi:

-Qibleyi-aləm, düzünü deyim. Bu uşaqları neçə il əvvəl səbətdə karvana bağlamışdılar. Mən də götürüb böyütdüm öz balam kimi. Tərbiyə etdim, oxutdum. İndi qərar sizindi.

Padşah gördü ki, tacirin dediyi vaxt onun arvadının küçük doğduğu vaxtla üst-üstə düşür. Daha dərin firkə qərq oldu. Bu işi axıra çıxmağı vəzirinə tapşırdı. Vəzir də tez cəllada üz tutdu. Cəllad hər şeyi, necə varsa, boynuna aldı. Ağlaya-ağlaya uşaqları öldürməyə əli gəlmədiyini dedi. Vəzir gəlib əhvalatı padşaha danışdı. Padşah da günahkarları cəzasına çatdırdı. Uşaqları da saraya gətirdi. Ancaq Yunnupaltardan heç kim xəbər verə bilmədi. Bu dəfə uşaqlar dedilər ki, anamızı tapmağa biz gedirik. Onlar üz tutdu meşəyə tərəf. Bir az getmişdilər ki, gördülər işıq gələn koma var. Yaxınlaşdılar. Bu vaxt iki qara it hürə-hürə üstlərinə gəldi. Az qalmışdı ki, çatıb uşaqları yesin, Yunnupaltar arxadan itləri səslədi. Səs-küyə div qarısı da eşiyə çıxdı. Yaxına gəlib uşaqlardan kim olduqlarını soruşdu. Uşaqlar da analarını axtardıqlarını dedilər. Div qarısı bildi ki, onlar Yunnupaltarı axtarırlar. Tez dedi:

-Sizin ananız uzun illərdir ki, mənə qızım kimi olub. Mən onu yanımda saxlamışam. Gedin, padşaha da deyin ki, tapammadıq. Yoxsa, oğluma deyərəm sizi yeyər.

Bunu deyib uşaqları qovdu. Amma, uşaqlar fəhmli, kamallı idi. Uzağa getməyib divin gəlməyini gözlədilər. Elə ki, div gəldi, onu aldadıb quyuya saldılar. Div qarısı oğlunun səsinə çıxıb quyunun başına gəldi. Uşaqlar arxadan onu da itələyib quyuya saldılar. Ağzına da yekə dəyirman daşı qoydular. Analarını da, onun sadiq itlərini də götürüb saraya gəldilər. Padşah şadyanalıq etdi, ac qarınlar doyurdu, Yunnupaltar da balaları ilə birgə xoşbəxt yaşadı.

***Söyləyəni: Göyçə mahalının Dərə kəndindən Güldərən Vəli qızı.***

## Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik Xəlil oğlu) qısa tərcümeyi-hal

1. Filologiya elmləri doktoru, professor, şair.
2. 1988-ci ilin dekabr ayının 30-da “Əmək veteranı”, 1992-ci ilin may ayının 4-də “Əməkdar Mədəniyyət işçisi”, 2007-ci ilin yanvar ayında “Qabaqcıl Təhsil işçisi”, Türkiyə Cumhuriyyəti Kültür Bakanlığının “Teşekkür belgesi”-ni almışdır.
3. 20 may 1929-cu il tarixdə Azərbaycan Respublikasının Daşkəsən rayonunun Qazaxyolçular (Pirsultan) kəndində anadan olub.
4. 1946-cı ildə “Daşkəsən” qəzetində “Zəfər bayramı” adlı ilk şeiri çap olunub.
5. Natamam orta təhsilini Qazaxyolçular kəndində, orta təhsilini Dəstəfur internat məktəbində alıb. 1950-ci ildə H.B.Zərdabi adına Ki-

rovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) birinci kursuna qəbul olunub, 1954-cü ildə Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib.

6. 2004-cü ildən AYB-nin üzvüdür.

7. 1955-ci ildən 1970-ci ilə qədər "Yeni Daşkəsən" (Daşkəsən), "Mübariz" (Goranboy) və "Yenilik" (Kəlbəcər) rayon qəzetlərində redaktor, "Kirovabad kommunisti" qəzetinin məsul katibi işləyib. 1970-ci ilin oktyabr ayında H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna müsabiqə yolu ilə müəllim qəbul olunub, baş müəllim, dosent vəzifələrində işləyib. Hal-hazırda Gəncə Dövlət Universitetinin professorudur.

8. 1993-cü ildə Ankarada keçirilən "İpək yolu uluslararası xalq ədəbiyyatı simpoziumu"nda və Nevşehirdə keçirilən "Hacı Veli Bektaşi" törənində məruzəçi kimi çıxış edib.

1955-ci ilin iyul ayından "Bilik" cəmiyyətinin, 1960-ci ilin iyun ayından Jurnalistlər Birliyinin, 1989-cu ilin aprel ayından Aşıqlar Birliyinin, 1998-ci ilin oktyabr ayından Azərbaycan Vətən Müharibəsi Veteranlar Birliyinin (fəxri), 2003-cü ilin iyun ayından Yeni Azərbaycan Partiyasının, 2004-cü ilin aprel ayından Yazıçılar Birliyinin üzvüdür.

**9.** Almaniya Avropa Türk-İslam Birliyinin dəvəti ilə "Yunis İmrəyə sevgi ili" kutlamalarında məruzəçi kimi çıxış edib, Türkiyədə elmi konfraslarda və simpoziumlarda iştirak edib, İranda yaradıcılıq səfərində olub.

**10.** 2007-ci ildə "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 2009-cu ildə "Tərəqqi" medalı ilə təltif olunub.

**11.** www.sednikpasapirsultanlı.net

## 15. Kitablarının siyahısı

1. Лалə. Ашыг Бəсти. Эəнслик, Бакı, 1969,

55 səh. 10.000 nüsxə
2. Йашайан əфсанəлəр, Эəнслик, Bakı, 1973, 78 səh. 4.000 nüsxə
3. Xəstə Гасым. Эəнслик, Bakı, 1975, səh 64, 2.200 nüsxə
4. Йурдумузун əфсанəлəри. Бакı, 1976, 45 səh. 30.000 nüsxə
5. Низами вə фолклор. Билик, Бакı, 1976, 65 səh. 2.500 nüsxə
6. Йанардаь əфсанəлəри. Эəнслик, Bakı, 1978, 160 səh. 20.000 nüsxə
7. Азəрбайсан халq йарадысылыьынын inkişafı Билик, Бакı, 1981, 40 səh. 1000 nüsxə
8. Низами və xalq əfsanələri. Эəнслик, Бакı, 1983, 128 səh. 4.000 nüsxə.
9. Байатылар (топлайанлар: В.Вəлийев, С.Пашайев). Йазыçы, Бакı, 1985, 200 səh. 40.000 nüsxə.
10. Azərbaycan əfsanələrinin öyrənilməsi. Билик,

Бакı, 1985, 70 səh, 500 nüsxə.

11.Азəрбайсан xalq əфсанəлəри, Йазычы, Бакı, 1985, 285 səh, 50.000 nüsxə.

12. Азəрбайсан mifoloji мəтнлəри, Елм, Бакı, 1988, (топлайанлар Сəдник Пашайев, Maqбет Əщмəдов, Ариф Рəщимов, Ариф Acalov), 180 səh, 25.000 nüsxə.

13. Азəрбайсан fолклору вə ашыq йарадысылыьы (дəрс vəsaiti), Азəрбайсан Дӧвлəт Университetи Нəшрийуаты, Бакı, 1989, 88 səh, 500 nüsxə.

14. Azərbaycan xalq dastanlarının tədrisinə dair (metodik göstəriş), Bakı, 1989, 48 səh, 500 nüsxə.

15. ХЫХ əsr Азəрбайсан ашыq йарадысылыьы (дəрс vəsaiti), Азəрбайсан ДПИ-нин нəшрийуаты, Бакı, 1990, 98 səh, 500 nüsxə.

16. Öz səsim (şeirlər), İdeya nəşriyyatı, Gəncə, 1990, 72 səh, 500 nüsxə.

17. Азәрбайсан xalq сюйләмәләри, Йазыçы, Бакı, 1992, 211 səh, 10.000 nüsxə.
18. Пирсултан булаьы (шеирләр), Елм, Бакı, 1994, 110 səh, 1000 nüsxə.
19. Инсичичәуим (шеирләр), Эәнсә, 1996, 100 səh, 500 nüsxə
20. Караьан Усубун lətifələri, Gəncə, 1997, тәкрар nəşr. 2000, 2001, 37 səh, 1000 nüsxə.
21. Xalqın söz mirvariləri, Азәрнәшр, 1999, 110 səh, 500 nüsxə.
22. Илащи бир сәс (шеирләр), Эәнсә, 1999, 110 səh, 500 nüsxə.
23. Унну Аьсанын lətifələri, Еколоgiya nəşriyyatı, Эәнсә, 1999, 60 səh, 500 nüsxə.
24. Ağdabanlı şair Qurban, Эәнслик, Бакı, 2000, 177 səh, 500 nüsxə.
25. Дабровол Qасымын lətifələri, «Əsgəroğlu», Gəncə, 2001, 62 səh, 200 nüsxə.
26. Йәщйа бәй Дилгәмә el-oba məhəbbəti, Бакı,

Аэащ 2001, 105 səh, 600 nüsxə.

27. Ашыq Бəсти "Bənövşələr" "Əсэəроьлу", Gəncə, 2001, 80 səh, 300 nüsxə

28. Heca vəznli şeir və mənzum atalar sözləri, Эəнсə, Аэащ, 2001, 110 səh, 200 nüsxə.

29. Heca vəznli tapmacaların inkişafı, Agah nəşriyyatı, Gəncə, 2001, 110 səh, 300 nüsxə.

30. Азəрбайсан епосунуп əфсанə qaynaqları, Азəрнəшр, Бакı, 2002, 102 səh, 500 nüsxə.

31. Qaraxanlı Künə Dəmirin lətifələri, Gəncə, «Pirsultan», 2002, 51 səh, 200 nüsxə.

32. Qамышлы шаир Рцстəм, «Laçın qaya, çal yadıma düşəndə», Gəncə, «Pirsultan», 2002, 80 səh, 300 nüsxə

33. Yuxular олмасайды, «Pirsultan», 2002, 60 səh, 150 nüsxə.

34. Озан-Ашыq сəнəтинин nəzəri мəсəлəлəри, Бакı, Озан, 2002, 208 səh, 250 nüsxə.

35. Озан-Ашыq йарадысылыьына dair арашdıр-

малар, Ы силd, Эәнсә, «Pirsultan», 2002, 203 səh, 150 nüsxə.

36. Озан-Ашыq йарадысылыьына dair арашdырмалар, ЫЫ силd, Эәнсә, «Pirsultan», 2002, 230 səh, 100 nüsxə.

37. Бир ичим нәьмә (шеирләр), Эәнсә, «Pirsultan», 2003, 70 səh, 100 nüsxə.

38. Щеса вәзнли байаты vә qошма möcüzələri, Gəncə, «Pirsultan», 2003, 80 səh, 100 nüsxə.

39. Эәнсәбасар lətifələri, Эәнсә, «Agah», 2005, 201 səh, 300 nüsxə.

40. Бир чичәк дә Вәтәндir, Эәнсә, 2005, 127 səh, 200 nüsxə.

41. Əsatirlər, əfsanələr, rəvayətlər (S.P.Pirsultanlı və digər müəlliflər), "Şərq-Qərb", 2005, 304 səh, 2500 nüsxə.

42. Мир Сәфәр Баьыров йаddашларда, «Pirsultan», Gəncə, 2005, 80 səh, 100 nüsxə.

43. Елдән-обадан eşitdiklərim, Gəncə, «Agah»,

2005, 170 səh, 200 nüsxə.

44. Yıldızdağdan əsən külək, Gəncə, 2006, 100 səh, 200 nüsxə.

45. Azərbaycan folkloruna dair tədqiqlər, Gəncə, 2006, 402 səh, 200 nüsxə.

46. Publisistika və folklor, Gəncə, 2007, 330 səh, 200 nüsxə.

47. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi, Elm, 2007, 310 səh, 500 nüsxə.

48. Pirsultan Pinarı (Şeirlər), «Pirsultan», Gəncə, 2007, 666 səh, 100 nüsxə.

49. Azerbaycan efsane ve rivayetlerinin Edebi Yapıtlarımızda Karşılaştırmalı Açıklaması Bakü 2008, Bilim yayınevi, 310 sayfa, 500 adet

50. Saz nəfəsli şeirlərim, «Pirsultan», Gəncə, 2008, 121 səh, 200 nüsxə.

51. Aşıq Şəmşirin poetik aləminə səyahət, "Təknur", Bakı, 2008, 295 səh, 500 nüsxə.

52. Azərbaycan türklərinin xalq əfsanələri, Azərnəşr, Bakı, 2009, 427 səh, 200 nüsxə.

53. "Novruz-Qəndab" və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi, Azərnəşr, Bakı, 2009 112 səh, 200 nüsxə.

54. "Aşıq Tifil Əsəd və Aşıq Ağbulaqlı Aqil", "Pirsultan", Gəncə, 2009 114 səh, 100 nüsxə.

55. "Qızıl beşik və Ana maral", "Pirsultan", Gəncə, 2010, 126 səh, 100 nüsxə.

56. "Lilpar bulağı", "Pirsultan", Gəncə, 2010, 120 səh, 100 nüsxə.

57. Altın Beşik ve Anne Geğik. Gence 2010, Pirsultan yayınevi, 130 sayfa, 100 adet

58. Azərbaycan aşıq yaradıcılığına dair araşdırmalar, "Azərnəşr", Bakı, 2010, 260 səh, 200 nüsxə.

59. Azərbaycan folklorunda gülüş", Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

60. “Azərbaycan yazarlar aləmində əfsanə inciləri”. Bakı, 2010, 360 səh. 200 nüsxə

61 “Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi”, Bakı. “Azərnəşr”, 2010, 156 səh, 200 nüsxə

62. Azerbaycan Türklerinin Halk Efsaneleri, Bakü, 2010, Azerneşr yayınevi, 427 sayfa, 200 adet

63. “Xəstə Qasımın ədəbi irsinin tədqiqi”, Bakı, “Azərnəşr”, 2011, 250 səh. 200 nüsxə

64. “XXI əsrdə Azərbaycan folklorundan incələmələr”. Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

65. “Molla Nəsrəddin varislərinin lətifələri”, Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011, 120 səh. 200 nüsxə

66. Lilpar Çeşmesi (Türk dilinde) Gence 2011, Pirsultan yayınevi, 157 sayfa, 100 adet

67. “Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi” Azərnəşr, 2011, 142 səh. 100 nüsxə

68. “Azərbaycan türklərinin xalq rəvayətləri”. Azərnəşr. 2011. 630 səh. 100 nüsxə.

69. “Aşıq Nabat”. Bakı, Azərnəşr. 2012.

70. “Azərbaycan ağız ədəbiyyatında təmsil”. Bakı, Azərnəşr. 2012.

71. “Azərbaycan ağız ədəbiyyatında bayatılar”. Gəncə, 2012.

72. “Xoş xatirələrim və ipək duyğularım”. Gəncə, 2012.

## *Sədnik Paşa Pirsultanlıya həsr olunmuş kitablar*

1. Ələsgər Əlioğlu. "Sədnik Paşanın yaradıcılılıq yolu". "Səda", Bakı, 1996. 52 səh. 100 nüsxə
2. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. I hissə "Pirsultan", Gəncə, 2003, 410 səh. 300 nüsxə
3. Seyfəddin Rzasoy. "Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı". "Nurlan", Bakı, 2008. 212 səh. 500 nüsxə
4. Qasım Qırxqızlı. "Sədnik Paşa Pirsultanlının bədii yaradıcılığı". "Pirsultan", Gəncə, 2010, 130 səh, 100 nüsxə
5. Şakir Albalıyev. "Sədnik Paşa Pirsultanlı poeziyasına bir baxış". "Pirsultan", Gəncə, 2011, 80 səh, 100 nüsxə
6. Köçəri Cəfərli. "Sədnik Paşa Pirsultanlının təqdimatında: Melodik musiqi çeşməsi və Aşıq Şəmşir". Bakı, "Azərnəşr", 2011, 126 səh, 200 nüsxə
7. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. II hissə Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011, 234 səh. 100 nüsxə
8. Abbas Səmədov. „Filologiya Elmləri doktoru, professor Sədnik Paşa Pirsultanlının Elmi-nəzəri ideyası", Azərnəşr, 2012. 745 səh. 100 nüsxə.

***M Ü N D Ə R İ C A T***

*Nağılların arxeologiyası.............................................3*
*Qızıl piyalə..........................................................16*
*Keçəl İsmayıl və Şeytan...........................................23*
*Cütçü və paxıl qonşu...............................................26*
*Günahsız əl, qan rəngli gül......................................29*
*Gün sənin nəvəndi, Ay da Yəm.ən padşahının.........37*
*Qızılquş nağılı........................................................44*
*Həzrət Süleyman və qoca düny.a...........................47*
*Qıllıcanın nağılı.....................................................48*
*Səbr daşı və səbr bıçağı..........................................52*
*Dartan və Yırtan.....................................................56*
*Dərya atı................................................................63*
*Armudsanayan bəyin nağılı......................................65*
*Bəxtimi axtarıram...................................................75*
*Qırmızı don............................................................79*
*Əmrahın nağılı.......................................................83*
*Kəndli və dəvə........................................................90*
*Küllücə..................................................................92*
*Göygöz kosa və Keçəl.............................................99*
*Halal əmək............................................................107*
*Almanın nağılı......................................................111*
*Musa və Əzrayıl....................................................114*
*Ağ divlə Qara divin nağılı.....................................115*
*Əzrayılla insanın dostluğu....................................120*
*Yunnupaltarın nağılı.............................................123*

***Toplayanı və tərtib edəni:***

***Sədnik Paşa Pirsultanlı***
*Filologiya elmləri doktoru, professor*

***AZƏRBAYCAN***

***AĞIZ ƏDƏBİYYATINDA***

***NAĞILLAR***

***Korrektor:* Nəzakət Arifqızı**

***Operator və dizayner:* İlhamə Novruzova**

Yığılmağa verilmişdir: 15.11.2012.
Çapa imzalanmışdır: 06.12.2012.
Qiyməti müqavilə yolu ilə
Tiraj: 100